

# Milli Məclis Prezidentin təqdimatını dəstəklədi

*Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. "Unikal"ın məlumatına görə, iclasda "Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin edilməsinə razılıq verilməsi haqqında" məsələ müzakirəyə çıxarılıb. Azərbaycan Prezidenti İlham Əliyevin təqdimatına əsasən Baş prokuror vəzifəsinə Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə idarəsinin rəisi...*

Səh.5

UNIKAL

№13 (2008) 2 may 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



# Kərəm Həsənovun 100 milyon manatlıq obyektinin arxasındakı sirr...

*Yola salmaq üzrə olduğumuz həftə Prezident Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri Kərəm Həsənovla bağlı maraqlı məlumat yayıldı. Unikal.org-a daxil olan həmin məlumatda deyilirdi ki, o, yeni biznes mərkəzi tikdirir. Xəbərə görə, K.Həsənov özünə yaxın tikinti şirkətləri vasitəsi ilə Bakı şəhərinin Heydər Əliyev prospektində böyük bir biznes mərkəzinin tikintisinə başlayıb. "Dəyəri yüz milyon manatdan çox olan bu mərkəz paytaxtda fəaliyyət göstərən biznes mərkəzlərinin ən böyüyü olacaq" - xəbərdə vurğulanırdı. Qeyd edək ki, hazırda paytaxtda Kərəm Həsənova məxsus böyük obyektlər fəaliyyət göstərir. Belə ki, Dalğa Plaza, Baxçasaray Şadlıq Sarayı, "Bakı Mall", "Tarqovi"da Bakı Ticarət Mərkəzi məhz ona məxsusdur. Bu obyektlərin idarə olunmasıoğlu Ceyhun Həsənov tərəfindən həyata keçirilir. Həsənovun bu qədər geniş biznes imkanlarını haradan əldə etdiyi sualına cavab axtarmaq yəqin ki, mənasızdır.*

Səh.12

Səh.2



# Prezidentdən məmurlara növbəti xəbərdarlıq

## "Hakimiyyətlə müxalifət düşmən yox, rəqibdir"



*Xəbər verildiyi kimi, Dövlət Təhlükəsizlik Xidməti aprelin 29-da Biləsuvar Rayon İcra Hakimiyyətində əməliyyat keçirib. İcra başçısı Mahir Quliyevlə birgə müavinləri də saxlanıblar, məhkəmənin qərarı ilə həbs olunublar. Son bir neçə ay ərzində artıq dördüncü icra başçısıdır ki, həbs olunur.*

Səh.4

## Elman Rüstəmov yeni "işsizlər ordusu" yaradır



*Bu həftə Azərbaycanda dörd məşhur bankla bağlı önəmli gəlişmə yaşandı. Öncə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qəbul etdiyi qərarlarla "Atabank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "Amrah Bank" ASC-yə müvəqqəti inzibatçılar təyin olundu, adı çəkilən bankların idarə...*

Səh.12

## Azərbaycan Qarabağla bağlı yeni oyuna imkan verməyəcək



*Xarici İşlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü keçirilib. Vasitəçilər görüşdən sonra birgə bəyanat yayıb.*

Səh.13

# Prezident Kamran Əliyevi Baş Prokuror təyin etdi



***Prezident İlham Əliyev Kamran Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncamla Kamran Bayram oğlu Əliyev Azərbaycan Respublikasının Baş prokuroru təyin edilib. Ölkə başçısının digər sərəncamı ilə, Kamran Əliyev Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsindən azad edilib.

# Daha 50 nəfərdə koronavirus aşkarlandı - 1 nəfər vəfat etdi



***Azərbaycanda 50 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb.***

Unikal.org xəbər verir ki, 40 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, şəkərli diabet, arterial hipertenziya və ürəyin işemik xəstəliyi olan 1957-ci il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 1854 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1365 nəfər müalicə olunaraq sağalıb, 25 nəfər vəfat edib, 464 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 15 nəfərin vəziyyəti ağır, 29 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 146.630 test aparılıb.

# Miqrasiya Məcəlləsi qəbul edildi




***Azərbaycan parlamenti Miqrasiya Məcəlləsini üçüncü oxunuşda qəbul edib.***

Məcəllənin 38.6-cı bəndinin birinci cümləsi "Birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılır, imtina üçün əsas olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada viza verilir" redaksiyasında verilib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5$^{A}$
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2500

**ELAN**

Zaqatala rayon, Muğanlı bələdiyyəsindən "Babək" MMC-yə 09.11.2004-cü il tarixli verilən torpağa dair JN-6003, KOD40200058 saylı Şəhadətnamə itdiyinə görə etibarsız sayılır.

**ELAN**

"Bakı Ağacemalı"ASC-nin səhmdarlarının nəzərinə:

12 may 2020-ci ildə ASC-in səhmdarlarının iclası keçiriləcək. İclasda bütün səhmdarların iştirakı arzu olunur.

İclasın gündəliyi: ASC İdarə Heyəti sədrinin seçilməsi və cari məsələlər

**Əlaqə nömrəsi:**
**070 3569776**

# Prezidentdən məmurlara növbəti xəbərdarlıq

## İlham Əliyev: "Bəzi nazirliklərdə vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev məmurlarla bağlı sərt fikirlər səsləndirib və qanunları pozan, vətəndaşları incidən, onlara əlavə problemlər yaranlara qarşı ciddi tədbirlərin davam etdiriləcəyini bildirib: "Vacib vəzifələrdən biri korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədir. Hesab edirəm ki, prokurorluq orqanları bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Bu xoşagəlməz hallara qarşı Azərbaycanda çox ciddi mübarizə aparılır. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bütün dövlət məmurlarını xəbərdar etmişdim və hətta demişdim ki, əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin.

Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir.

Eyni zamanda, bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olmuş, kasıb adamlara göndərilən yardımı özünə götürmüşdür. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olmuşdur. Yəni, bütün aidiyyəti qurumlar bir qayda olaraq hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olmuşlar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kim fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda, cəza tədbirləri də tətbiq olunur və tətbiq ediləcəkdir.

Ona görə bu dörd rayonda



hansı ki, icra başçıları həbs olunub, orada işlər geniş təhlil edilməlidir. Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əllərindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etmişlər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Ona görə prokurorluq orqanları bu işlərdə fəal olmalıdırlar. Bu gün bu ağır dövrdə verilən ərzağı oğurlamaq, fəhlələrə nəzərdə tutulmuş maaşı öz cibinə qoyaraq mənimsəmək həm cinayətdir, həm böyük vicdansızlıqdır. Bu vəsaiti ayırırıq ki, bu gün özünə iş tapa bilməyən insan heç olmasa minimum əməkhaqqı səviyyəsində işlə təmin edilsin. Bunlar ictimai işlərdir və biz bu yolla insanları işlə təmin edirik. Əgər birinci mərhələdə təqribən 30 min iş yeri yaradılmışdırsa, hazırda mən göstəriş vermişəm ki, onların sayı 90 minə çatdırılsın. Ancaq birinci mərhələdə bu vəsaitin paylanılması icra başçıları tərəfindən həyata keçirilirdi. Burada mövcud olan nəzarətsizlik və korrupsiya halları bir çox insanları dövlət tərəfindən verilən bu yardımdan faktiki olaraq məhrum etmişdir. Bu, vicdansızlıqdır, buna başqa ad vermək olmaz. Artıq bu gün biz nəzarəti gücləndirmişik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də tapşırıq verildi ki, onlar bu işlərə də nəzarəti gücləndirsinlər. Ancaq buna baxmayaraq, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən yenə də həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Ona görə bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır. Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə, - hələ bu siqnallar araşdırılır, - vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu, cinayətdir, bu, bizim cəmiyyətimizin əsaslarını sarsıdan addımlardır, çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam ilk növbədə neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək.

Pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onlara həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyirlər. Hər gün bizim birinci və günün axırında sonuncu əsas işimiz bu məsələ ilə məşğul olmaqdır. Nə qədər adam xəstələndi, nə qədər adam sağaldı, neçə nəfər xəstəxanalara yerləşdirildi, onların vəziyyəti necədir, ağır vəziyyətdə olan vətəndaşların durumu, onların sağalma şansları necədir - biz gecə-gündüz bununla məşğul oluruq. Dövlət, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayırlar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər".

***İnformasiya şöbəsi***

# Xüsusi karantin rejiminin müddəti uzadıldı



***Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadılmışdır.***

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan APA-ya verilən məlumata görə, eyni zamanda əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar verilmişdir.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

Bununla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə 4 may 2020-ci il saat 00:00-dan etibarən:

- dövlət qurumlarının işçilərinin fəaliyyəti müəyyən olunmuş sayda bərpa olunur (fəaliyyəti bərpa olunan dövlət qurumlarının işçilərinin say həddi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən ediləcəkdir);
- "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;
- xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;
- bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;
- bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında 4 may 2020-ci il saat 00:00-dan etibarən:

- yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;
- "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;
- dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti bərpa olunur;
- restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);
- bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət götürülür;
- qeyd olunan ərazilərdə rayonlar və şəhərlərarası gediş-gəliş bərpa olunur (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla);
- xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;
- bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;
- bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur;

Xüsusi karantin rejimində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, eyni zamanda ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır.

Respublika üzrə bütün təhsil müəssisələrində tədris, təlim tərbiyə prosesinin dayandırılması 31 may 2020-ci il tarixinədək uzadılır.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların, habelə ticarət və xidmət sahələrinin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir.

Bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq.

Növbəti mərhələdə sanitar-epidemioloji vəziyyətdən asılı olaraq mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərar veriləcəkdir.

Qeyd edək ki, COVID-19 virusu ilə bağlı ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək müvafiq qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

# Azərbaycanda pandemiya hələ bitməyib! - XƏBƏRDARLIQ!

***Azərbaycanda hər kəs bilməlidir ki, pandemiya hələ bitməyib. Unikal.org-un məlumatına görə, bunu bu gün keçirdiyi mətbuat konfransında Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.***

Onun sözlərinə görə, insanlar yenə də sanitar-gigiyenik qaydalara ciddi əməl etməlidirlər ki, yoluxma sayı çox olmasın.

ÜST rəsmisi bildirib ki, ciddi karantin rejimi iqtisadi fəaliyyətə də çox mənfi təsir edir: "ÜST-ün hazırda əsas tövsiyələri sağlamlığın qorunması ilə bağlıdır. Virusdan qorunmaq üçün insanlar arasında məsafənin qorunması, sıxlıq olan yerlərdən uzaq olmaq vacibdir".

H.Harmancı əlavə edib ki, Azərbaycan pandemiyaya qarşı qlobal mübarizəyə dəstək göstərən ölkələrdəndir.

Onun sözlərinə görə, əgər pandemiyanın qarşısının alınması üçün gördüyümüz tədbirlər səmərəsiz olsa, ikidən də çox dalğa olacaq:

"İkinci dalğa birinci dalğada xəstələnməyən insanların yoluxması nəticəsində ortaya çıxa bilər. Bu dalğalar yavaş-yavaş, kiçik halda yaranarsa, səhiyyə sistemi onların öhdəsindən gələ bilər. 2-ci, 3-cü dalğa məsələsindən qorxmayın. Ən önəmli olan məsələ budur ki, özümüzü qoruyaq, virusun insandan insana keçməsinin qarşısını alaq".



# Koronavirusla mübarizədə iştirak edən tibb işçilərinə əlavələrin ödənilməsinə başlanılıb

***Azərbaycan Respublikası Prezidentinin 18 mart 2020-ci il tarixli 1947 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 mart 2020-ci il tarixli 112 nömrəli Qərarına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə mart ayı üzrə müddətli əlavələrin ödənilməsinə başlanılıb.***

Agentlikdən "Unikal"a bildirilib ki, Bakı şəhəri üzrə 122 dövlət tibb müəssisəsinin tibb işçilərinə, respublikanın digər şəhər və rayonları üzrə 5 dövlət tibb müəssisəsinin tibb işçilərinə iş vaxtına mütənasib olaraq müddətli əlavələr ödənilib.

Mart ayı üzrə ümumilikdə 7698 nəfər tibb işçisinə müddətli əlavə ödənilib. Onların 2489 nəfəri həkim, 4478 nəfəri orta və kiçik tibb işçisi, 731 nəfəri isə təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin sürücüləridir.

Nazirlər Kabinetinin Qərarına uyğun olaraq, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavələr aşağıdakı qaydada ödənilib:

1. Tibbi profilaktik tədbirləri həyata keçirən 4484 nəfər işçiyə aylıq vəzifə (tarif) maaşının 3 misli məbləğində
2. Təcili tibbi yardım xidməti göstərən 2961 nəfər tibb işçisinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan 58 nəfər laboratoriya işçisinə aylıq vəzifə (tarif) maaşının 4 misli məbləğində
3. Pasiyentlərə stasionar tibbi xidmət göstərən 195 nəfər işçiyə aylıq vəzifə (tarif) maaşının 5 misli məbləğində.

Mart ayı üzrə ümumilikdə tibb işçilərinə, təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin sürücülərinə 5.3 milyon manat məbləğində müddətli əlavə ödənilib.

Məlumat üçün bildirək ki, müddətli əlavələrin mart ayına nəzərdə tutulan hissəsinin digər dövlət tibb müəssisələri üzrə hesablanması və ödənilməsi prosesi davam edir. Belə ki, dövlət tibb müəssisələri tərəfindən göndərilən siyahılara uyğun olaraq Agentlik tərəfindən mart ayı üzrə müddətli əlavələr digər tibb işçilərinə də ödəniləcəkdir. Növbəti həftədən isə aprel ayı üzrə müddətli əlavələrin hesablanması və ödənilməsi təmin ediləcək.

Onu da qeyd edək ki, Nazirlər Kabinetinin 25 mart 2020-ci il tarixli 112 nömrəli Qərarına əsasən tibbi profilaktik tədbirləri həyata keçirən tibb işçilərinin əhatə dairəsinin müəyyən edilməsi Agentliyə tapşırılıb. Agentlik 25 mart 2020-ci il tarixli 112 nömrəli Qərarın əhatə dairəsini aşağıdakı kimi genişləndirib:

- Tibb müəssisələrində yaradılmış çağırış üzrə qeydiyyat jurnallarında qeydə alınmış sorğuya əsasən tibbi xidmətləri göstərən ailə həkimləri, sahə həkimi-terapevtlər, sahə həkimi-pediatrlar və orta tibb işçiləri;
- Təcili tibbi yardım xidmətinin və Təcili Yardım Avtobazasının sürücüləri;
- Tibb müəssisələrinin rəhbərləri, stasionar tibbi xidmətə cəlb edildiyi hallar istisna olmaqla, tibb müəssisəsi rəhbərinin müavini - baş həkimlər;
- COVID-19 infeksiyasına yoluxma ehtimalı yüksək olan xəstələrin təcrid edilməsi üçün istifadə olunan tibb müəssisələrində (qurumlarda, müəssisələrdə, təşkilatlarda) tibbi xidmət göstərən tibb işçiləri;
- COVID-19 infeksiyası ilə mübarizədə tibbi profilaktik tədbirləri həyata keçirən tibb müəssisələrinin bütün kateqoriyadan olan digər tibb işçiləri.

# “Hakimiyyətlə müxalifət düşmən yox, rəqibdir”

## Natiq Cəfərli: “Biz hər zaman hesab edirik ki, ölkənin problemlərinin masada danışıqlar yolu ilə həll olunması ən doğru variantdır”

***Xəbər verildiyi kimi, Dövlət Təhlükəsizlik Xidməti aprelin 29-da Biləsuvar Rayon İcra Hakimiyyətində əməliyyat keçirib. İcra başçısı Mahir Quliyevlə birgə müavinləri də saxlanıblar, məhkəmənin qərarı ilə həbs olunublar. Son bir neçə ay ərzində artıq dördüncü icra başçısıdır ki, həbs olunur. Göründüyü kimi, ölkədə qanunları pozan, rüşvət və korrupsiyaya bulaşan iri ranqlı məmurlar sərt şəkildə cəzalandırılır. “Unikal” qəzetinə müsahibə verən ReAL Partiyasının icra katibi Natiq Cəfərli ilə söhbətə də elə bu mövzudan başladıq.***

***-Natiq bəy, son 5 ayda 4 icra başçısı qandallanıb, 2 icra başçısı isə töhmət alıb. Baş verənləri necə qiymətləndirirsiniz?***

-Ümumi götürdükdə, bütün bunları kadrların əvəzlənməsi kimi dəyərləndirmək olar. Müəyyən müddətdir ki, bu proses başlayıb və indi də davam edir. Təəssüflə qeyd etməliyəm ki, kadr dəyişiklikləri ilə yanaşı, icra strukturlarının institusionallaşması prosesi baş vermir. İnsanları incidən, yerlərdə özünü xan kimi aparan icra başçılarının təmizlənməsi, bəzilərinin həbs olunması cəmiyyət tərəfindən pozitiv qarşılanır. Amma bir şey də var ki, bu, problemin kökündən həlli demək deyil. Bu günə qədər icra strukturlarının harda başlayıb harda qurtarması, biznesə müdaxilələrinin qarşısının alınması yolları institusional və qanunverici dəyişikliklər edilməyib. Mənə elə gəlir ki, icra strukturlarının fəaliyyəti ilə bağlı əsas problem budur. Yəni, təkcə icra başçılarını dəyişməklə deyil, həm də oyun qaydalarını, qanunları, iş mexanizmlərini, idarəetmə fəlsəfəsinin dəyişməsinə də ehtiyac var. Bunlar olacağı təqdirdə hansısa nəticələr gözləmək olar. Təbii ki, nəzarət mexanizmi ilə birlikdə qanunverici dəyişikliklər icra strukturunun fəaliyyətini normal məcraya sala bilər.

***-Son bir neçə ilə qədər cəzalanan məmurlar əsasən kiçik rütbəli olanlar idi, amma indi nazirdən tutmuş icra başçılarına qədər həbs olunan, işdən çıxarılan, töhmət verilən yüksək vəzifəlilər var. Cəmiyyətdə də o fikir yaranıb ki, ölkədə köklü dəyişikliklərə başlanılıb. Bu yanaşmanı nə qədər haqlı sayırsız?***

-Təbii ki, müəyyən dəyişikliklər baş verir. Ən azından kadr dəyişiklikləri ortadadır. Son dörd ili götürsək, bu hakimiyyətin dövründə son 4 ildəki qədər kadr dəyişikliyi olmayıb. Hökumətin tərkibi, Prezident Administrasiyasında kifayət qədər ciddi kadr dəyişiklikləri oldu. Həbs olunanlar da, işdən çıxarılanlar da, təqaüdə göndərilənlər də olub, nəzarət mexanizmləri əllərindən alınanlar da var. Bu dəyişikliklər yeni bir dövrün başlandığını bizə göstərir. Kadr dəyişikliyi baxımından, bəlli, proseslər çox sürətlə gedir. Yəni, bunları pozitiv addımlar kimi qəbul etmək olar. Ancaq islahatları dərinləşdirmək, sistemli şəkildə otuzdurmaq üçün qanunverici dəyişikliklərinə, yeni oyun qaydalarına ehtiyac var.

***-Yeni qaydalar deyəndə nəyi nəzərdə tutursunuz?***

- Biz ilk gündən deyirik ki, yaxşı, və ya pis icra başçısı olmur - doğru, və ya səhv sistem olur. Biz həmişə deyirdik ki, ümumiyyətlə İcra Başçısı institutu ləğv edilməlidir, hətta bunun yollarını da 2013-də yazmışıq. Yəni, biz “yaxşı, və ya pis insan”, yanaşmasından uzaq olub həmişə sistemin dəyişməsindən yana olmuşuq.

Gəlin, bir misal deyim. Bu günlərdə həbs olunan Biləsuvar rayonunun icra başçısının rəsmi maaşı 1044 manatdır. Vergiləri çıxandan sonra 850 manata yaxın vəsait qalır. Azərbaycanda hansı icra başçısı 850 manat maaşla dolanır? Hamımız bilirik ki, icra başçılarının maaşla dolanması mümkün deyil. Yəni, həm qanunvercilik, səlahiyyət bölgüsünün dəyişməsinə ehtiyac var, həm də maddi vəziyyət, gəlirlər nəzərə alınmalıdır.

***-Təklifiniz odur ki, icra başçılarının, eləcə də digər məmurların əməkhaqqını qaldırmaq lazımdır...***

-Şərtlərdən biri kimi bunu götürmək olar. Korrupsiya ilə mübarizəni uğurla həyata keçirən ölkələr var. Məsələn, Sinqapur təcrübəsi var. 40 il bundan əvvəl dünyanın ən korrupsiyalaşmış ölkələrindən biri idi, indi isə korrupsiyasız ölkə kimi birinci yerdədir. Orada qanunvericilik aktlarında dəyişikliklə yanaşı, məmurların maaşlarında ciddi artım oldu. Eyni zamanda, bütün sahələrdə nəzarət mexanizmləri yaradıldı. Rüşvət və korrupsiyaya bulaşanlar çox ciddi şəkildə cəzalandırıldı. Gəlin, obyektiv danışaq. Azərbaycanda 90-a yaxın şəhər, rayon icra başçısı var. Məgər bu icra başçıları 800-1000 manat maaşla dolanırlar? Hansı icra başçısını nümunə gətirmək olar? Yoxdur, belə adam. Həbs olunanları anladıq, türklər demiş, suçüstü yaxalandılar. Bəs o biri icra başçıları necə? Bir icra başçısının imzası, möhürü minlərlə manatla ölçülürsə, o zaman qanunu pozmağa, korrupsiyaya meyillilik yaranır. Bunun qarşısını almaq üçün həm onların maddi vəziyyəti yaxşı olmalıdır, həm də fəaliyyətlərinə ciddi nəzarət mexanizmləri yaradılmalıdır.

Ümumiləşdirsək, Konstitusiya islahatları həyata keçirilib yerliözünüidarə institutları yaradılmalı, seçkili Mer institutu təsis edilməli, ümumiyyətlə idarəetmə islahatları sürətlə aparılmalı, Parlamentin və hökumətin həm məsuliyyəti, həm də səlahiyyəti artırılmalıdır. Məsələlərə sistemli yanaşma məhz belə olur - cəmiyyət olaraq artıq siyasətdə “yaxşı adam” axtarışına son vermək lazımdır, yaxşı, və ya pis insan yoxdur, yaxşı, və ya pis sistem var.

***-Natiq bəy, deyirsiz ki, son dövrlər hökumət tərəfdə sima dəyişiklikləri baş verir, bəs müxalifətdə necə, bu dəyişiklik necə həyata keçirilir?***

-Başqa siyasi qüvvələri kənara qoyub özümüzdən danışa bilərəm. ReAL Partiyada kifayət qədər ciddi dəyişikliklər oldu. Hazırda qurultaya hazırlıq gedir. Çünki ilk qurultayımız online keçirilmişdi. Karantin rejiminin bitməsini gözləyirik. Ondan sonra qurultay keçirib yeni idarəetmə orqanları, yeni simaların partiyaya gələməsini və önə çıxmasını təmin edəcəyik. Bundan başqa proqramlarımıza əl gəzdirmişik, vaxtaşırı çıxışlar edirik, fikirlərimizi cəmiyyətlə bölüşürük. Hakimiyyət tərəfindən dialoq təşəbbüsü oldu, ona müsbət cavab verdik. Biz hər zaman hakimiyyətlə müxalifətin düşmən yox, rəqib olduğunu düşünürük. Biz partiya olaraq hesab edirik ki, ölkənin problemlərinin masada danışıqlar yolu ilə həll olunması ən doğru yoldur. Düzdür, indi detallı şəkildə dialoqun başlandığını demək mümkün deyil. Bizim də, hakimiyyət tərəfinin də təklif elədiyi mövzular var ki, onlar ətrafında müzakirələr aparmaq daha səmərəli olar.

***-Bəs digər partiyalar?***

-Açığı mən digər partiyaların fəaliyyətini qiymətləndirmək istəməzdim. Çünki növbəti polemikalar üçün zəmin yaranacaq. Amma bir şeydən arxayınıq ki, xalqın gözü tərəzidir. Xalq görür ki, 25 ildir ritorikası, strukturu, liderləri, hətta vitrini belə dəyişməyən partiyalar var ki, müasir dünyanın incəliklərini, dərinliklərini anlamırlar, qabiliyyətləri buna çatmır.

***-İlqar Məmmədovla bağlı bəraət və böyük məbləğdə təzmint qərarı da birmənalı qarşılanmadı. İddialar səslənir ki, ReAL Partiya hakimiyyətlə anlaşıb, sədri bəraət alıb, parlamentdə bir mandata sahib olublar...***

-Bir qrup insan var ki, sən nə edirsən et, onlar qarayaxma kampaniyasını aparacaq. İlqar Məmmədovun özü də, mən də bu barədə açıqlama vermişik. Amma görünən odur ki, həmin adamlar qarayaxma işindən əl çəkmirlər. Avropa Məhkəməsinin, Avropa Şurası Nazirlər Komitəsinin hesablama metoduna əsaslanan və həmin qərara söykənən bir təminatdır. Rəqəmin yuvarlaq olmadığı da buna sübutdur. Danışıq olsaydı, yuvarlaq konkret rəqəm olardı. Azərbaycan hökuməti bu addımı atmalı idi. Ona görə də Ali Məhkəmənin bu qərarın daxili qanunvericilik çərçivəsində olması çox yaxşıdır. Eyni zamanda beynəlxalq hüquqa da əsaslanan bir qərardır. Bu səbəbdən də indi kimlərinsə nə deməsinin elə də əhəmiyyəti yoxdur.



“25 ildir ritorikası, strukturu, liderləri, hətta vitrini belə dəyişməyən partiyalar var ki, müasir dünyanın incəliklərini, dərinliklərini anlamırlar, qabiliyyətləri buna çatmır”

***Z. Məmmədli***

# Milli Məclis Prezidentin təqdimatını dəstəklədi

## Deputatlar Kamran Əliyevin Baş prokuror vəzifəsinə təyin edilməsinə razılıq verdi



***Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. "Unikal"ın məlumatına görə, iclasda "Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin edilməsinə razılıq verilməsi haqqında" məsələ müzakirəyə çıxarılıb. Azərbaycan Prezidenti İlham Əliyevin təqdimatına əsasən Baş prokuror vəzifəsinə Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə idarəsinin rəisi Kamran Əliyevin namizədliyi irəli sürülüb. K.Əliyev parlamentin iclasında iştirak edib.***

Milli Məclisin iclasında Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin edilməsinə razılıq verilməsi haqqında məsələ müzakirəyə çıxarılıb. Deputatlar səsvermədə Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyinin lehinə səs veriblər.

"Prezident İlham Əliyevin təqdimatı ilə Milli Məclisə Kamran Əliyevin Baş prokuror vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında məsələ daxil olub". Bunu Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev parlamentin bu gün keçirilən iclasında deyib. O bildirib ki, K.Əliyevin fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilir: "Ümid edirəm ki, Milli Məclis Prezidentin təqdimatını dəstəkləyəcək. Hesab edirəm ki, Kamran Əliyevin Baş prokuror vəzifəsinə təyin edilməsinə razılıq veriləcək.

"Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyinin irəli sürülməsi hüquq ictimaiyyəti tərəfindən müsbət qarşılanır". Bunu Milli Məclis Sədrinin I müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib. O bildirib ki, bu illər ərzində Milli Məclislə Baş Prokurorluq arasında sıx əməkdaşlıq olub: "Kamran Bayram oğlu Əliyevin namizədliyini Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclasında komitənin üzvəri bütövlükdə dəstəkləyərək müsbət rəy veriblər. İnanıram ki, bundan sonra da belə olacaq".

"Mənə yüksək etimat göstərdiyinə görə möhtərəm Prezident İlham Əliyevə öz dərin təşəkkürümü bildirirəm". Bunu Azərbaycanın yeni Baş prokuroru Kamran Əliyev Milli Məclisin bu gün keçirilən iclasında deyib. K.Əliyev bildirib ki, Azərbaycan müstəqillik illərində çətin və şərəfli inkişaf yolu keçib. O qeyd edib ki, ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmiz ağır vəziyyətdən çıxaraq inkişaf yoluna qədəm qoyub. K.Əliyev bildirib ki, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünyada qabaqcıl mövqelərdən birini tutub. O əlavə edib ki, Prezident İlham Əliyevin qəti siyasəti nəticəsində koronavirusla mübarizə istiqamətində həyata keçirilən tədbirlər öz nəticəsini verib, əhali və sahibkarlıq subyektləri tam olaraq dövlət dəstəyi ilə əhatə olunub.

"Dövlət maliyyə nəzarəti orqanın fəaliyyətinin anlaşılan olması vətəndaşın inamını daha da artıran parametrlərdir". Bunu Milli Məclisin iclasında "Hesablama Palatasının illik hesabatı haqqında" məsələnin müzakirəsi zamanı deputat Tahir Mirkişili deyib. O bildirib ki, daimi olaraq beynəlxalq təcrübənin öyrənilməsi palatanın elmi fəaliyyətinin gücləndirilməsi deməkdir: "2019-cu ildə ilk dəfə təkcə xərclərin deyil, həm də büdcə gəlirlərinin audit edilməsi mühüm addımdır. Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq komitəsi ümumilikdə hesabata müsbət rəy verib. Amma bizi narahat edən bəzi məqamlar da var. 2019-cu ildə audit fəaliyyətinin azalması bizi narahat etməyə bilməz. Yoxlanılan təşkilatların informasiya sistemlərinə çıxışının az olması qarşıya qoyulan hədəflərə nail olunmasına ciddi əngəl yaradan amillərdəndir. Uğurlu fəaliyyətin əsas kriteriyası yalnız cəza vermək, büdcəyə vəsait cəlb etmək deyil. Azərbaycanda sosial dövlət konsepsiyasının həyata keçirildiyini nəzərə almalıyıq".

O qeyd edib ki, hesabat həm də komitə qarşısında böyük çağırışlar yaradır: "Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var - xüsusilə Büdcə Məcəlləsinin qəbul edilməsinə. "Satınalmalar haqqında" qanunun təkmilləşdirilməsinə də zəruri ehtiyac yaranıb".

"Hesablama Palatasının hesabatında bəzi çatışmazlıqlar var". Bunu Milli Məclisin iclasında "Hesablama Palatasının illik hesabatı haqqında" məsələnin müzakirəsi zamanı deputat Fazil Mustafa deyib. O bildirib ki, hesabat ilində sadəcə 5 auditin nəticəsi ilə bağlı Baş Prokurorluğa müraciət edilməsi kifayət qədər azdır: "Bu say çox olmalı idi. Ayrılan vəsaitin niyə səmərəli xərclənməməsi ilə bağlı qurumlar üzərində məsuliyyət artırılmalıdır".

"Milli Məclisin rəsmən fəaliyyətə başlamasından 50 gün vaxt keçir. Tərkibinin üçdə biri yenilənən qanunverici orqanda təmsil olunan hər bir adam xalq qarşısında çətin sınaqdan keçdi. İndi Azərbaycan və dünya yeni çağırışlarla üz üzə qalıb".

Bunu Milli Məclisin bu gün keçirilən iclasında İnsan Hüquqları komitəsinin sədri Zahid Oruc deyib. Onun sözlərinə görə, bəşəriyyətin məruz qaldığı qlobal böhrandan sonra çökən iqtisadiyyatlarla birgə dövlətlərin də iflasa uğrayacağını proqnozlaşdırmaq o qədər də çətin deyil: "Ona görə də bütün siyasi elitalar, o cümlədən parlamentlər tarixdə görünməmiş çətin suallar qarşısındadır. Belə şəraitdə xatırlatmaq yerinə düşər ki, 10 mart 2020-ci ildə Prezidentin Milli Məclisdə açılış nitqi əslində "Yeni Parlament üçün Manifest" adlandırıla bilər. Çünki ölkə rəhbəri deputatlara çətin siyasi sınaqlarda necə davranmağı, qlobal və regional gerçəkləri dərindən başa düşməyi və xalqa ləyaqətlə xidmətin platformasını-proqramını təqdim etdi. Bu, mühüm siyasi hadisə idi, çünki prezident ən çətin şəraitdə yüksək siyasi nüfuzunu parlamentlə bölüşdü və hökumətə-bütün komandasına öz nümunəsində hakimiyyət qolları arasında məsuliyyət bölgüsü və düzgün əməkdaşlıq formulunu növbəti dəfə təqdim etdi".

Daha sonra deputat qeyd edib ki, parlamentin yeni Sədarəti işə başlayandan bir az sonra ən azı 6 ölkənin qanunverici orqanı tamam və bir neçəsinin qismən fəaliyyətini dayandırdığı şəraitdə Milli Məclis iki vəzifəni-sürətli bir şəkildə strukturlaşmanı və yeni hüquqi-siyasi vəziyyətə uyğunlaşmaq üçün təcili tədbirləri həyata keçirməli idi. Qısa müddətdə yeni reallıqlara uygunlaşmağa, online platformalarda özünütəşkil etməyə, sənədlərin elektron dövriyyəsinə və deputatların aydın, koordinasiyalı bir şəkildə informasiya məkanına çıxması Yeni Sədarətin səfərbərlik qabiliyyətini göstərdi, əvvəlki idarəçilik ənənələrinə deyil, məhz dəyişikliklərə hazırlığını sübut etdi: "Milli Məclis sədrinin ötən 50 gündə xarakteri daha çox insanın gözləri qarşısında açıldı, millət vəkilləri ilə qarşılıqlı hörmət və iclasların aparılmasındakı təmkin özünü göstərdi. Çoxları belə hesab edir ki, əvvəlki kreslonu sadə birisi ilə əvəzləmək adi bir jest, mexaniki bir seçim deyil və Ağstafa rayonunda gənclərlə görüşdə ölkə rəhbərinin xalqa xidmətə yeni idarəçilik mədəniyyəti gətirmək istəyinə verilən ən yüksək cavab reaksiyasıdır.

Təəssüf ki, bütövlükdə Milli Məclisin daxili interyerində dəbdəbəli görüntünü, biznes klass elementlərini özündə əks etdirən plenar salondakı bütün kresloları dövlətin hazırki siyasi dəyişikliklər dizaynına, məzmununa və yeniliklər fəlsəfinə uygunlaşdırmaq mümkün deyil. Çünki bu xeyli vaxt və xərc tələb edərdi".

"Parlamentin yeni rəhbərliyi fəaliyyətə başlayarkən onun qarşısında duran ən böyük sual bu idi-hansı ənənəyə istinad etməli?" -, deyə O bildirdi ki, Bizə görə 1993-cü ildə ən çətin şəraitdə Milli Məclisin sədri seçilən Heydər Əliyevin ölkədə sabitlik yaratmaq üçün məhz burada göstərdiyi siyasi dözümə, fərqli maraqları uzlaşdırmaq bacarığına, demokratikliyə, əks fikirlərə meydan vermək cəsarətinə söykənmək daha doğru olardı. Heydər Əliyevin hakimiyyətə 2-ci qayıdışı onun Milli Məclis rəhbərliyindən başlayarkən ulu öndər ölkədə xaosu məhz burada-Parlamentdə durdurmağa nail olmuşdu. Əlbəttə, Heydər Əliyevdən əvvəlki və sonrakı sədrlər o mərtəbəyə çata bilməzdilər. Lakin parlamenti necə idarəetmək sualına cavabı məhz ondan öyrənmək gərəkdir! "Bu günlərdə Milli Məclis Aparatının tam tərkibdə buraxılmasına dair imzalanan sərəncam müstəqilliyimizdən keçən son 30 ildə cəsarətli addım olmaqla prezidentin yeni hakimiyyət quruculugu siyasətinə tamamilə uygundur.Çünki Parlamentin Aparatı hakimiyyətin kadr bankı funksiyasını yerinə yetirməlidir, Administrasiyanın yükünü bölməlidir, hüquqi-siyasi aktların qəbulunda və beynəlxalq əlaqələr sahəsində millət vəkillərinin ən yaxın köməkçilərinə çevrilməlidir. Ümidvarıq ki, Məclisin Aparatında islahatlar deputatların peşəkar fəaliyyətinə kömək edəcək, hüquqi sənədlərin keyfiyyətinin yüksəlməsinə müsbət təsir edəcək. Aparatdakı dəyişikliklər düzgün və ədalətli karyera qurmaq baxımından da çox vacibdir. Məsələn, vaxtilə burada çalışan Lətif Hüseynov məhz yüksək peşəkarlığına görə indi Azərbaycanı Avropa Məhkəməsində təmsil edir, Ceyhun Qaracayev Konstutsiya Məhkəməsində, Nizami Səfərovsa hazırda bizim sıralaramızdadır.Yenidən Məclisin Aparatını canlandırmaq, dövlət qulluğunun ali dəyərlərini özündə daşıyan bacarıqlı insanları siyasi mənsubiyyətinə, yaxud imtiyazına görə deyil, məhz bilik və bacarıqlarına, dövlətçilik təfəkkürlərinə görə seçib işə qəbul etmək zamanın tələbidir", - deyə komitə sədri çıxışını davam etdirib.

Milli Məclis Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda müzakirəyə çıxarıb. Bu barədə deputatlara Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. O, bildirib ki, dəyişikliklərlə bağlı ictimai dinləmələr keçirilib, qanunvericilik təşəbbüsü ilə çıxış edən subyektin nümayəndələri, habelə ictimaiyyət təmsilçiləri iştirak edib.

Qanunvericilik təşəbbüsü ilə çıxış edən subyektin nümayəndələri ilə müzakirələr zamanı deputatların irəli sürdüyü bəzi təkliflər nəzərə alınıb. Bəlli olub ki, deputat Qüdrət Həsənquliyev və vitse-spiker Adil Əliyevin irəli sürdüyü bəzi təkliflər nəzərə alınıb. Daha sonra məsələ səsə qoyularaq qəbul edilib.

***Hüseyn İsgəndərov***

# Biləsuvarın icra başçısının həbs görüntüləri yayıldı




***Azərbaycan Respublikası ərazisində xüsusi karantin rejiminin tətbiq edildiyi, dövlət strukturlarının fəaliyyətinin əhalinin sağlamlığının qorunması istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən şəxsi maraqları naminə istifadə edərək vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərə yol vermələrinə dair məlumatlar əsasında araşdırma tədbirləri həyata keçirilməkdədir.***

"Unikal"a Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən verilən məlumatda qeyd olunub ki, toplanılmış materiallar üzrə, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin birinci müavini Xanlar Məmmədov vasitəsilə xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar maddi yardıma ehtiyacı olan şəxslərə sosial yardım üçün ayrılan vəsaitin bir qismini hissə-hissə mənimsəməsi, habelə icra hakimiyyətinin sərəncamında olan digər vəsaitlərdən sosial yardım adı altında ayıraraq hissəsinin ona verilməsini tapşırmasına dair əsaslı şübhələr müəyyənləşib.

Bundan başqa, Mahir Quliyevin köməkçisi Pöhran Şahbazov və tabeçiliyində olan başqa vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında özünün pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib.

Həmçinin dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Mahir Quliyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə olunub.

Eyni zamanda, Mahir Quliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyinə, vətəndaşlardan müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə təkrarən rüşvət tələb edilərək alınmasına əsaslı şübhələr müəyyənləşib.

Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində, Mahir Quliyevin xidməti otağında növbəti dəfə rüşvət almasından sonra məhkəmənin qərarı əsasında keçirilmiş baxış zamanı həmin pul vəsaitləri, aparılan araşdırmalarla bağlı iş üzrə əhəmiyyət kəsb edən müxtəlif sənədlər və digər maddi sübutlar aşkar edilərək götürülüb.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Mahir Quliyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, təkrar rüşvət alma, mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

***Famil***

# Vüqar Gülməmmədov hesabat verdi

***2019-cu ildə Hesablama Palatası 47 audit və 6 analitik fəaliyyət həyata keçirib.***

Unikal.org xəbər verir ki, bunu qurumun sədri Vüqar Gülməmmədov Milli Məclisin plenar iclasında çıxışı zamanı bildirib. Onun sözlərinə görə, həyata keçirilmiş auditlərdən 28-i uyğunluq, 7-si maliyyə, 8-i maliyyə və uyğunluq, 4-ü isə ölkədə ilk dəfə səmərəlilik auditi olub.

V. Gülməmmədov bildirib ki, 2019-cu ildə Hesablama Palatası 21,3 milyon manat vəsaitin bərpasını təmin edib: "Həmin vəsaitin 19,6 milyon manatı dövlət büdcəsinə, 1,3 milyon manatı büdcədənkənar dövlət fondlarına, 335 min manatı isə dövlət qurumlarının hesablarına bərpa olunub".

V. Gülməmmədov deyib ki, ümumilikdə dövlət büdcəsinə hesabat ilində bərpa edilmiş cəmi vəsaitin 43%-i tikinti ilə bağlı xərclərin icrası prosesində yol verilmiş nöqsanlar üzrə olub. Bu istiqamətdə bərpa olunmuş cəmi vəsaitin 35,3%-i yerinə yetirilməyən işlərə görə, 20,5%-i iş həcminin artıq müəyyən edilməsi və 44,2%-i normativlərin düzgün tətbiq edilməməsi səbəbindən artıq ödənilmiş vəsaitləri əhatə edib.

O vurğulayıb ki, 2019-cu ildə Hesablama Palatası 5 nəzarət tədbiri üzrə müəyyən etdiyi qanun pozuntularına dair materialları prokurorluq orqanlarına təqdim edib: "Bunlar əsasən dövlət satınalmaları ilə bağlı qanunvericiliyin pozulması hallarıdır".

***Hüseyn***

# Elman Rüstəmov yeni "işsizlər ordusu" yaradır

## Xüsusi karantin rejimində bankları ləğv etməklə onların minlərlə əməkdaşını çətin vəziyyətdə qoymaq çıxış yoludurmu?



***Bu həftə Azərbaycanda dörd məşhur bankla bağlı önəmli gəlişmə yaşandı. Öncə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qəbul etdiyi qərarlarla "Atabank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "Amrah Bank" ASC-yə müvəqqəti inzibatçılar təyin olundu, adı çəkilən bankların idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən bank səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri müvəqqəti inzibatçıya keçdi.***

Mərkəzi Bankın İdarə Heyətinin aprelin 28-i tarixli qərarına əsasən isə həmin banklardan ikisinin - "Atabank" ASC-nin və "Amrah Bank" ASC-nin lisenziyaları həmin tarixdən etibarən ləğv edildi.

Xüsusilə sonuncu qərardan sonra iki bankın minlərlə əməkdaşının işsiz qalması düşündürücüdür. Elə aprelin 30-da "Amrah Bank" ASC-nin bir qrup əməkdaşı tərəfindən edilən etirazlar da məsələyə bu nöqteyi-nəzərdən baxılmasını qaçılmaz zərurətə çevirir.

Belə ki, adıçəkilən bankın yüzdən çox əməkdaşı onun əsas filialında toplaşaraq AMB-nin məlum bağlanmasına etiraz edib. Etirazçılar bildirib ki, bank müflis olmayıb və lisenziyasının ləğvi qanunsuzdur. "Bankımız normal fəaliyyət göstərirdi. Depozitləri də qaytarırdı. İşçilərin əmək haqları daim vaxtında verilib. Birdən-birə bir günün içində heç bir səbəb olmadan qanunsuz olaraq bankımızı bağladılar. 700 nəfərdən çox insan işsiz qalıb. Biz tələb edirik ki, işimiz bərpa edilsin. Niyə digər banklara dövlət 60-70 milyon manat pul ayırır, "Amrah Bank"-ı isə bağlayır? Belə çətin vaxtda, karantin vaxtı bizi işsiz qoyublar" - aksiyada çıxış edən bank əməkdaşı qeyd edib.Bank işçiləri həmçinin bildirib ki, aprel ayına görə onlara hələ əmək haqqı verilməyib. Sitat: "Heç vaxt gecikmə olmayıb. Hər ayın 26-sı maaş alırdıq. Bu dəfə isə gecikmə olub və maaşlarımız verilməyib. Deyirlər ki, maaşlar bir ay sonra veriləcək".

Özünü bankın məsul işçisi kimi təqdim edən şəxs toplaşan aksiya iştirakçılarına bildirib ki, onların əmək haqqları veriləcək: "Əmək haqqlar köçürüləcək. Bundan əlavə mən öz şəxsi əlaqələrimdən istifadə edərək əməkdaşları başqa banklarda işlə təmin etməyə çalışacam".

Bunu ona görə diqqətə çatdırırıq ki, istər bağlanan iki bankın, istərsə də inzibatçı təyin edilən, hələlik ləğv edilməsə də bağlanması qaçılmaz görünən digər iki bankın ümumilikdə minlərlə əməkdaşı var. Elman Rüstəmovun rəhbərlik etdiyi AMB-nin son qərarları isə bir belə insanın, üstəlik, koronavirus bəlasının bütün ölkələr kimi Azərbaycana da sıçradığı və bu səbəbdən karantin rejiminin elan edildiyi vaxtda işsiz qalması normal məntiqlə izah oluna bilməz. Həmin banklarda çalışan hər işçidən eyni zamanda bir ailənin maddi təminatının asılı olduğunu nəzərə alsaq, onda aydın görünər ki, söhbət daha çox insanın üzləşə biləcəyi problemdən gedir.

Odur ki, ölkənin baş bankı və onun rəhbəri indiki situasiyanın həssaslığını nəzərə alıb addımlarını da məhz buna görə atmalı idi.

Əlbəttə, unutmaq olmaz ki, 2015-ci ildəki iki devalvasiyadan sonra ölkənin bank sektorunda ciddi təbəddülatlar yaşandı. Nəticədə 2015-2018-ci illərdə ölkədə on kommersiya bankı bağlandı.

Bundan başqa, Azərbaycan Beynəlxalq Bankı ətrafında baş verənlər - bankın idarə heyətinin sədri olmuş Cahangir Hacıyevin 2015-ci il dekabrın 5-də həbsi, aparılmış istintaqla Cahangir Hacıyev və digərlərinin birlikdə qanunsuz maliyyə əməliyyatları, real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitini mənimsəməsi hallarının ortaya çıxması da bank sektorunda köklü problemlərin olduğunu ortaya çıxardı.

Həmçinin o da sirr deyil ki, bağlanan son iki bankların maliyyə vəziyyətinin pisləşməsi çoxdan başlayıb, xüsusən "Atabank" ASC uzun müddətdir ki, əhalinin əmanətlərinin qaytarılması üzrə öhdəliklərini icra edə bilmirdi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 noyabr tarixli, 1616 nömrəli Sərəncamına əsasən Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edildikdən və qanunvericiliklə müəyyən edilmiş aidiyyəti səlahiyyətlər təhvil alındıqdan sonra Mərkəzi Bank tərəfindən hər iki bankda aparılan yoxlamalar nəticəsində məlum olub ki, onlar ciddi maliyyə itkilərinə yol verib, öz kapitallarını tam itirmiş və müflis vəziyyətinə düşüb.

Bütün bu real mənzərəni nəzərə aldıqda belə, məhz indiki vəziyyətdə, koronavirusa görə xüsusi karantin rejimi şəraitində bankları bağlayaraq minlərlə insanı işsiz qoymaq düzgün qərar kimi görünmür. Hazırkı vaxtda "işsizlər ordusu"nun sıralarını genişləndirmək əvəzinə diqqəti bütün sahələrdə, o cümlədən, bank sektorunda problemlərin köklü həllinə yönəldilməlidir. Bu zaman elə etmək lazımdır ki, ondan vətəndaş əziyyət çəkməsin. Ola bilər Elman Rüstəmov belə bir sadə həqiqəti unudur, yaxud diqqətdən qaçırır, lakin biz hər halda ona xatırlatmaq etməyi vacib saydıq. Hazırda hər hansı problemdən çıxış yolu axtararkən sosial-iqtisadi durumundan narazı adamların sayını artırmaq əvəzinə daha optimal həll variantları tapmaq ən doğrusu deyilmi?!

***Orxan Həsənli***

# Büdcəni yüz milyonlarla manatdan məhrum edən məmurlar...

## On minlərlə insanın çoxdankı arzusunun qarşısına sədd çəkən vəzifəlilər kimlərdir?

***"Vətəndaşa məxsus hər hansı tikilinin, o cümlədən torpağın qanunsuz alınması, sökülməsi yolverilməzdir" - bunu bir neçə gün əvvəl ombudsman Səbinə Əliyeva Milli Məclisin plenar iclasında çıxışı zamanı qeyd etmişdi.***

O, həmçinin sənədsiz evlər, o cümlədən yeni tikilən binalarda kommunal xidmətlərlə bağlı problemlərə toxunmuş və vurğulamışdı ki, hər hansı tikilinin qanunsuz olması yalnız məhkəmə qərarı ilə müəyyənləşə bilər.Ancaq təəssüflə qeyd etmək lazımdır ki, ötən illərdə İcra Hakimiyyətləri və bəzi dövlət qurumları vətəndaşların razılığı və məhkəmə qərarı olmadan sənədi olmayan ev və iaşə obyektlərini istədikləri zaman sökə bilirdi. Bu, vətəndaşların narazılığına səbəb olsa da, qanunla onların tərəfində dayanan da yox idi.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev təzəlikcə Sputnik Azərbaycan-a açıqlamasında bildirib ki, təkcə Bakı və Abşeron ərazisində 500 mindən çox çıxarışsız fərdi həyət evi, yüzlərlə çıxarışsız torpaq sahələri və minlərlə yeni tikili binalarda çıxarışsız mənzil var.Ekspertin fikrincə, bu sahədəki vəziyyətin belə bir həddə çatmasının səbəbi qanunlardakı ciddi boşluqlardır. Çünki istənilən tikili barədə həmin tikinti inşa edilərkən bir neçə səlahiyyətli qurum və yaxud o qurumların səlahiyyətli nümayəndələri xəbərdar olur: "Bu baxımdan belə tikililərə qanunsuz deyil, rəsmi icazəsi olmayan tikililər deyilsə, daha doğru olar. Dəfələrlə sənədsiz mülklərin sənədləşdirilməsi məsələsinin vacibliyi gündəmə gətirilsə də, bir müddətdən sonra bu təkliflər unudularaq kənara atılıb. Hansı ki, zamanında bu sahədə ciddi dəyişikliklər olunsaydı, dövlət büdcəmiz bu çətin günlərdə bu sahədən çox ciddi yararlana bilərdi".

Onun sözlərinə görə, daşınmaz əmlak bazarında ən çox alqı-satqı prosesləri çıxarışsız həyət evləri və çıxarışsız yeni tikili mənzillər üzərindən aparılır. Sitat: "Burada itirilən, çıxarışı olmama səbəbindən vergi gəlirlərindən məhrum olan dövlət büdcəsi və vətəndaşlarda dövlətin onların əmlak hüquqlarının qorunmasına dair olan inamıdır.

Bakı ətrafındakı son 30 ildə salınmış qəsəbələrdəki fərdi həyət evlərinin çox böyük hissəsində çıxarışların olmamasına baxmayaraq, ən çox alqı-satqı prosesləri qiymətlərin ucuz olma səbəbindən həmin ərazilərdə aparılır. Təxmini statistika aparsaq, məlum olar ki, dövlət büdcəsi bu sahədəki boşluqlar və çıxarışların verilməməsi səbəbindən hər il yüz milyonlarla pul itirir" - deyən ekspert bildirir ki, çıxarışların verilməməsinə bir səbəb kimi də zamanında verilmiş tikinti və yaxud torpaq sahələrinin ayrılmasına dair bəzi sərəncamların saxta olmasıdır.

Belə ki, bu gün bəzi MTK-lar tərəfindən saxta sənədlərlə ev satılaraq aldadılmış yüzlərlə vətəndaşlarımız var. Daşınmaz əmlak sektoruna olan bu cür laqeydlik artıq insanlarda bu sahəyə ciddi inamsızlıq yaradıb.

"Həmçinin yeni tikili binaların idarə olunmasında da çox ciddi yanlışlıqlar mövcuddur. Əksər MTK-ların qanunun tələblərini pozaraq idarəetməni öz əlində saxlaması kommunal ödənişlərin yüksək olmasına və xidmətlərin aşağı səviyyədə olmasına gətirib çıxarıb. Qanunun tələbinə uyğun olaraq, yeni tikili binalar sakinlərə təhvil verildikdən sonra bina sakinləri öz idarəetmə sistemlərini, yəni Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətini qurueraq, binanın bütün idarə etməsini öz üzərlərinə götürməlidirlər", - deyə E.Fərzəliyev bildirib.

Onun sözlərinə görə, bu gün Bakı və Abşeronda 1500-dən çox yaşayış olan yeni tikili binaların olmasına baxmayaraq, hal-hazırda qeydiyyatdan keçmiş MMC-lərin sayı 170-dən aşağıdır.

Ekspert bildirib ki, idarəetmə sahəsindəki bu problemlərə də ciddi şəkildə baxılmalıdır. Belə ki, bu sahəyə ciddi nəzarətin olması həm kommunal ödənişlərin qiymətlərinin aşağı düşməsinə, həm də daha ciddi xidmətin göstərilməsi ilə nəticələnər.

Göründüyü kimi, ortada olduqca ciddi problem var, söhbət hər bir halda, ekspertin də vurğuladığı kimi, Bakı və Abşeron ərazisində 500 mindən çox çıxarışsız fərdi həyət evindən, yüzlərlə çıxarışsız torpaq sahələrindən və minlərlə yeni tikili binalarda çıxarışsız mənzildən gedir. Bu problem yoluna qoyularsa ondan ilk növbədə dövlət büdcəsi qazanacaq: həm sənədləşdirmə rüsumları, həm də ondan sonrakı mərhələdə qanuni ödənişlər xəzinəyə yüz milyonlarla manat gəlir gətirəcək. Digər tərəfdən, vətəndaşlar illərdir onları düşündürən, narahat edən bir qayğıdan azad olacaqlar və nəticədə hökumət siyasi divident əldə edəcək.

Lakin belə görünür, müəyyən məmurlar üçün özlərinin şəxsi maraqları hər şeyin önündədir və ona görə də uzun illərdir həllini gözləyən



məlum problemin aradan qaldırılmasını əngəlləmək niyyətlərindən əl çəkmək istəmirlər.

Onu da yada salaq ki, hələ bir neçə il əvvəl Bakı Şəhər İcra Hakimiyyəti hazırda paytaxt və paytaxtətrafı ərazilərdə tikilmiş sənədləşdirilməsi mümkün hesab edilən sənədsiz evlərin sayının hətta 700 mindən artıq olduğunu açıqlamışdı.

2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini demişdi: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər".

Həmin çıxışın üzərindən artıq 9 il keçib. Lakin biz yenə də mütəmadi olaraq məlum problemin üzərinə qayıtmalı oluruq.

Bir müddətdir ölkədə məmur özbaşınalığına qarşı sərt mübarizə tədbirləri həyata keçirilir. Fikrimizcə, bu mübarizə tədbirləri dövlət rəhbərinin tapşırığına baxmayaraq, xeyli vaxtdır Bakı və onun ətrafında ciddi başağrısına çevrilən sənədsiz evlər, torpaq sahələri və mənzillərlə bağlı problemin köklü həllini gecikdirən, ona mane olan vəzifəli şəxslərdən də yan ötməməlidir...

***Toğrul Əliyev***



# Nazir prorektoru direktor təyin edib

***Səhiyyə Naziri Oqtay Şirəliyev Azərbaycan Tibb Universitetinin (ATU) ümumi işlər üzrə sabiq prorektoru Natiq Xəlilova yeni vəzifə verib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, O.Şirəliyevin müvafiq əmri ilə, N.Xəlilov yeni yaradılan Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin (kemiş Respublika Taun Əleyhinə Stansiya) direktoru təyin olunub.

Qeyd edək ki, Respublika Taun Əleyhinə Stansiya sabiq direktoru Tahir Vəliyev hazırda Azərbaycan Tibb Universitetinin (ATU) ümumi işlər üzrə prorektorudur.

***Orxan Həsənli***

# "Aİ-95" markalı benzin ucuzlaşdı, bəs "Aİ-92"? - SOCAR-dan açıqlama

***"Aİ-95" markalı yanacağın qiyməti bu gündən 10 qəpik ucuzlaşaraq, 1 manat 10 qəpik olub. Dünya birjalarında neftin qiymətinin kəskin ucuzlaşmasına baxmayaraq, Azərbaycanda yerli istehsal olan "Aİ-92" markalı benzinin qiyməti dəyişmir.***

Məsələ ilə bağlı Modern.az-ın sorğusuna cavab verən SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov bildirib ki, ucuzlaşmaya səbəb "Aİ-95" markalı benzinin idxal edilməsidir: "Azərbaycanda istifadə edilən "Aİ-95" xaricdən idxal olunur və bazar qiymətlərinə alınır. Bazar qiymətləri dəyişəndə, ölkədə də həmin benzinin qiyməti dəyişir".

Xatırladaq ki, "Aİ-95" premium markalı benzinin qiyməti martın 13-də 1 manat 50 qəpikdən 1 manat 20 qəpiyə düşüb.

Tarif Şurasının rəsmi açıqlamalarına görə, dünya bazarlarında neftin ucuzlaşması fonunda Azərbaycanda benzinin qiymətlərinin əvvəlki səviyyədə qalması onunla əlaqədardır ki, "Aİ-92" markalı benzinin dəyərinin formalaşmasına təsir edən xərclər (neftin istehsalı və emalına, vergiyə çəkilən və s.) dəyişməyib: "Bu markadan olan benzin Azərbaycanda istehsal edildiyindən, dünya bazarında baş verən proseslər onun qiymətinə təsir etmir. Buna görə də hazırda benzinin qiymətinin dəyişdirilməsi məsələsini müzakirə edilmir. Azərbaycana idxal edilən "Premium-95" markalı benzinə gəlincə, onun ümumi istehlakda payı azdır (4-5 faiz) və Tarif Şurası bu markanın qiymətini tənzimləmir".

# Karantin qaydalarını pozan çayxana sahibi və 6 müştəri cərimələndi

***Ölkə ərazisində elan edilmiş xüsusi karantin rejiminin qaydalarını pozan şəxslərlə bağlı tədbirlər davam etdirilir.***

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan Unikal.org-a verilən məlumata görə, bu istiqamətdə Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən növbəti tədbirlər nəticəsində şəhərin Nizami küçəsində yerləşən çayxananın xüsusi karantin rejiminin qaydalarına zidd olaraq fəaliyyət göstərdiyi müəyyən olunub.

Obyektə baxış zamanı orada olan kafenin sahibi Rəşid Ələkbərov və Zaqatala sakini olan 6 nəfər müştərinin karantin qaydalarını pozduqları aşkar edilib. Həmin şəxslər Zaqatala Rayon Polis Şöbəsinə gətiriliblər və barələrində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək cərimə olunublar.

# "Vurulan" nazirlərin "batan" biznesləri...

## Onlar vəzifələrini və korrupsiya imkanlarını itirən kimi holdinqləri də çökür

***Nəhayət, sabiq vergilər naziri Fazil Məmmədova məxsus "Atabank"la bağlı uzun müddətdir proqnozlaşdırılan sonluq baş tutdu: yola salmaq üzrə olduğumuz həftə eks-nazirin növbəti biznes layihəsi öz ömrünü başa vurdu.***

Kiçik xatırlatma: aprelin 28-də Azərbaycan Mərkəzi Bankı (AMB) "məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdardan az olduğuna, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə" "Atabank" ASC-nin (bundan başqa, "Amrah Bank" ASC-nin də!) lisenziyalarının ləğv edildiyini və hər iki bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunduğunu açıqladı.

Dediyimiz kimi, "Atabank"ın bu aqibəti yaşamasında təəccüblü heç nə yoxdur, çünki hələ aylar öncə "Unikal" olaraq bu bankın başı üzərində qara buludlar dolaşdığını və böyük ehtimalla bağlana biləcəyini yazmışdıq. Qəzetimizin yanvar saylarının birində yazmışdıq ki, AMB vahid maliyyə nəzarəti və tənzimləmə qurumuna çevrildikdən sonra "Atabank" ASC-də ilkin araşdırmalar aparılıb-.Araşdırmalar nəticəsində "Atabank"ın ciddi maliyyə dayanıqlığı və likvidlik problemləri ilə üzləşdiyi məlum olub. O vaxt deyilirdi ki, ölkənin baş bankında yaranmış vəziyyətlə bağlı kompleks təhlillər aparılır və onların nəticəsi əsasında müvafiq təkliflər hazırlanacaq.

Dörd aydan sonra "Atabank"ın aqibətinə aydınlıq gəldi: vəzifəsini itirdikdən sonra Fazil Məmmədovun sürətlə zəifləyən "biznes imperiyasının" son "qalalarından" biri də "yıxıldı". Əslində bunda təəccüblü heç nə yoxdur. Azərbaycanda iri məmurların postlarını itirdikdən sonra şəxsi, yaxud ailə binzeslərinin tədricən "əriməsi", bir müddət sonra isə yoxa çıxması adət halını alıb. Bunun səbəbini təxmin etmək isə qətiyyən çətin deyil: həmin məmurlar bu "biznes imperiyalarını" tutduqları yüksək vəzifələrin yaratdığı imkanlar sayəsində, böyük məbləğdə büdcə pullarını korrupsiya predmetinə çevirməklə qururlar. Elə ki, vəzifələrini itirirlər, həmin imkanlar, pullar da əldən çıxır və sağlam təməllər üzərində qurulmayan həmin "biznes imperiyaları" da dəniz dalğalarının yuyub apardığı qumdan düzəldilmiş qalacıqlar kimi qeyb olurlar. İqtisadçı ekspertlər daima vurğulayırlar ki, Azərbaycanda ən böyük problem qanunlara zidd formalaşan məmur biznesidir. "Məmurlar vəzifələrini itirdikdə, bu, onların biznesinə də mənfi təsir göstərir. Azərbaycanda "xroniki xəstəlik"dir" deyən bu cür ekspertlərlə razılaşmamaq mümkün deyil. Son nümunə isə Fazil Məmmədovdur. Sabiq vergilər nazirinin "vurulmasından" sonra onun holdinqinə daxil olan şirkətlərin fəaliyyətinin zəifləməsi göz qabağındadır. Belə ki, 2018-ci ilədək "Atabank"ın da daxil olduğu "AtaHoldinq" MMC-nin nizamnamə kapitalı son iki ildə iki dəfə kəskin azaldılmışdı. Ötən ilin sonlarında "Vergilər" qəzetində yerləşdirilən elandan belə məlum olurdu ki, sabiq nazirin şirkətlər qrupu nizamnamə kapitalının 39 milyon 911 min 848 manat 34 qəpik həcmində azaldılaraq 40 milyon 71 min 816 manat müəyyən edilməsi barədə qərar qəbul edib.



Qeyd edək ki, şirkətlər qrupunun 2014-cü ildən etibarən dəyişməyən nizamnamə kapitalı ilk dəfə 2018-ci ildə 125 milyon 345 min manatdan 79 milyon 984 min manatadək azaldılmışdı.Bu isə o deməkdir ki, holdinqin çətin günləri məhz Fazil Məmmədovun vəzifəsini itirməsi ilə başlayıb. Necə ki, yuxarıda da vurğuladığımız kimi, Ziya Məmmədov da, Heydər Babayev də, Füzuli Ələkbərov da, digər böyük biznesləri olan bir sıra iri məmurlar vəzifələrindən kənarlaşdırıldıqları ərəfədə, ya da ondan dərhal sonra eyni aqibətlə üzləşmişdilər.

Deməli, bir daha məlum olur ki, məmur biznesi etibarlı deyil, onun ömrü elə məmurların kreslo ömrü qədərdir, heç bir iqtisadi səmərəlilik daşımır. Əslində bunu ötən illərin təcrübəsi də dəfələrlə təsdiqləyib: hansı iri məmur postunu itirirsə, onun şəxsi biznesi böhranlı vəziyyətə düşür! Sabiq iqtisadi inkişaf naziri Heydər Babayev, keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov, eks-nəqliyyat naziri Ziya Məmmədov kimi iri məmurların "vurulması" ilə biznes imperiyalarının zəifləməyə başlaması dediklərimizə əyani nümunədir.

Elə indi sabiq vergilər naziri F.Məmmədovun bankı ilə bağlı yaranmış vəziyyətə də ilk növbədə bu prizmadan yanaşmaq lazımdır.

Bir daha vurğulamaq ehtiyacı hiss edirik: hər dəfə belə acınacaqlı mənzərənin ortaya çıxmasına əsas səbəb odur ki, adıçəkilən və çəkilməyən bir çox məmurlar vəzifədə ikən öz təsir imkanlarını bizneslərinin gücləndirməsinə yönəldir, postlarını itirdikdən sonra həm də bu təsir imkanlarından məhrum olur, beləcə, biznesləri çöküşə keçir.

Ona görə də artıq məmur təbəqəsi ilə biznes arasına "qalın divar" hörməyin zamanı çatıb. Vəzifəli şəxslər qanunvericiliyin tələblərini pozaraq, tutduqları postların yaratdığı imkanları, sərəncamlarındakı böyük büdcə vəsaitlərini ailə üzvlərinin, qohum-əqrəbalarının, dost-tanışlarının adlarına rəsmiləşdirilən şirkətlər qurmağa yönəltməkdən əl çəkməlidirlər. Bu cür biznes qurumları onlar vəzifədə olarkən süni yollarla "şişə", böyüyə, nəhəngə çevrilə bilər. Ancaq həmin məmurların "vurulması" ilə həmin şirkətlər "batmağa" məhkumdur. Yaxın illərin təcrübəsində saysız-hesabsız belə örnək var.

Bircə qalır yüksək vəzifə sahiblərinin bundan nəticə çıxarması və nəhayət, qanunvericiliyin tələbləri ilə hesablaşmağa başlaması!

***Orxan Həsənli***

# Millət vəkilindən məmurlara xəbərdarlıq

## Vahid Əhmədov: "DTX-nın nəfsi doymayan icra başçıları ilə işi hələ uzun çəkəcək"

***"Görünən odur ki, ölkə başçısının xəbərdarlıqlarından nəticə çıxarmayıb öz çirkin əməllərini davam etdirən icra başçıları çoxdur. Ona görə də Dövlət Təhlükəsizliyi Xidmətinin peşəkar əməkdaşlarının işinin hələ uzun çəkəcəyi şübhəsizdir".***

Bunu Modern.az-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin həbsilə bağlı danışarkən bildirib.

V.Əhmədov təəssüflə həbs edilənlərin kifayət qədər təcrübəli insanlar olduğunu diqqətə çatdırıb:"Dünyanın çətin sınaq qarşısında qaldığı bir dövrdə, insanların koronavirus pandemiyası ilə can çəkişdiyi bir vaxtda, həmrəylik, mərhəmət nümayiş etdirmək əvəzinə, vətəndaşların ehtiyacı olan vəsaitini, onlara ayrılan ərzaq yardımını mənimsəmək nə insanlığa sığır, nə vicdana. Neftin qiyməti kəskin düşüb, Azərbaycanın dövlət başçısı durmadan çağırışlar edir, insanları çətin durumdan xilas etmək üçün bütün resursları səfərbər edib, bunlar kimi nəfsi doymayan icra başçıları da öz çirkin əməllərindən qalmırlar.



Belə bir vəziyyətdə icra başçısı yenə də bu işlərlə məşğuldursa, adam artıq deməyə söz də tapmır. Dəfələrlə xəbərdarlıq edilib, mətbuatda açıqlamalar verilib. Prezident "şəffaflığı təmin edək" dedikcə, rəhbərlikdə təmsil olunanbu cür adamlar vəziyyətdən sui-istifadə etməyə çalışırlar".

Deputat qeyd edib ki, bu, yanlız bir-iki nəfərlə bitməyəcək:"Gedişat göstərir ki, əksər rayon İcra Hakimiyyətlərinin rəhbərləri bu cür işləyir. Ona görə də necə deyərlər, bu xəmirin hələ çox su aparacağı gözlənilir. Amma bunun bir sonu da olacaq.

Bu gün Milli Məclisdə yeni Baş prokuror təyin edilməsinə razılıq verəcəyik. Bütün bu sistem elə işləməlidir ki, korrupsiya halları aradan qaldırılsın. Hesablama Palatasının hesabatı, həmçinin mənim korrupsiya ilə əlaqdar təkliflərim olacaq. Nə qədər korrupsiya ilə məşğul olmaq olar, nə qədər büdcəni talamaq olar, nə qədər bunlara xəbərdarlıq etmək olar?! Görünür nəfslərinə qalib gələ bilmirlər. O gün bir yaxşı ifadə işlətdilər ki, "bunların mədəsi o qədər böyükdür ki, onu doldura bilmirlər".

Hər şey bir tərəfə, indiki pandemiya dövründə Prezident büdcədən bu qədər vəsait ayırır ki, insanlar nisbətən təminatlı olsunlar, bu tərəfdən də icra başçısı çapıb-talayır. Bu hansı insanlığa sığır?! İnsanların başına olmazın oyununu gətirirlər. Neçə rayonda plastik kart məsələsi üzə çıxıb, hələ də davam edir. Bu proses 1-2 rayonla bitən deyil. Əksər rayonlar bu vəziyyətdədir. Ona görə də prosesi daha da aktivləşdirmək lazımdır. Mən Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Əli Nağıyevə, bütün əməkdaşlarına təşəkkür edirəm ki, çevik və yerində addımlar atırlar. Korrupsiya, insanların haqqı yemək ciddi məsələ olduğu üçün ictimaiyyətin bütün nümayəndələri fikir bildirməlidir, ictimai qınaq olmalıdır".

# Bu rayonlarda icra nümayəndələrinə cinayət işi açıldı - RƏSMİ



***Koronavirus infeksiyasının respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması, həmin dövrdə işləməyən şəxslərə və az təminatlı ailələrə ayrılmış ərzaq yardımlarının paylanmasında yol verilmiş neqativ hallara qarşı prokurorluq orqanları tərəfindən qanunamüvafiq tədbirlər davam etdirilir.***

Baş Prokurorluğunun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Masallı, Quba, Cəlilabad və Zərdab rayon İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol vermələri barədə yerli icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Masallı rayon İcra Hakimiyyəti başçısının Ərkivan qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi İsrail Tağıyevin vəzifə saxtakarlığı edərək aprelin 1-dən 29-dək olan müddətdə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən 74 nəfərə qanunsuz olaraq arayışlar verməsinə şübhələr üçün əsaslar müəyyən olunmuşdur.

Eləcə də, Quba rayon İcra Hakimiyyəti başçısının Vladimirovka kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəsi İslam Abayevin də vəzifə saxtakarlığı edərək ayrı-ayrı şəxslərə Qusar rayonuna getmələrinə dair qanunsuz arayışlar verməsinə şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Cəlilabad rayon İcra Hakimiyyəti başçısının Şiləvəngə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Bağır Şirəliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Heydər Əliyev Fondu tərəfindən aprelin 23-də imkansız ailələrə göndərilmiş ərzaq yardımının paylanması zamanı neqativ hallara yol verərək ərzaq paylarını özünün və müavini Rəşad Seyfullayevin yaxın qohumlarına, o cümlədən kəndin imkanlı şəxslərinə paylamasına dair əsaslı şübhələr müəyyən olunmuşdur.

Zərdab rayon İcra Hakimiyyəti başçısının Məmmədqasımlı kənd inzibatı ərazi dairəsi üzrə nümayəndəsinin müavini Mətaf Mikayılov tərəfindən də qanun pozuntusuna yol verilmişdir. Belə ki, M.Mikayılovun vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Heydər Əliyev Fondu tərəfindən aprelin 23-də göndərilmiş ərzaq yardımını imkansız ailələrə deyil yaxın qohumlarına və kəndin imkanlı şəxslərinə paylamasına əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd olunan şəxslər müvafiq rayon İcra hakimiyyəti başçılarının əmrləri ilə tutduqları vəzifədən azad edilmişlər.

Toplanmış materiallar üzrə Masallı, Quba, Cəlilabad və Zərdab rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanmışdır.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Baş Prokurorluq bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək "961" nömrəli "Çağrı Mərkəzi"nə məlumat vermələrini xahiş edir.

***Famil Fərhadoğlu***

# Hande Armancı xəbərdarlıq etdi: "Vəziyyət pisləşsə, ÜST-ün səhvi deyil"

***Yumşaldılma tədbirləri bütün dünyada davam edir. Bunu ÜST-ün Azərbaycandakı rəhbəri Hande Armancı media üçün keçirilən onlayn videokonfrans zamanı deyib.***

Onun sözlərinə görə, ciddi karantin rejimi iqtisadiyyata da böyük ziyan vurur və ciddi karantin rejiminin yumşaldılması bu baxımdan məqsədəuyğundur. Bütün hökumətlər hazırda həm insanların sağlamlığını, həm də iqtisadi inkişafı qorumaq istəyir:

"ÜST-ün əsas prioriteti isə insanların sağlamlığıdır. Yumşaldılma prosesi davam etdiriləcək, amma proseslər yaxından izləniləcək. Bu baxımdan hazırda dəqiq bir söz demək çətindir. Əhali bunu anlamalıdır ki, əgər bundan sonra yoluxma sayı artarsa, bu, hökumətlərin və ÜST-ün səhvi olaraq qiymətləndirilməmelidir. Burada əsas məsuliyyət vətəndaşların üzərinə düşür".



Azərbaycanın pandemiya ilə mübarizəsindən danışan Hande Armancı ÜST-ün rəhbərinin Azərbycanın pandemiya ilə mübarizə siyasətini yüksək qiymətləndirdiyini və əməkdaşlıq üçün cənab prezidentə minnətdarlığını bildiriyini qeyd edib.

"Mərhələli şəkildə karantin rejimindən çıxmaq üçün işlər görülür. Ancaq yenə də ehtiyatı əldən vermək olmaz. Çünki koronavirus yenidən alovlana bilər". Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı keçirdiyi onlayn brifinqdə çıxışı zamanı deyib.

O qeyd edib ki, bütün xəstəxanalarda virusa yoluxan şəxslərin sayı ciddi şəkildə azalma müşahidə olunur: "Havaların isti keçməsi və açıq havada gəzmək bu virusun yox olmasına zəmin yarada bilər. Gələcəkdə də hər hansı pandemiya ola bilər və buna hazırlıqlı olmaq lazımdır. İnsanlar arasında ən azı 1 metrlik məsafənin qorunması və otağın havasının tez-tez dəyişməsi mütləqdir. Xəstə olan zaman işə gedilməməlidir".

H.Harmancı bildirib ki, Ramazan ayında insanlar bir-birini ziyarət etməyə üstünlük verir: "Texnologiya dövründə yaşadığımızdan bunu telefon vasitəsilə etməyimiz məqsədəuyğundur".

# Məhkəmə iki bankı müflis elan etdi - QƏRAR

***Bakı Apellyasiya Məhkəməsinin 30 aprel 2020-ci il tarixli 2-3 (103)-129/2020 saylı qərarılə "Atabank" ASC müflis elan edilib və iflas proseduruna başlanıb.***

Bu barədə Əmanətlərin Sığortalanması Fondundan verilən məlumatda bildirilib.

Qeyd edilib ki, Bakı Apellyasiya Məhkəməsinin 30 aprel 2020-ci il tarixli 2-3 (103)-130/2020 saylı qərarı ilə "Amrahbank" ASC müflis elan edilib və iflas proseduruna başlanıb.

Məhkəmə qərarlarına əsasən Əmanətlərin Sığortalanması Fondu "Atabank" ASC və "Amrahbank" ASC-nin ləğvedicisi təyin edilib".

# "Meşələrimizin mühafizəsinin gücləndirilməsində israrlıyıq" - Nazirlik rəsmisi

***Meşələrdə ağacların kəsilməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidmətinə daxil olan şikayət araşdırılan zaman Yardımlı rayonunun meşə ərazisində 15 palıd ağacının kəsildiyi və təbiətə 1117 manat məbləğində ziyan dəydiyi müəyyən edilib.***

Bunu Teleqraf.com-a açıqlamasında Meşələrin İnkişafı Xidmətinin rəisi Namik Xıdırov bildirib. Onun sözlərinə görə araşdırmanın davam etdirilməsi, təqsirkarların müəyyənləşdirilərək cəzalandırılması məqsədilə rayon polis şöbəsinə müraciət olunub: "Kəsinti hallarının qarşısını ala bilmədiyi üçün sahəyə məsul işçilər cəzalandırılıb, həmçinin ərazisində yol verilən qanunsuz ağac kəsintisi faktlarına və vəzifə səlahiyyətlərinin öhdəsindən gələ bilmədiyinə görə, Yardımlı meşə sahəsinin də daxil olduğu Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru da vəzifəsindən azad edilib. Daxil olan məlumatlar əsasında araşdırmalarımız bütün regional meşə mərkəzlərində davam etdirilir".

Nazirlik rəsmisi meşələrin mühafizəsinin daha da gücləndirilməsinə dəstək məqsədi ilə vətəndaşlara da müraciət edib: "Meşə sahələrinin yaxınlığında yaşayan sakinlərə, ictimai fəal şəxslərə müraciət edirik ki, meşə ərazilərinə qanunsuz müdaxilə edənlər, ağac kəsənlər barədə regional meşə mərkəzlərinə və ya Nazirliyin 168 nömrəli qaynar xəttinə məlumat versinlər".

Biz meşələrimizin mühafizəsinin gücləndirilməsində israrlıyıq və bu işdə ictimaiyyətdən də dəstək gözləyirik".

# Bu il 100 minə yaxın əmək müqaviləsi bağlanıb

***Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məşğuluq imkanlarının artırılması və qeyri-formal məşğulluğun qarşısının alınması, formal məşğulluğa keçidin stimullaşdırılması istiqamətində görülən kompleks tədbirlər əmək müqavilələrinin sayında artımın davam etməsinə imkan yaradıb.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Unikal"a verilən məlumata görə, Nazirliyin "Əmək müqaviləsi bildirişi" e-sistemindən əldə olunan məlumata əsasən, əmək müqavilələrinin sayı bu ilin əvvəlindən 1 may 2020-ci il tarixədək 98 min artıb. Əmək müqavilələrində artımın 88 mini özəl sektorun payına düşüb.

Pandemiya ilə əlaqədar iş yerlərinin və əməkhaqlarının qorunması istiqamətində Nazirlik tərəfindən işəgötürənlərlə, o cümlədən sahibkarlarla mütəmadi işlər aparılıb. Bu istiqamətdə e-sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. İş yerlərinin qorunması təmin edilməklə, eyni zamanda, əmək müqavilələrinin sayında ciddi artımın baş verməsi işəgötürənlərin, həmçinin sahibkarların sosial məsuliyyət prinsipinin daha da gücləndiyini və mövcud şəraitdə sosial həmrəyliyə fəal dəstəyini ifadə edir.



# Azərbaycanda cəbhəyanı yollar yenidən qurulur

***"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyi Tap Qaraqoyunlu kəndi, həmçinin Xan Qərvənd kəndi istiqamətində yolların yenidənqurma işlərinə start verib.***

Unikal.org"Azərbaycan Avtomobil Yolları"na istinadən xəbər verir ki, bu işlər Goranboy rayonunun Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tap Qaraqoyunlu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən aparılır.

31 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tap Qaraqoyunlu avtomobil yolunun tikintisi 2 istiqamət üzrə aparılır - cəbhəyanı yaşayış məntəqəsi olan Tap Qaraqoyunlu kəndinə qədər və Xan Qərvənd kəndini əhatə edən istiqamət.

Sözügedən istiqamətlər üzrə yollar uzun illər istismar olunduğundan, yolun hərəkət hissəsində çökmələr, sürüşmə xarakterli deformasiyalar əmələ gəldiyindən yolun əsaslı şəkildə yenidən qurulmasına ehtiyac var idi. Çünki yolların bu cür vəziyyətdə olması yaşayış məntəqələri arasında nəqliyyat əlaqəsini xeyli çətinləşdirirdi, əhalinin rahat gediş-gəlişinə manea yaradırdı. Bu üzdən sözügedən yol dövlət başçısının tapşırığı ilə respublikada bu il təmir və tikintisinə ehtiyac olan yolların siyahısına daxil edilərək burda təxirəsalınmaz tədbirlərin icrasına start verildi.

Sözügedən avtomobil yolu texnoloji ardıcıllığa uyğun olaraq 2 hərəkət zolağı enində IV texniki dərəcəyə uyğun yenidən qurulur.

Layihəyə uyğun olaraq yolun torpaq yatağının bərpası üçün yararsız qrunt müxtəlif dərinliklərdə qazılaraq çıxarılır, əvəzinə çınqıl qruntu tökülərək kipləşdirilir. Yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün yararlı qrunt tökülərək yayılır, yolun genişləndirilməsi işləri aparılır. Bundan başqa torpaq yatağı hazır olan hissələrdə yeni yol əsası inşa edilir. Yol əsasının alt layının tikintisi optimal qırmadaş, üst layının tikintisi isə qum-çınqıl qarışığı ilə aparılır.

Avtomobil yolunun altından suların ötürülməsini təmin etmək məqsədi ilə mövcud boruların yeniləri ilə əvəz olunması, zəruri yerlərdə yenilərinin inşa edilməsi layihədə nəzərdə tutulan işlərdəndir. Bu məqsədlə 2 yerdə düzbucaqlı su keçidlərinin, müxtəlif diametrli dəmir-beton su ötürücü boruların tikintisi işləri də aparılır.

Bu işlərin ardınca "İnşaat Norma və Qaydaları"-nın tələblərinə əsasən, yolun asfaltlanması işlərinə başlanılacaq. Bunun üçün 2 laydan ibarət yeni asfalt-beton örtüyü döşənəcək, yolun çiyin hissələri optimal-çınqıl materialı ilə bərkidiləcək.

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında yüksək keyfiyyətlə icra olunan layihənin sonuncu mərhələsində yol boyu zəruri yerlərdə avtobus dayanacaqları, yol nişanı, km göstəricisi və siqnal dirəkləri quraşdırılacaq, hərəkətin normal təşkili üçün üfüqi nişanlama xətləri çəkiləcək.

Sözügedən yolun yenidən qurulması yol boyu yaşayan vətəndaşlarımızın rayon mərkəzinə, həmçinin Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolu vasitəsi ilə respublikamızın istənilən istiqamətinə hərəkət etməsinə imkan yaratmaqla avtomobillərin hərəkətinin təhlükəsizliyinə zəmin yaradacaq, yük və sərnişin daşımasını asanlaşdıracaq, kənd təsərrüfatının inkişafına təkan verəcək, məhsulun tez bir zamanda istehsalçıdan istehlakçıya çatdırılmasına hərtərəfli şərait yaradacaq.

# "Gözü çıxmış qardaş"dan dərs almayan icra başçıları...

## Günün sualı: həmkarlarının həbsi belə rayon rəhbərlərini qanunsuz əməllərdən çəkindirmirsə, onda nə etməli?



***Yola salmaq üzrə olduğumuz həftə daha iki yüksək çinli məmurun həbsi ilə yadda qaldı: onlardan biri icra başçısı, digəri isə şəhər icra nümayəndəsidir.***

Belə ki, öncə İsmayıllı rayon icra hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədovun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirib. Yayılan rəsmi məlumatda Məhərrəm Əhmədovun həbsinə səbəb kimi onun kasıblara dövlət tərəfindən ayrılmış ərzaqların mənimsəməsinə dair əsaslı şübhələr olduğu qeyd olunub. İstintaq zamanı toplanmış ilkin sübutlar əsasında fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb, M.Əhmədov şübhəli şəxs qismində tutulub. Bundan iki gün sonra - aprelin 29-da isə DTX rüşvət, korrupsiya və digər qanunsuz əməllərə görə Biləsuvar Rayon İcra Hakimiyyətində əməliyyat keçirib. İcra başçısı Mahir Quliyevlə birgə müavinləri - birinci müavin Xanlar Bayram oğlu Məmmədov, müavin - sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Elsevər Cəmil oğlu Həsənov, müavin - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ləman Cəbrayıl qızı Yüzbaşova saxlanıblar.

Kiçik bir xatırlatma edərək bildirək ki, bu həbs dalğası ötən ilin sonlarından başlayıb. Belə ki, 2019-cu ilin dekabrın 19-da DTX-nın keçirdiyi əməliyyatla Ağstafanın o vaxtkı icra başçısı Nizaməddin Quliyev və birinci müavini Ramiz Tatarov həbs edilib, sonradan barələrində həbs-qətimkan tədbiri seçilib. Onlar mütəmadi olaraq öz səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilirdi. Həmin vaxt Yevlax rayonunun sabiq icra başçısı Qoca Səmədov da həbs olunmuşdu. 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədov vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edildiyi üçün qandallanmışdı.

İki ay öncə isə eyni şübhələrlə Dövlət Təhlükəsizliyi Xidməti Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyevi həbs saxlamışdı.

Hazırda onlar da həbsdədirlər.

Bu baş verənlərdən sonra güman etmək olardı ki, icra başçıları və onların yaxın ətrafı özlərinə çəki-düzən verməyə başlayacaq, qanunsuz əməllərdən çəkinəcəklər. Lakin görünən odur ki, istər prezidentin öz çıxışlarında yerli icra hakimiyyəti başçılarınaetdiyi mütəmadi xəbərdarlıqlar, istərsə də elə kabinetlərindəcə qollarına vurulan qandallarrayon rəhbərlərinə dərs olmayıb. Əks təqdirdə DTX-nin bu cür əməliyyatları davam etdirməsinə ehtiyac qalmazdı.

Bu mənada ötən günlərdə həm Mahir Quliyevin, həm də Məhərrəm Əhmədovun saxlanılması həqiqətən heyrət doğurur. Bir rayonun icra başçısı son 6 aydakı həbslərdən necə nəticə çıxarmaya, "gözü çıxmış qardaşlarından"ibrət götürmək əvəzinə yenə də qanunsuz əməllərlə məşğul olmağa davam edə bilər? Axı rayon rəhbərləri nəyə güvənərək hələ də rüşvət və korrupsiyadan yapışmaqda, özlərini əyalətlərin "kiçik padşahı" kimi aparmaqdadırlar? Bu qədər vurdumduymazlıq axı necə mümkündür?

Prezident ilk həbslərdən sonra açıq şəkildə bəyan etmişdi ki: "Mənim kameralar qarşısında yeni təyin edilmiş icra başçılarına dediyim sözlər onlara verilən ən ciddi tapşırıqdır və onlar bu tapşırığı yerinə yetirməlidirlər. O cümlədən vətəndaşlara münasibətdə yekəxanalığa yer olmamalıdır, özlərini təkəbbürlü aparmamalıdırlar, vətəndaşlara yuxarıdan aşağıya baxmamalıdırlar, vətəndaşlara xidmət etməlidirlər, vətəndaşları incitməməlidirlər, hansısa abadlıq işlərinə sahibkarlardan qanunsuz pul tələb etməməlidirlər. İndi abadlıq adı ilə bilirəm ki, sahibkarlardan vəsait yığırlar. Bu, qətiyyən qəbuledilməzdir. Belə abadlıq bizə lazım deyil. Rüşvət almamalıdırlar, əksinə, çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Yoxsa bəzi hallarda kimsə gəlib nəsə iş görmək istəyir, ona şərait yaratmaq əvəzinə, ondan pul tələb edirlər. İndi son vaxtların tədbirləri bunu göstərdi. Mən xəbərdarlıq etmişdim. Bəzilərinə dedim ki, hər kəs eşitsin, əyri yolla getsəniz inzibati cəza ən yüngül cəza olacaq. İnzibati cəza ilə iş məhdudlaşmayacaq. Amma bəziləri bəlkə hesab edirdilər ki, onlara aid deyil. Ona görə belə yolverilməz addımlar atdılar. Bu, əslində, dövlətə, dövlət siyasətinə edilən xəyanətdir. Eyni zamanda, belə dəhşətli faktlar aşkarlanır ki, adam vallah heç bilmir nə fikirləşsin".

Dövlət rəhbərinin bu cür açıq və kəskin xəbərdarlığı ortada ikən, bu gün həbsdə bir neçə keçmiş həmkarları varkən bir çox icra başçılarının sanki dünya vecinə deyil: hələ də oturduqları kreslonu vətəndaşı süründürmək, sahibkarları incitmək, soymaq, dövlət vəsaitlərini çapıb-talamaq, bir sözlə, vəzifəni "qaz vurub qazan doldurmaq" vasitəsi kimi görürlərsə, adamın deməyə sözü qalmır. Belə çıxır ki, onlar nəinki reallıq hissini, qanunlara hörmət duyğusunu itiriblər, ümumilikdə ağıllı, məntiqli mühakimə yürütmək imkanından məhrumdurlar. Var-dövlət hərisliyi insanın gözünü nə qədər örtməlidir ki, özündən əvvəl bir neçə iri məmurun qandallandığına şahid ola-ola, yenə də özbaşınalıqla, korrupsiya ilə məşğul olasan?!

Prezident vəzifəli şəxsləri vətəndaşlara nümunə olmağa çağırır, ancaq başqa bir rayonun - İsmayıllının icra başçısı Nahid Bağırov Azərbaycan Respublikasının ərazisində koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejimi qaydalarını pozduğuna görə ölkə rəhbərindən töhmət alırsa oturub düşünürsən: bu "kiçik padşahlara" daha necə dərs vermək lazımdır ki, onlar axır ki, bir nəticə çıxarsınlar, özlərinə, davranışlarına, fəaliyyətlərinə çəki-düzən versinlər?! Daha nə etmək gərəkdir ki, icra başçıları köhnə ampulalarından əl çəksinlər, yeni dövrün çağırışlarına, tələblərinə uymağa başlasınlar?!

Həqiqətən bu suallara cavab tapmaqda çətinlik çəkirik. Belə görünür, bizdə rayon rəhbərlərinin sağlam işləyib-işləmədiklərini təftiş etməzdən öncə müəyyənləşdirmək lazımdır: onların sağlam mühakimə yürütmək qabiliyyətləri var, ya yox?

Əks halda bir icra başçısı özündən əvvəl bəzi həmkarlarının həbsinə gətirib çıxaran qanunsuz əməllərlə məşğul olmağa hələ də niyə, hansı məntiqlə davam etsin ki?!

***Toğrul Əliyev***

# Zərərli məhlul vurularaq çəkisi artırılan toyuqlar: "Təhlükə daha da artacaq"



***Qida Təhlükəsizliyi Agentliyi tərəfindən mütəmadi olaraq, keyfiyyətsiz, saxta məhsulların istehsalı ilə məşğul olan sexlər aşkarlanır. Bu cür sexlərdən gah saxta kərə yağları, gah məşhur brendlərin adından istifadə etməklə əhaliyə müxtəlif yararsız məhsullar satılır. Bu günlərdə Maştağada ortaya çıxarılan sexdə də əhalinin yaxşı tanıdığı broyler brendinin adından istifadə edilərək xarici ölkədən gətirilmiş quş ətinin qablaşdırıldığı və əhaliyə satıldığı məlum oldu.***

Belə ki, Bakı şəhəri, Sabunçu rayonu, Maştağa ŞTQ, Mehdi Hüseynzadə küçəsi 4 ünvanında fəaliyyət göstərən Babayev Valeh Vaqif oğluna məxsus quş əti emalı müəssisəsində aparılan araşdırma zamanı Azərbaycana idxal edilən müxtəlif əmtəə nişanlı dondurulmuş toyuq ətlərinin sexdə antisanitar şəraitdə donu açıldıqdan sonra daxilinə məhlul vurularaq çəkisinin artırıldığı müəyyən edilib. Həmin toyuqların qablaşdırılaraq üzərində istehsalçı fiziki şəxs Əliyev Elşən Əziz oğlu qeyd olunan "Siyəzən çolpa" və istehsalçı fiziki şəxs Zeynalov Aslan Mirseyfəl oğlu yazılan "Cücələrim" əmtəə nişanı adı altında Azərbaycan məhsulları kimi satışa çıxarıldığı aşkarlanıb.

"Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Huseynov məsələ ilə bağlı Lent.az -a bildirib ki, bu faktdan sonra quruma çoxsaylı istehlakçı zəngləri daxil olur:

"Məlum olub ki, bu sexə naməlum ünvandan gizli xarici toyuq əti gətirilir, onlara xüsusi şprislər vasitəsi ilə mənşəyi məlum olmayan maye vurulub dondurulur və qablaşdırılaraq başqa ad altında satış şəbəkələrinə verilir. Tam məsuliyyətlə bildirirəm ki, bu cinayət əməli ölkənin qida təhlükəsizliyi konsepsiyasına çox böyük zərbədir, bu seqmentə qarşı insanlarda inamsızlıq və şübhə yaradır. Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələrinin məlumatına görə, gizli işbazlar hazır məhsulu satış məntəqələrinə "Siyəzən çolpası" adı altında çatdırıb. Bu fakt isə ikiqat cavabdehlik və cinayət tərkibi yaradır".

O qeyd edib ki, belə məlumatlar AİB-ə 3-4 il əvvəl gəlməyə başlayıb: "Lakin aldığımız bütün tədbirlərə baxmayaraq, bu tendensiyanın kökünü kəsmək mümkün olmayıb. Bu baxımdan Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin bu sahədə səylərini ürəkdən dəstəkləyirəm və onlara hər cür yardım göstərməyə hazıram. Sözügedən şəxslər "Siyəzən Broyler" ASC-nin adından istifadə edərək, satışa mənşəyi və keyfiyyəti bəlli olmyan, gigiyenik cəhətdən təhlükəli məhsullar çıxararaq, həm şirkətin işgüzar nüfuzunu zədələyib, həm də istehlakçıların həyatı üçün təhlükə doğuran cinayət əməli törədiblər. Bu cinayətdə istifadə edilən toyuq nümunələrinin mənşəyi ilə bağlı müvafiq güc strukturları tərəfindən araşdırmalar aparılmasının vaxtı çoxdan çatıb".

E.Hüseynov bildirib ki, bu məsələ ilə bağlı "Siyəzən broyler" ASC ilə əlaqə saxlayıb və məlum olub ki, "Siyəzən broyler" ASC-də heç bir zaman "Siyəzən çolpası" adlı əmtəə brendi olmaylb.

E.Hüseynovun fikrincə, bu vəziyyətin yaranmasında alıcıların da müəyyən təqsiri var. Onların primitiv qablaşdırmadan, bişirilmə prosesində çəkinin az qala yarısının itməsindən və qiymətlərin şübhəli dərəcədə ucuz olmasından bilməlidir ki, aldıqları məhsul saxta və insan həyatı üçün çox təhlükəlidir.

Ümumiyyətlə, belə hallar ölkədə nə qədər geniş yayılıb? Bu əməllərin qarşısını almaq üçün hansı effektiv üsullardan istifadə etmək olar?

Mövzu ilə bağlı Lent.az -a açıqlama verən Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Nicat Nəsirli bir sıra məsələlərə toxunub. O bildirib ki, ərzaq məhsullarının satışı zamanı fırıldaqçı üsullara əl atmaq, müxtəlif brendlərin adından istifadə edərək qablaşdırma ilə və eyni zamanda çəkidə istehlakçını aldatmaq ilk növbədə qanunvericiliyə ziddir:

"Azərbaycanda istehlakçıların hüquqlarının qorunması haqqında qanun var. Məhsulun üzərində göstərilən brendlə içindəki məhsul eyni olmalıdır. Brend varsa, bu o deməkdir ki, həmin ərzaq və qeyri-ərzaq məhsullarının hamısının dövlət tərəfindən təsdiq olunmuş standartları var. Həmin standartların içində məhsulun görünüşü, rəngi, qoxusu, çəkisi və s. qeyd olunur. Məhsulun həmin standart çərçivəsində təqdim olunması vacibdir. O standartdan kənara qaçılırsa, bu artıq istehlakçıların hüquqlarının pozulmasıdır".

Nəsirli bildirib ki, bu problem bütün ölkələrdə var: "Xüsusilə də, ərzaq məhsullarının sənaye üsulu ilə istehsalı dövründə ekoloji cəhətdən təmiz hazırlanmasına diqqət etmək, istehlakçı hüquqlarının tam qorunması ciddi problemlərdən biri olaraq qalır. Xarici təcrübədə olduğu kimi, bizdə də bu sahəyə nəzarət edən dövlət qurumu var. Nəzərə alsaq ki, Azərbaycanda ümumi istehlakçıların sayı qida və kənd təsərrüfatı sahəsində 1 milyon 300 mindən çoxdur, bu qədər bazar iştirakçısının fəaliyyətini izləmək asan deyil. Burda optimallaşdırmanı, bütün istehsal prosesinin elektronlaşdırmasını aparmaq yaxşı olardı. Ötən il Qida Təhlükəsizliyi Agentliyi bütün sahibkarların qeydiyyatını apardı ki, bu müsbət addım idi. Ən azı artıq ölkədə kimin harda nə istehsal etdiyi ilə bağlı əldə bir məlumat var. Amma bütün istehsalçılar, xüsusilə də xaricdən donmuş toyuğu gətirib, yerli məhsul adı ilə əhaliyə satan bu cür fırıldaqçıların o sistemə girmiş olmasına inanmıram. Ən mütərəqqi yollardan biri odur ki, mütləq optimallaşdırma və bütün istehsalçıların standartlardan keçməsi təmin olunmalıdır. Bu çox ağır prosesdir. Bir nəçə ildə görüləcək iş deyil. İkinci ən optimal variant odur ki, istehlak bazarına nəzarət gücləndirilməlidir. AQTA öz funksiyalarına aid olaraq yalnız keyfiyyət məsələlərinə nəzarət edir. Bir də böyük satış bazarları var. Həmin o böyük satış bazarlarında insanlara qarşı edilən fırıldaq heç də saxta istehsalçıların etdiyindən az deyil. Bunlar ciddi problemlərdir. İstehlakçı kimi biz də AQTA-nın fəaliyyətini dəstəkləyirik. Nəzərə alsaq ki, may ayının ortalarından artıq aktiv temperatur yüksəlməyə başlayacaq antisanitar vəziyyətdə istehsal olunan qidaların insan sağlamlığı üçün təhlükəsi daha da artacaq".

Nəsirli bir başqa vacib məqama toxunub. Həmin sexlərdə çalışanların sağlamlıq məsələsinin önəmini vurğulayıb: "Biz heç bilmirik belə sexlərdə işləyən insanların özünün sağlamlığı nə vəziyyətdə olur. Bilirsiniz ki, koronavirus dövrüdür. Çalışan insanlar yoluxubmu, istehsal sahələrində gigiyenik vəziyyət necədir? Ümumiyyətlə, bütün istehsal yerlərində ilk növbədə gigeynik göstərici orda çalışanların özünün sağlamlıq məsələsidir. Şəxsən mənim üçün maraqlıdır ki, böyük istehsal müəssisələrində çalışanları ayda bir dəfə tibbi analizdən keçirirlərmi? Çünki elə xəstəliklər var ki, məsələn vərəm xəstəliyi, tüpürcək vasitəsilə qidaya keçə bilir. Ona görə də ərzaq məhsullarının istehsalı sahəsində hərtərəfli nəzarət gücləndirilməlidir".

***Aygün İbrahimli***



# Nazirlik direktoru vəzifədən azad edib

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidməti daxil olan şikayət araşdıran zaman Yardımlı rayonunun meşə ərazisində 15 palıd ağacının kəsildiyi və təbiətə 1 117 manat məbləğində ziyan dəydiyi müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında nazirliyin Meşələrin İnkişafı Xidmətinin rəisi Namik Xıdırov bildirib.

O deyib ki, təqsirkarların müəyyənləşdirilərək cəzalandırılması məqsədilə rayon polis şöbəsinə müraciət olunub.

Araşdırmadan sonra kəsinti hallarının qarşısını ala bilmədiyi üçün sahəyə məsul işçilər cəzalandırılıb, həmçinin ərazisində yol verilən qanunsuz ağac kəsintisi faktlarına və vəzifə səlahiyyətlərinin öhdəsindən gələ bilmədiyinə görə, Yardımlı meşə sahəsinin də daxil olduğu Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru da vəzifəsindən azad edilib.

***Amid***

# Bakı metrosu açılır? - Qurum rəsmisi aydınlıq gətirdi

***Sosial şəbəkələrdə və bəzi saytlarda Bakı metrosunun mayın 11-də işini bərpa edəcəyilə bağlı məlumat yayılıb.***

Məsələ ilə bağlı "Bakı metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov Modern.az-a açıqlama verib. O bildirib ki, bu barədə qərar Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən açıqlanacaq: "Bizə bu barədə hər hansı göstəriş verilməyib. Nə qərar olacaqsa, Operativ Qərargah açıqlayacaq. Biz də o qərara uyğun olaraq, addım atacağıq".

Qeyd edək ki, koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə "Bakı Metropoliteni" martın 31-i saat 22:00-dan etibarən işini dayandırıb.

# Mərkəzi Bank banklara nə göstəriş verib? - Açıqlama

***Valyuta bazarında vəziyyət stabilləşib. "Unikal"ın verdiyi xəbərə görə, bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmov bu gün keçirilən mətbuat konfransında məlumat verib.***




Onun sözlərinə görə, hətta valyuta hərraclarında tələb 193 mln. dollardan 57 mln. dollaradək enib: "Əlavə stabilləşmə potensialı da var. Bu da əhalinin nağd valyuta alışları problemidir. Biz əvvəlki səviyyəyə qayıtmamışıq və bu istiqamətdə işlər davam etdiriləcək". E. Rüstəmov sözlərinə görə, AMB banklara göstəriş verib ki, onlar konvertasiya siyasətinə diqqət etsinlər: "İlk növbədə, ölkənin sosial əhəmiyyətli ehtiyaclarına - ərzaq, dərman ləvazimatı ilə təminatı və bu kimi məhsulların ölkəyə idxalına üstünlük versinlər. Başqa məhdudlaşdırma yoxdur. Bu da əslində məhdudlaşdırma deyil, tövsiyə xarakterlidir".

# BNA-dan xəbərdarlıq

## Bu gündən dayanma-durma qaydalarını pozan sürücülər cərimələnəcək

***"Bu gündən Bakı Nəqliyyat Agentliyi (BNA) tərəfindən dayanma-durma və parklanma qaydalarının pozulması nəticəsində problemlər müşahidə olunan ərazilər nəzə xəta törədən sürücülərə qarşı müvafiq tədbirlər görülür".***

Bu barədə "Unikal"a məlumat verən Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat katibi Mais Ağayev bildirib ki, 27 apreldən karantin rejiminin yumuşaldılması, eləcə də bəzi xidmət və iş yerlərinin fəaliyyətinin bərpa olunması ilə küçələrdə nəqliyyat vasitələrinin və piyadaların intensivliyinin artması müşahidə olunmaqdadır:

"Nəticədə bəzi ərazilərdə dayanma-durma və parklanma qaydalarının pozulması avtomobillərin, eyni zamanda piyadaların hərəkətində manеələr yaradır, bəzi hallarda isə nəqliyyat sıxlığına gətirib çıxarır.

Mövcud vəziyyət müntəzəm və ekspres xətlər üzrə avtobusların hərəkət intervalına da mənfi təsir etməkdədir. Eyni zamanda bu hal sms vasitəsi ilə hərəkət icazəsi alan vətəndaşların da lüzumsuz yerə vaxt itirmələrinə səbəb olur. Bu səbəbdən də cərimələr bu gündən bərpa olunue.

Bir daha sürücüləri yol hərəkəti qaydalarına əməl etməyə, nəqliyyat vasitəsini idarə edərkən digər hərəkət iştirakçılarına qarşı anlayışlı olmağa dəvət edir".

Karantin rejimi ilə əlaqədar Bakı şəhərinin küçə və prospektlərində nəqliyyat sıxlığının olmamasını və bir çox ictimai iaşə obyektlərinin fəaliyyət göstərməməsini nəzərə alaraq, 21 mart 2020-ci il tarixindən dayanma-durma və parklanma qaydalarını pozan sürücülərə qarşı inzibati tənbeh tədbirlərinin icrası müvəqqəti olaraq dayandırılmışdı.

***Amid***

# Yeni Baş prokurordan anons

## Kamran Əliyev:"Korrupsiyaya qarşı ciddi tədbirlər görüləcək"



***Azərbaycanın yeni Baş prokuroru Kamran Əliyev Milli Məclisin bu gün keçirilən plenar iclasında çıxış edib.***

"Unikal" xəbər verir ki, çıxış edən Baş prokuror bildirib ki, ölkəmizdə aparılan islahatlar və yenilənmə prosesi məhkəmə hüquq sisteminin ən mühüm tərkib hissələrindən biri olaraq Azərbaycan Respublikası Prokurorluğunu da əhatə edir:

"Əsas vəzifəsi ölkəmizdə qanunların icra və tətbiq olunmasına nəzarət olan Azərbaycan Prokurorluğu daim ali dövlət rəhbərliyinin diqqət və qayğısını öz üzərində hiss edib. Belə ki, müstəqil Azərbaycan Prokurorluğunun inkişafının əsasları ümumilli lider Heydər Əliyev tərəfindən qoyulmaqla ötən illər ərzində həyata keçirilən çoxşaxəli islahatlar nəticəsində prokurorluq peşəkar kadr potensialı ilə komplektləşdirilmiş müasir orqana, insan hüquq və azadlıqlarının etibarlı təminatçısına, qanunçuluğun və dövlətçiliyin qorunmasında öz üzərinə düşən vəzifələri layiqincə icra edən quruma çevrilib".

Kamran Əliyev qeyd edib ki, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və hazırda davam etdirilən islahatlar bu yeni dövrdə Azərbaycan prokurorluq orqanları qarşısında yeni və olduqca mühüm vəzifələr qoyur:"Bu kontekstdə prokurorluq qarşısında duran ümdə vəzifələri birincisi, dövlətin təhlükəsizliyinə qəsd edilən cinayətlərə qarşı mübarizənin kəsərinin artırılması, dövlətçiliyin daxili və xarici təhlükələrdən müdafiə edilməsi; ikincisi, cinayətkarlığın bütün növlərinə qarşı mübarizə və qanunçuluğun qorunmasında digər hüquq və mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti ilə birgə səylərin gücləndirilməsi; üçüncüsü, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsində prokurorluğun iştirakının genişləndirilməsi; dördüncüsü, həm dövlət, həm də özəl sektorda korrupsiyanın bütün təzahür formalarını, eləcə də vəzifəli şəxslər tərəfindən törədilən cinayətlərə qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi; beşincisi, hazırda ölkəmizdə reallaşdırılan sosial-iqtisadi inkişafa hədəflənən islahatlar kontekstində vergi və gömrük siyasətinin optimallaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması və sahibkarlığın hüquqi vasitələrlə dəstəklənməsi; altıncısı, ölkə iqtisadiyyatının kölgə iqtisadiyyatına qarşı təsirli mübarizənin aparılması kimi mühüm strateji tədbirlərdə yaxından iştirak etmək; yeddincisi, məhkəmələrdə dövlət və onun müdafiə edilməsi işinin keyfiyyətcə yeni mərhələyə qaldırılması, balanslaşdırılmış cəza siyasətinə riayət edilməklə cəzanın məqsədlərinə nail olunmasında əsaslı dönüş əldə edilməsi; səkkizninci, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi və qabaqcıl beynəlxalq təcrübəni cari fəaliyyətimizdə tətbiqidir".

***H.İsgəndərov***

# Kərəm Həsənovun 100 milyon manatlıq obyektinin arxasındakı sirr...

## ƏMDK-nın sabiq sədri hər il dövlət büdcəsinə köçürməli olduğu vəsaiti niyə yarımçıq ödəyirmiş?

***Yola salmaq üzrə olduğumuz həftə Prezident Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri Kərəm Həsənovla bağlı maraqlı məlumat yayıldı. Unikal.org-a daxil olan həmin məlumatda deyilirdi ki, o, yeni biznes mərkəzi tikdirir.***

Xəbərə görə, K.Həsənov özünə yaxın tikinti şirkətləri vasitəsi ilə Bakı şəhərinin Heydər Əliyev prospektində böyük bir biznes mərkəzinin tikintisinə başlayıb. "Dəyəri yüz milyon manatdan çox olan bu mərkəz paytaxtda fəaliyyət göstərən biznes mərkəzlərinin ən böyüyü olacaq" - xəbərdə vurğulanırdı.

Qeyd edək ki, hazırda paytaxtda Kərəm Həsənova məxsus böyük obyektlər fəaliyyət göstərir. Belə ki, Dalğa Plaza, Baxçasaray Şadlıq Sarayı, "Bakı Mall", "Tarqovı"da Bakı Ticarət Mərkəzi məhz ona məxsusdur. Bu obyektlərin idarə olunmasıoğlu Ceyhun Həsənov tərəfindən həyata keçirilir. Həsənovun bu qədər geniş biznes imkanlarını haradan əldə etdiyi sualına cavab axtarmaq yəqin ki, mənasızdır. O, 10 il Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri vəzifəsində çalışıb. Bu müddətdə Həsənov barədə KİV-də yer alan korrupsiya iddialarının isə nə sayı var, nə hesabı... Təsadüfi deyil ki, onun haqqında ictimai rəydə də daha çox neqativ münasibət hökm sürür. Kərəm müəllimin sədrliyi dövründə ƏMDK-nin şəffaf fəaliyyətindən danışmaq səhrada su axtarmaq qədər məşəqqətli işdir. Elə bu da onu təkcə medianın deyil, ümumilikdə ictimaiyyətin də ciddi tənqid və irad hədəfinə çevirdi. İş o yerə çatmışdı ki, sadəcə mərkəzi KİV-lər, iqtisadçı ekspertlər, iş adamları yaxud ictimaiyyətin sadə nümayəndələri deyil, hətta millət vəkilləri də sabiq ƏMDK sədrinin fəaliyyətindən narazılıqlarını gizlətmirdilər.

Həsənovun adıçəkilən Komitəyə sədr təyin olunduqdan sonra şəxsi biznesini görünməmiş dərəcədə böyütməsi isə həmin tənqidlərin, iradların, ittihamların səbəbsiz olmadığı qənaətini möhkəmləndirir. Belə ki, onun rəhbərliyi dövründə ƏMDK özəlləşdirmədən dövlət büdcəsinə hər il təxminən 100 milyon manat köçürməli olsa da, hər dəfə bu məbləği müxtəlif bəhanələrlə xeyli az ödəyib. Bəs 10 il ərzində özəlləşdirilən saysız-hesabsız obyektlərin pulu hara gedib? Ən əsası, bu özəlləşdirmələrin özünün də nə qədər açıq, ədalətli keçirildiyi daim şübhə altında olub.İnternet üzərində kiçik bir axtarış aparmaq kifayətdir ki, Həsənovun ƏMDK-ya rəhbərliyi dövründə keçirilən özəlləşdirmələrdə yol verilən qeyri-şəffaflıqlar, haqsızlıqlar barədə qarşınızapalaz-palaz şikayətlər, müraciətlər çıxsın. Təkcə ayrı-ayrı ASC-lərin mülkiyyətindəki torpaq sahələrinin həmin səhmdar cəmiyyətlərin səhmdarlarının xəbəri olmadan hərraca çıxarılması, bir çox hallarda isə hətta dəyərindən qatbaqat aşağı qiymətə satılması (əslində isə peşkəş çəkilməsi!) barədə internet resurslarında saysız-hesabsız giley-güzar məktublarına rast gəlinir.

Bütün bunların fonunda elə həmin on il ərzində Kərəm müəllimin şəxsi biznesinin çiçəklənməsi, onun təkcə Bakıda hər birinin on milyonlarla manat dəyərində, bəzən isə bundan da qat-qat artıq məbləğə başa gələn biznes obyektlərinə sahib olması təəccüb doğurmur. Üstəlik, onun digər oliqarx məmurlar kimi öz biznesinin idarəçiliyini əsasən oğluna həvalə etməsi də ibrətamizdir. Oxşar nümunəyə biz artıq "vurulmuş" bir sıra iri məmurların (məsələn, keçmiş nəqliyyat naziri Ziya Məmmədov) təcrübəsində rast gəlirik. Hansı ki, sonrası geniş ictimaiyyətə yaxşı məlumdur.

ƏMDK sədri postundan kənarlaşdırıldıqdan sonra indi də Bakıda ümumi dəyəri 100 milyon manatdan çox olan yeni biznes mərkəzi tikdirməsi isə təəccüblü qarşılana bilməz. ƏMDK-ya sədrlik etdiyi dövrdə qazandığı böyük maliyyə imkanları ona bu cür nəhəng layihəni gerçəkləşdirmək imkanı verir.



Maraqlı məqam isə odur ki, Kərəm müəllim hazırda köhnə məmur eşalonundan qalan iki oliqarxdan biridir. O və fövqəladə hallar naziri Kəmaləddin Heydərov bir zamanlar geniş biznes şəbəkəsinə malik olan yüksək vəzifəli şəxslərin az qala hamısı "vurulduğu" halda hələ də öz güclərini az və ya çox dərəcədə qoruyub saxlaya bilirlər. Lakin ölkədəki köklü islahat əhval-ruhiyyəsi belə deməyə əsas verir ki, oturduqları kresloya şəxsi, yaxud ailə bizneslərini qurmaq, böyütmək üçün fürsət kimi baxan məmurlara yeni idarəetmə düzənində yer yoxdur. Əvvəl-axır onlar da reform dalğasından öz nəsiblərini alacaqlar...

***Sənan Mirzə***



# Azərbaycan Qarabağla bağlı yeni oyuna imkan verməyəcək

## Politoloq: "Rəsmi Bakı yalnız təzyiq vasitəsilə münaqişənin həllini sürətləndirə bilər"

***Xarici İşlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü keçirilib. Vasitəçilər görüşdən sonra birgə bəyanat yayıb.***

Elə həmin gün Qorçakov Fondunun təşkil etdiyi onlayn "dəyirmi masa" zamanı Rusiyanın xarici işlər naziri Sergey Lavrov BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələri barədə danışarkən bildirib: "Hazırda danışıqlar masasında Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllini təklif edən bir sənəd var".

O çıxışında qətnamədə Azərbaycanın ərazi bütövlüyünün təsdiqini tapdığından və müharibədən danışıqlara keçilməsindən söz açaraq bildirib: "Bu sənədlər mərhələli yanaşma əsasında nizamlanmaya doğru irəliləməyi nəzərdə tutur, ilk mərhələdə ən aktual problemlərin həllini, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsini və nəqliyyat, iqtisadi və digər əlaqələrin blokadasının aradan qaldırılmasını təklif edir. Odur ki, bu sənədlərin imzalanması mərhələsinə gələn zaman bunun müharibənin dayandırılmasını və danışıqlar aparılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsində vacib addım olacağına əminəm. İndi isə danışıb razılaşmaq lazımdır və biz də ATƏT-in Minsk qrupunun həmsədrləri kimi buna çalışırıq".

Bu barədə fikirlərini "Unikal" qəzeti ilə bölüşən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin nizamlanması istiqamətində mərhələli həll planını açıqlaması, demək olar ki, işğalçı ölkədə Paşinyana qarşı Qarabağ klanı yeni cəbhə açır. Politoloqun fikrincə, onlar Baş naziri Qarabağı Azərbaycana verməkdə günahlandıraraq siyasi revanş götürmək istəyir, amma, qüvvələri yoxdur:

"Qeyd edim ki, Sergey Lavrovun bu açıqlaması, Paşinyan iqtidarını çox pis vəziyyətlə üzləşdirib. Onlar hər vəchlə bunu yalanlamağı və mərhələli həll planının olmadığını qeyd edirlər. Təbii ki, onların bu arqumenti əsassızdır və mərhələli həll planına uyğun olaraq danışıqlar masasında əyləşiblər. Amma, məsələnin digər fərqi ondadır ki, işğalçı tərəf planı mahiyyətcə qəbul etsə də, ilk növbədə Qarabağın statusunu ilkin şərt kimi irəli sürürlər. Bu ilkin şərt Qarabağın müstəqilliyi deməkdir. Bundan əlavə, mərhələli həll formulu özü polemikadı və münaqişənin həllini kifayət qədər uzadır. Burada xalqların öz müqəddaratı prinsipinin ehtiva olunması, birbaşa işğal faktorunda erməni amilini qabardır. Qarabağın həll formulu bütün danışıqları tormozlayır və bizim yekunda əleyhimizə işləyə bilər. Həmçinin xalqların özünün müqəddaratının həlli prinsipi Qarabağ münaqişəsinin həllində ən problemli məsələdi və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə əsaslanmalıdır. Amma, Ermənistan tərəfi qəti şəkildə Qarabağın Azərbaycanın tərkibində olmasını qəbul etmir. Ona görə də işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində danışıqların yekun nəticəsi, yalnız danışıqların pozulması olacaq. Bu onda baş tutmaya bilər ki, Minsk formatı kənara çıkilsin Azərbaycan və Ermənistan özü bir araya gəlib, həll formulunu müəyyən edib, razılığa gəlsin. Belə bir imkan və şərait mümkündür. Amma, maraqlı ölkələr buna imkan vermir.

Hazırda Ermənistan daxilində ümumi siyasi vəziyyət gərginləşir. Paşinyana qarşı yeni cəbhə formalaşır. Keçmiş Təhlükəsizlik Komitəsinin sədri Vanetisyan yeni siyasi qüvvə toparlayır. Rusiya da bu şəxsi dəstəkləyir. Göründüyü kimi, daxildə siyasi gərginliklər Paşinyanın Qarabağ danışıqlarında kompromis mövqe tutmasının qarşısını alır. Azərbaycan yalnız təzyiq vasitəsilə münaqişənin həllini sürətləndirə bilər. Artıq uzun müddətdən sonra cəbhə xəttində artilleriyanın işə düşməsi Ermənistan üçün mesajdır. Nikol Paşinyan öz xalqını sülhə hazırlamadı və substantiv danışıqlara razı olsa da, nəticədən çəkinir".

Rusiyanın mövqeyinə gəldikdə isə M.Əsədullazadə bildirib ki, Moskva Kazan formulunu irəli sürür, amma bununla razılaşma Azərbaycan üçün müəyyən risklidir: "Ermənistanın Baş naziri Nikol Paşinyan praqmatik siyasət ortaya qoyub, Rusiyadan asılı olmadan konkret olaraq birbaşa Azərbaycan prezidenti ilə danışıqlara gedib, hətta Naxçıvanda neytral ərazidə bir araya gəlib münaqişənin həllində ciddi nəticə əldə edilə bilməsi üçün belə bir görüş mümkün ola bilər. Paşinyan vəzifəyə gəldikdən bir neçə ay sonra, heç bir ölkənin iştirakı olmadan prezident İlham Əliyevlə görüşdü, qısa danışıqlar apardı və şifahi razılıq da əldə edildi. Azərbaycanın da marağındadır ki, üçüncü ölkələrin müdaxiləsi olmadan birbaşa danışıqlara getsin. Belə bir təcrübə olub, amma Ermənistanın eks- prezidenti Robert Koçaryan Rusiyadan tam asılı olduğu üçün Moskvaya çağrıldı və bu razılaşmadan imtina edildi. Ermənistanın Baş nazirinin bunu etməsi mümkündür. Sadəcə onun siyasi iradə ortaya qoyması lazımdır. Ola bilər ki, bu baş versin. Onsuz da Qarabağ klanı sıradan çıxarılır. Bu Ermənistan üçün şansdır və ölkənin gələcək inkişafı işğal olunmuş ərazilərdən çıxmaqdan asılıdır. Bunu Paşinyan da yaxşı bilir. Azərbaycan tərəfi post-pandemiya dövrünə imitasiya danışıqlara imkan verməsi real görünmür".

Politoloq Cümşüd Nuriyev isə bu barədə açıqlamasında deyib ki, Sergey Lavrovun Qarabağ açıqlamasında düşmən tərəf üçün heç bir qorxu görmür. Onun fikrincə, ermənilər yenə də bundan vaxtı öz xeyirlərinə uzatmaq üçün istifadə edirlər: "Yalandan məlumat yayırlar ki, guya Lavrov Qarabağətrafı rayonların Azərbaycana qaytarılması məsələsini gündəmə gətirir. Bunun hamısı Ermənistanın daxili publikasına hesablanmış addımlardır. Bu məsələni əsasən, Paşinyanın əleyhdarları gündəmə gətirir, müxalifət də bir söz axtarıb tapmalıdır ki, iqtidarı ittiham edə bilsin. Əslində Lavrovun bu çıxışı düz çıxış deyildi. Birincisi, Lavrov ATƏT-in Minsk qrupunun üzvü olan bir ölkənin xarici işlər naziridir. İkincisi də, hamımız bilirik ki, onun milliyyəti ermənidir. Yəni Lavrovun Ermənistanın xarici işlər naziri statusunda çıxış etməsi yolverilməzdir. Lavrovun çıxışının heç bir əhəmiyyəti olmadı, bundan sonra Mnatsakanyan kəskin şəkildə rayonların qaytarılmayacağını dedi.

Əslində Lavrovun çıxışı, Azərbaycana bir mesaj idi ki, niyə tərpənmirsiniz? Əlbəttə, onların da, Ermənistanla bağlı problemləri var. Amma Azərbaycan tərpənəndə, bizə hansı zərbənin vurulacağı məsələsini araşdırmaq lazımdır ki, bu indi nə dərəcədə Azərbaycana lazımdır. Çünki Rusiyanın uzağa gedən maraqları var. SSRİ-nin bərpa olunması gündəmdədir. Bu baxımdan, Azərbaycanın yenidən işğal olunması məsələsi gündəmə gələ bilər. Bir az soyuq başla fikirləşmək lazımdır. Əlbəttə, hamımız istəyirik ki, Qarabağ azad olunsun. Torpaqlar artıq itkisiz qaytarılmalıdır. Növbəti müharibə vəziyyəti daha da gərginləşdirə bilər, buna görə də siyasi situasiyanı düzgün qiymətləndirmək lazımdır.

Sözün açığı, dünya Qarabağ məsələsinə çox biganə yanaşır. 2016-cı ildə bu məsələnin həlli üçün şans yaranmışdı, amma bu gün də gec deyil. Ölçülü-biçili addım atmaq olar. Yəni Lavrovun bu açıqlamasının Azərbaycanı qıcıqlandırmaq və təxribata çəkmək üçün olmadığı bəlli deyil. Onun həddindən artıq hiyləgər diplomat və erməni olduğunu yaddan çıxarmamalıyıq. Erməni heç vaxt bizi sevə bilməz, yenə deyirəm, bunun arxasında hiyləgər bir siyasət var və bu, Azərbaycanı yenidən tora salmağa hesablanıb. Biz buna gedə bilmərik".

Politoloq onu da qeyd edib ki, mövcud geosiyasi situasiya Azərbaycan ordusunun hərəkətə keçməsi üçün uyğun deyil: "Məlumdur ki, bu dəqiqə dünyada 12 dəfə Oskar mükafatına layiq görülə bilən pandemiya ssenarisi həyata keçirilir. Dünya dövlətləri də başa düşür ki, bunun arxasında hansı güclər durur. Artıq ABŞ-da həbslər başlayıb. Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) məlumatına görə, Amerika və dünyanın ayrı-ayrı ölkələri üzrə 125 minə qədər insan həbs olunmalıdır. Burada uşaq oğurluğundan söhbət gedir. Həmin uşaqlardan ölümsüz insan növləri yaratmaq istəyirlər. Amerikanın yaydığı bu məlumatın nə qədər doğru olduğuna zəmanət verə bilmərəm, amma bu məsələ gündəmdə var. Ola bilsin ki, bu Trampın yenidən seçilməsi üçün qurduğu ssenaridir, yəni hər şey ola bilər. Bəlkə də Azərbaycan Qarabağ məsələsinə görə onların siyahısında dörd, ya beşinci yerdədir. Amma biz ilk addımı atsaq, təxribata getsək, bizi ittiham edəcəklər. Başqa sözlə, bu addım üçün beynəlxalq situasiya əlverişli deyil".

***Z.Məmmədli***

# ABŞ Çinə qarşı sanksiya tətbiq edə bilər




***ABŞ administrasiyası Çin hakimiyyətinin yeni növ koronavirusla bağlı məlumatları gizlətməsinə görə bu ölkəyə qarşı tədbirlər hazırlayır, sanksiyaların tətbiqi və Amerika borc öhdəliklərinin sıfırlanması kimi addımları gözdən keçirir.***

APA "TASS"-a istinadən xəbər verir ki, bu barədə "CNN" telekanalı məlumat yayıb.

Məlumata görə, ABŞ-ın müxtəlif dairələrinin nümayəndələri bu məqsədlə uzunmüddətli müvafiq planlar hazırlayır.

"Bu planlara sanksiyaların tətbiqi, ABŞ-ın borc öhdəliklərinin sıfırlanması və ya ticarət sahəsində yeni qaydaların qoyulması daxildir", - deyə telekanalın məlumatında qeyd olunub.

"CNN" saytında bildirilir ki, bəzi ABŞ administrasiya rəsmiləri, həmçinin çox tələsik qərar verməkdən ehtiyat edirlər. Çünki indi pandemiya sonrası lazım olan tibbi ləvazimatlarla ABŞ-ı məhz Çin təmin edir.

# Bayden vitse-prezident vəzifəsi üçün namizəd seçiminə başlayır

***ABŞ-da prezidentliyə namizədlərdən biri Co Bayden vitse-prezident vəzifəsinə namizəd seçilməsi üçün komitənin tərkibini rəsmən açıqlayıb.***

Bu barədə ABŞ-ın Milli İctimai Radiosu məlumat yayıb.

Baydenin təşviqat meneceri Cen O'Melli Dillanın sözlərinə görə, vitse-prezident vəzifəsinə namizədin seçilməsi prezidentlik kampaniyasında çox vacib rol oynayır.

"Bunu Co Baydendən daha yaxşı heç kim bilmir", - Dillan belə deyib.

# Tramp İsveçi qınadı: "Bədəlini çox ağır ödəyir"



***Koronavirusa görə karantin elan etməyən İsveç bunun bədəlini çox ağır ödəyir.***

Bu barədə ABŞ Prezidenti Donald Tramp "Twitter"də bildirib. "Bu günədək orada 2462 nəfər ölüb. Bu, qonşu ölkələr Norveç (207) Finlandiya (206) və Danimarkada (443) qeydə alınan rəqəmlərdən daha yüksəkdir. ABŞ düzgün qərar verib!", - deyə ABŞ Prezidenti qeyd edib.

# Kimdən təbrik məktubu gəldi –1 mayla bağlı

***Şimali Koreya liderinin səhhəti ilə bağlı şayiələrin artdığı bir vaxtda, dövlət mediası Kim Çen Inın ölkəsinin işçilərini Beynəlxalq İşçi Günü münasibətilə təbrik etdiyini bildirib.***

Strateq.az "IRNA"-ya istinadla xəbər verir ki, bundan əvvəl Kim Vonsan şəhərinin işçilərinə, eləcə də Suriya prezidenti Bəşər Əsədə təbrik məktubu göndərib.

Şimali Koreya lideri təxminən 20 gündür ictimaiyyət qarşısına çıxmır. 36 yaşlı Kim Çen In sonuncu dəfə aprelin 11-də rəsmi tədbirə qatılıb.

# Haftar ordusu darmadağın edildi – Döyüşlər başladı



***Liviya Milli Sülh Hökuməti qiyamçı Haftar ordusunun hərbi mövqelərinə raket zərbələri endirib.***

hökumətin yaydığı açıqlamada Haftar ordusunun silah-sursat və canlı qüvvə daşıyan hərbi texnikaların vurulduğu bildirilib.

Əməliyyatın Kariyyat və Nəsmə bölgələri arasında həyata keçirildiyi qeyd edilsə də, əlavə detala yer verilməyib.

Hökumət qüvvələri, bundan başqa, qiyamçıların paytaxt Tripolidəki Vatiyyə hərbi hava bazasına 5 hücum gerçəkləşdirib. Əməliyyatda Haftar ordusunun canlı qüvvələri və silah anbarları hədəf alınıb.

# PUTİN MİŞUSTİNDƏN XİLAS OLMAQ İSTƏYİR?

## COVID-19 Rusiyanın daxili siyasətini dəyişmir



***Baş nazir Mixail Mişustin COVID-19 diaqnozunun təsdiqləndiyini söyləyib. Baş nazirin birinci müavini Andrey Belousov baş nazir vəzifəsinin icraçısı təyin edilib. BelousovuN təyinatı fərmanını imzalayan Vladimir Putin bildirib ki, vətəndaşların, iqtisadiyyatın və təsirə məruz qalan sektorların dəstəklənməsi ilə bağlı yekun qərarlar Mişustinin rəyi və iştirakı olmadan qəbul olunmayacaq.***

Putinin prezidentliyi dövründə bu, ilk dəfədir ki, baş nazirin müavini baş nazir vəzifəsinin müvəqqəti icraçısı təyin edilir.

Moskva Karnegi Mərkəzindəki "Rusiya daxili siyasəti və siyasi təsistləri" Proqramının direktoru Andrey Kolesnikov hesab edir ki, Putin Mişustini bu şəkildə tamamilə əvəz etməyə çalışmır. "Xəstəliyin sonunda Mişustinin baş nazir olmaqdan vaz keçəcəyini düşünmürəm, çünki o hələ özünü sübut edə bilməyib. Heç kim özünü sübut etməyə macal tapmayıb, indiki şəraitdə Rusiya hökumətinin iqtisadi siyasəti yoxdur. İnsanlar oturub sosial yardım paketləri hazırlayırlar".

Kolesnikov əlavə edib: "Hökumətdə təmsil olunan hər kəs təsərrüfat müdiri kimi fəaliyyət göstərir".

Ancaq politoloq Dmitri Oreşkin deyir ki, Belousovun təyinatı Mişustinin mövqeyini xeyli zəiflədir. Politoloqun sözlərinə görə, Mişustin öz siyasətinə, komandasına və ya müstəqil mənbələrinə sahib olmayan texniki bir şəxsdir. Lakin Belousovun prioritetlər sistemini bəllidir.

Oreşkin qeyd edir ki, onun siyasəti sovet dövründən miras qalıb, o zaman iqtisadi prioritetlərin seçimi iki idarəetmə variantı arasındat keçirildi: sektoral və regional.

Sektor idarəetmə sisteminə görə, bütün əsas təsisatlar Moskvada yerləşir. Onların başında istədiyi vaxt prezidentə hesabat verməyi bacaran, Birincə şəxsə yaxşı məlum olan az sayda rəhbərlər durur.

Oreşkin deyir: "Belousov mərkəzləşdirmə və sahə idarəetmə metodunun ardıcıl tərəfdarıdır. Onun məntiqi çox sadədir: pulu var, milli layihələrin müəllifi və baş icraçısıdır. Onun rəhbərliyi altında bütün vəzifələri icra edən əlaqələndirici bir qurum var. Putinin gördüyü iş - 20 illik dövrdə Rusiyanın ərazi vahidi olaraq inkişaf prioritetini mərkəzləşdirmə və şaquli hakimiyyət orqanlarını gücləndirmə prioritetinlərinə geriçəkmənin davamıdır".

Onun sözlərinə görə, sərt mərkəzləşdirmə sistemi bölgələrdən qaynaqlar toplamaq və cəbhəyə köçürmənin lazım olduğu müharibə dövrü üçün yaxşıdır.

Politoloq əlavə edib: "Putin göstərib ki, onun prioritetləri mərkəzləşdirmə, şaquliləşdirmə, dövlət idarəçiliyinin sektoral idarəçiliyidir. Belousovu təyin etməklə, o, əyalətlərə daha çox azadlıq verməyə çalışan Qorbaçov, Xruşşov və Yeltsindən daha çox Stalin və Leninə bənzədiyini sərgiləyib. Bu təyinat dövlət şaqulisini gücləndirəcək, ancaq ərazilərin inkişafını ləngidəcək".

Andrey Kolesnikov hesab edir ki, rəsmi nöqteyi-nəzərdən Belousovun təyinatı təbii və məntiqli bir qərardır. O bildirib: "Yüksək vəzifələrin digər şəxslərə ötürülməsi üçün rəsmi bir prosedur mövcuddur. Yeltsin 1996-cı ildə əməliyyata girməzdən əvvəl səlahiyyətlərini Çernomırdinə təhvil verib. Hazırda daha sadə birləşməni görürük: birinci müavin baş nazir rolunu icra edir. Belə vəziyyətlərdə əslində, nəyin baş verdiyini demək çətindir. İndiki halda, təyinat həm rəsmi, həm də faktikidir".

Bununla belə, Dmitri Oreşkinin fikrincə, fors-major hallarında ali vəzifələrin ötürülməsində Rusiyada "praqmatik güc ənənələri" müşahidə olunacaq, yəni iqtidar qaynaqlarına sahib insanlar öz aralarında necə anlaşacaqlarsa, elə də olacaq.

Müşahidəçilər qeyd edirlər ki, Rusiya qanunlarına görə, baş nazirin fəaliyyət qabiliyyətli olmaması halında, birinci müavinin hökumət başçısının vəzifəsinin müvəqqəti icra etmək üçün xüsusi prezident sərəncamı tələb edilmir.

# Koronavirusa yoluxanların sayı sürətlə artır – Ermənistanda kritik durum

***Son sutka ərzində Ermənistanda koronavirus infeksiyasına təsdiqlənmiş yoluxma hallarının sayı 82 nəfər artaraq 2148-ə çatıb, daha bir xəstə ölüb.***

Bu barədə Ermənistan Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Milli Mərkəzinin saytında məlumat yerləşdirilib.

"Ermənistanda 2148 koronavirusa yoluxma hadisəsi təsdiqlənib. 977 xəstə sağalıb, 33 nəfər ölüb", - deyə məlumatda qeyd olunur.

Qeyd edilir ki, 1136 xəstə müalicə olunur, ötən müddət ərzində 22 177 test aparılıb.

COVID-19-la mübarizə aparmaq üçün martın 16-dan mayın 14-dək Ermənistanda fövqəladə vəziyyət rejimi elan edilib.



Qriqorian təqvimi ilə aprelin 12-də qeyd olunan Pasxa bayramından sonra Ermənistanda COVID-19-a yoluxmanın ikinci dalğası başlayıb. Bu barədə "RİA-Novosti"yə iqtisad elmləri namizədi, İqtisadi Tədqiqatlar Mərkəzinin eksperti Aqasi Tavadyan bildirib.

"Virusun yayılma dinamikasına ilk növbədə bir-biri ilə əlaqə quran insanların fəallığı təsir göstərir. İnsanlar arasında ünsiyyət çoxaldıqca infeksiya hallarının sayı da artır. Ermənistanda da qriqorian təqvimi ilə aprelin 12-də qeyd olunan Pasxa bayramından sonra belə oldu. İnsanlar alış-veriş etdilər, ünsiyyət daha çox oldu və nəticədə biz virusun yayılmasını və xəstəliyin ikinci dalğasını sürətləndirdik. Yoluxma halları əsasən İrəvandan kənarda artıb. Ümumilikdə isə ölkədə çox hadisə qeydə alınmayıb", - deyə o qeyd edib.

Ermənistanda koronavirusun yayılması ilə mübarizə məqsədilə martın 16-dan mayın 14-dək fövqəladə vəziyyət rejimi elan edilib. Cümə axşamına olan məlumata görə, ölkədə 2066 yoluxma hadisəsi aşkarlanıb, 32 pasiyent vəfat edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun dəstəyilə "Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması" istiqaməti üzrə layihə çərçivəsində hazırlanır.***

# 190 manat alan işsiz vətəndaşlar prezidentə təşəkkür edir

## Vətəndaş: "Onun bu qayğısı bizə çətin günümüzdə dəstək oldu"



***Artıq bir aya yaxındır ki, koronavirus pandemiyası ilə bağlı işsiz qalan şəxslərə 190 manat birdəfəlik yardımın köçürülməsi prosesi davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bu günədək artıq 400 min şəxs üçün birdəfəlik ödəniş vəsaiti köçürülüb və müraciətlərə baxıldıqca nəticəsinə uyğun daha 200 min şəxsə də ödəniş aparılacaq.***

Artıq 190 manat birdəfəlik ödənişi alanlardan biri də, İbrahim Vəlicanovdur. Şamaxı rayon Sümdü kənd sakini İ. Vəlicanov "Unikal" qəzetinə açıqlamasında bildirib ki, bir neçə ildir ki, Abşeron rayon Masazır kəndində yaşayır. O, pandemiyadan əvvəl usta kimi fəaliyyət göstərsə də, koronavirus pandemiyası ilə əlaqədar olaraq tətbiq edilmiş xüsusi karantin rejiminə görə, işsiz qalıb. İbrahim artıq iki aya yaxındır ki, işsiz qaldığını söyləyir. Həmsöhbətimiz bildirir ki, kirayədə yaşadığından karantin dövrü onun üçün daha çətin keçib: "Əlbəttə ki, bu dövr mənim üçün də çətin oldu. İşsiz qalmaq həyatımıza öz təsirini göstərdi. Amma biz məcburiyyət qarşısında dövlətimizin "evdə qal" çağırışına əməl etdik. İşsiz qalmaq çətin olsa da öz sosial məsuliyyətimizi dərk edərək qaydaları pozmadım. Çox sağ olsun ki, dövlətimiz də bizim bu durumumuzda öz dəstəyini əsirgəmədi. Mən aprelin 13-də 190 manat birdəfəlik yardımı almaq üçün müraciət etdim. Mesaj gəlmədikdə belə anladım ki, sistemin tanıdığı kriteriyalara düşmədiyim üçün mənə yardım ayrılmayacaq. Halbuki mən faktiki işsizəm. Dünən mənə mesaj gəldi ki, birdəfəlik ödəmə təyin olunub. Sözün açığı məbləğ elə yüksək olmasa da, sevindim. Çünki bu günkü pandemiya dövründə mənim heç 190 manatı da qazanmaq imkanım yoxdur. Ona görə də təşəkkür edirəm prezidentimizə ki, mənim kimi ehtiyac içərisində yaşayan, virusla bağlı işini itirən yüzminlərlə vətəndaşının, seçicisinin yanında oldu. Bu ağır gündə xalqa dəstək durdu, bizi çörəksiz qoymadı. İndiki vəziyyət elədir ki, insanlara bir bağlama ərzaq da köməkdir. 190 manat yardım da bu mənada bizə çox böyük köməkdir. Bu yardımın işimiz açılanadək verilməsi barədə qərara görə də prezidentimizə təşəkkür edirəm".

Tovuz rayonu aşağı Ayıblı kənd sakini Xaliq Cəfərov da 190 manat birdəfəlik yardım alanlar sırasındadır. X. Cəfərov işsiz olmaqla yanaşı, aztəminatlı ailənin başçısıdır. O, deyir ki, müraciət etsə də ona 190 manatla bağlı cavab bir qədər gecikib. Sonradan bununla bağlı rayonun deputatı Qənirə Paşayevaya müraciət edib. Bundan az müddət sonra ona da 190 manatla bağlı sevindirici mesaj gəlib. 190 manatlıq sosial yardımı alan Ruslan Məmmədov isə deyir ki, aprelin 19-da qeydiyyatdan keçib. Üç gün sonra axşam isə telefonuna SMS gəlib: "Maddi sıxıntılarımız vardı. Gündəlik işlərdə çalışırdım. Karantin rejimi ilə əlaqədar maddi durumumuz pisləşməyə doğru gedirdi. Ölkə prezidentinə təşəkkür edirəm ki, bizi düşündü. Bu pul ayrılmaya da bilərdi. Dövlət rəhbərimizə, bizi düşünənlərə təşəkkür edirəm".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Fazil Talıbov isə deyir ki, 190 manatın verilməsi ilə bağlı müvafiq qaydalar mövcuddur. Həmin tələblərə cavab verənlərə sistem üzərindən birdəfəlik ödəniş təyin olunur: "Nazirlər Kabineti "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nı təsdiq edib. Qərara əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində işsiz kimi qeydiyyatda olan şəxslərə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə aylıq 190 manat məbləğində birdəfəlik ödəmə verilir. Qaydaya əsasən, koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (MEİS) "Məşğulluq" altsistemində (MAS) işsiz kimi qeydiyyatda olan şəxslərə aylıq birdəfəlik ödəmənin verilməsi şərtlərini və qaydasını tənzimləyir. Birdəfəlik ödəmənin məqsədi pandemiya dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə bağlı məşğulluq tədbirlərinin məhdudlaşması ilə əlaqədar işsiz şəxslərin sosial müdafiəsini təmin etməkdən ibarətdir. Birdəfəlik ödəmə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə bu Qaydaya uyğun olaraq ödənilir. Birdəfəlik ödəmənin təyin olunması elektron qaydada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir. Birdəfəlik ödəmə "Məşğulluq haqqında" Qanuna uyğun olaraq işsiz kimi qeydiyyata alınmış və bu kateqoriyaya aid olan şəxslərə təyin olunur və ödənilir. Birdəfəlik ödəmə qeydiyyat tarixindən asılı olaraq, aşağıdakı işsiz şəxslərə ödənilir":

- 2020-ci il 1 aprel tarixinə MAS-da işsiz kimi qeydiyyata alınmış şəxslərə;
- pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə MAS-da işsiz kimi qeydiyyata alınmış şəxslərə.

Dövlət qurumlarından aşağıdakı ödənişləri alan işsiz şəxslərə birdəfəlik ödəmə verilmir:

- ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərinə;
- əmək pensiyaçılarına;
- aylıq müavinət alanlara;
- aylıq təqaüd alanlara;
- özünüməşğulluğun təşkili proqramı çərçivəsində əmlak verilmiş şəxslərə;
- işsizlikdən sığorta ödənişi alanlara;
- peşə hazırlığına görə təqaüd alanlara;
- 2020-ci ildə kənd təsərrüfatı üzrə subsidiya almış şəxslərə;
- əri və ya arvadı sahibkar olanlara (aktiv VÖEN-i olan) və ya MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemində aktiv əmək müqaviləsi bildirişi olanlara;
- əri və ya arvadı bu Qaydada qeyd edilən formada ödəniş alan şəxslərə.

Birdəfəlik ödəmə yalnız ailə üzvlərindən (ər və ya arvad) birinə ödənilir.

Şəxs birdəfəlik ödəmənin alınması üçün "e-sosial" portalında "Vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması, qeydiyyatdan müvəqqəti çıxarılması və qeydiyyatın müvəqqəti ləğv edilməsi" xidmətindən istifadə edərək müraciət edir. İşsiz statusu olanlara münasibətdə MAS tərəfindən bu Qaydaya uyğun olaraq yoxlama aparılır və müvafiq qərar qəbul olunur. İşsiz statusu olmayan şəxs isə bu statusun alınması üçün göstərilən qaydada müraciət edir. Bu zaman MAS tərəfindən şəxsə münasib işin təklif edilməsi mümkün olmadıqda, dərhal işsiz statusunun verilməsi haqqında qərar qəbul olunur və bu Qaydaya uyğun olaraq yoxlama aparılır. MAS tərəfindən işsiz şəxsin bu Qaydada göstərilən şəxslərə aid olması yoxlanılır. Yoxlama nəticəsində işsiz şəxsin bu Qaydada göstərilən şəxsə aid olması müəyyən edildikdə, MAS tərəfindən elektron qaydada birdəfəlik ödəmənin verilməsindən imtina olunur, bu barədə işsiz şəxsə imtinanın səbəbi göstərilməklə, mobil telefon vasitəsilə SMS göndərilir və onun elektron kabinetinə əsaslandırılmış bildiriş yerləşdirilir.

Yoxlama nəticəsində işsiz şəxsin bu Qaydada bəndində göstərilən şəxsə aid olmaması müəyyən edildikdə birdəfəlik ödəmənin təyin edilməsi haqqında MAS tərəfindən qərar qəbul olunur. Birdəfəlik ödəmə bank və ya poçt vasitəsi ilə ödənilir və bu barədə şəxsə mobil ismarıc göndərilir. Birdəfəlik ödəmə pandemiya ilə əlaqədar xüsusi karantin rejimi dövründə aylıq həyata keçirilir. Növbəti ay üçün birdəfəlik ödəmə təkrar yoxlama keçirildikdən sonra əvvəlki ödənişdən 30 gün sonra həyata keçirilir. İşsiz şəxslərin ailə vəziyyəti haqqında məlumatlar avtomatlaşdırılmış rejimdə Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrindən yoxlanılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# Bakıda şok olay: Ata-oğul azyaşlıya təcavüz etdilər



***Bakının Binəqədi rayonunda azyaşlıya təcavüz etməkdə təqsirli bilinən Ceyhun Cümşüdov və onun oğlu Yasım Cümşüdzadənin barəsində həbs qətimkan tədbiri seçilib.***

Teleqraf.com xəbər verir ki, Binəqədi rayon Məhkəməsində hakim Fərid Əmirəliyevin sədrliyi ilə baş tutan iclasda istintaq orqanını təqdimatı təmin edilib.

Ceyhun Cümşüdov və Yasim Cümşüdzadənin barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

İttihama görə, ata və oğul Binəqədi rayonunda azyşalı qıza təcavüz ediblər.

İstintaq orqanı tərəfindən Ceyhun Cümşüdovun barəsində Cinayət Məcəlləsinin 149.3.3-cü (təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxsi zorlama), Yasim Cümşüdzadının barəsində isə Cinayət Məcəlləsinin 150.3.3-cü (təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində seksual xarakterli hərəkətlər etmək) maddələri ilə ittiham elan edilib.

İstintaq davam edir.

Qeyd edək ki, Cinayət Məcəlləsinin 149.3.3-cü maddəsi ilə mühakimə olunan şəxsi 10 ildən 15 ilədək, 150.3.3-cü maddə ilə mühakimə olunan şəxsi isə 8 ildən 15 ilədək azadlıqdan məhrum etmə cəzası gözləyir.

# DTX-nin həbs elədiyi məmur şikayət etdi – Rəsmi

***Rüşvətdə ittiham olunan İsmayıllı rayon icra hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədov barəsində olan məhkəmə qərarından apelyasiya şikayəti verib.***

Bakı Apelyasiya Məhkəməsindən verilən məlumata görə, Məhərrəm Əhmədovun şikayəti araşdırılması üçün hakim Mirzəli Abbasovun icraatına verilib. Şikayətə mayın 4-də baxılacaq.

Məhərrəm Əhmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin ləğv edilməsini istəyib.

Binəqədi rayon Məhkəməsinin qərarı ilə Məhərrəm Əhmədov barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Baş prokuror yanında Korrupsiya İdarəsi tərəfindən Məhərrəm Əhmədovun barəsində Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) maddəsi ilə ittiham verilib.

Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumata görə, İsmayıllı rayon icra hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədovun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Aparılmış tədbirlərlə Məhərrəm Əhmədov tərəfindən qanunsuz ödənişlər müqabilində "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Nazirlər Kabinetinin 2 aprel 2020-ci il tarixli 124 nömrəli Qərarına zidd olaraq rayon ərazisində hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə, eləcə də müvafiq kateqoriyalara aidiyyəti olmayan digər fiziki şəxslərə işləmələri barədə icazə.e-gov.az portalında qeydiyyatdan keçməyən arayışların verilməsi, habelə aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının mənimsənilməsinə dair əsaslı şübhələr müəyyənləşib.

Şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasına və Məhərrəm Əhmədovun rayonun Mican kəndində yerləşən yaşadığı evə baxış keçirilərək müxtəlif fiziki şəxslərə məxsus plastik bank kartları aşkarlanıb və müəyyənləşib ki, sonuncu öz yaxın qohumlarının adlarına formal olaraq rəsmiləşdirməklə müxtəlif sayda plastik bank kartlarının alınmasına nail olub, bu yolla ümumilikdə 2016-2020-ci illər ərzində 12.400 manat məbləğində vəsaiti qanunsuz olaraq mənimib.

Bununla yanaşı, baxış zamanı nağd pul, ayrı-ayrı şəxslərin adlarına guya işləmələri barədə verilmiş qanunsuz arayışlar və onlara dair qeydlər, habelə aztəminatlı ailələrə yardım məqsədilə nəzərdə tutulmuş ərzaq bağlamaları və digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb.

Fakta görə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb, Məhərrəm Əhmədov şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların, o cümlədən Nazirlər Kabinetinin müvafiq qərarına zidd olaraq fiziki şəxslərə işləmələri barədə icazə.e-gov.az portalında qeydiyyatdan keçməyən arayışların verilməsi və aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının mənimsənilməsi faktları hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Adamyeyənlər arasındakı tək azərbaycanlı: o, "cəhənnəm"ə necə düşdü?



- Bura bir azərbaycanlı gətiriblər. Görəsən nə törədib ki, onu bura atıblar. Bura çox dəhşətli yerdi, həddən artıq.

Dostumuzun səhər göndərdiyi mesajdan heç nə anlamadım əvvəlcə.

- "Qara delfin" eşitmisən?

- Hə... Həbsxana olmalıdır, Rusiyada.

- Hə, bax o türməyə, bizdən 60-70 km aralıda yerləşir. Burda manyaklar, terrorçular, adamyeyənlər yatır.

Manyaklar, terrorçular, adamyeyənlərg Hə, düz deyir, burası "Qara delfin". Orenburqdan 70 km aralıda Sol-İletsk adlı şəhərdə yerləşən bu koloniyada doğrudan da qatillər, adamyeyənlər, terrorçular və digər təhlükəli canilər saxlanılır. Hazırda cəzaçəkmə müəssisəsində təxminən 863 dustaq var. Və onlar elə bir nəzarət altındadır ki, təsəvvür edin, indiyədək buradan heç kim qaça bilməyib.

Bir qədər tarixinə qayıtsaq... 1756-cı ildə imperatriçə Yelizaveta Petrovnanın fərmanı ilə tikilib. Orada əvvəlcə xüsusi cinayət törədən şəxslərin cəzalandırılması və dəhşətli işgəncələrlə öldürülməsi üçün istifadə olunub. Ötən əsrin 30-50-ci illərində xalq düşmənlərinin sürgünə göndərildiyi düşərgə və müharibə zamanı əsir düşmüş şəxslərin saxlanıldığı həbsxana kimi istifadə olunmağa başlanılıb. 2006-cı ildən isə bura ən amansız qatillərin saxlanıldığı, ömürlük cəzaya məhkum edilənlərin cəza çəkdiyi həbsxana kimi məşhurlaşıb.

Burda bir məqamı mütləq qeyd edək, "Qara delfin"dəki məhkumlar, üst-üstə təxminən 3500 adamın ölümünə səbəb olublar. Bu da məhbus başına beş cinayət deməkdir.

Həbsxana içərisində təhlükəsizlik o qədər güclü qorunur ki, binada məhkum sayından daha çox gözətçi var. Bu gözətçilər isə hər 15 dəqiqədən bir kameralara nəzarət edirlər.

Məhkumlar gündə yalnız 1 dəfə kameralarını tərk edirlər və 90 dəqiqəlik gündəlik gəzinti üçün bir az daha böyük kameraya aparılırlar. Bu yerdəyişmə isə belləri bükük və əlləri yuxarıdan qandallanmış halda, ən az 3 gözətçinin nəzarətində altında edilir.

24 saat davamlı nəzarət altında olan məhkumların gün boyu yataqlarında oturmalarına və ya uzanmalarına icazə yoxdur. Oturmaq istəyənlər yalnız kətildən istifadə edə bilirlər.

Burada yeməkxana yoxdur. Məhkumlara gündə 4 dəfə müxtəlif şorbalar verilir və bu zaman da kameralarından çölə çıxarılmırlar.

Təxminən 270 ilə yaxın müddətdə bu həbsxanadan kimsə qaça bilməyib. Hətta buna cəhd belə olmayıb. Ömürlük həbs cəzası alan bu məhkumlardan indiyədək azadlığa çıxanı da olmayıb.

"Qara delfin"də cəza çəkən dustaqların ixtiyarında böyük bir kitabxana var. Bu kitabxanada 10 mindən çox kitab saxlanılır. Zarafatla deyirlər ki, "Qara delfin"də cəza çəkən dustaqlar Rusiyada ən çox oxumuş insanlardır.

Hazırda burda çeçen terrorçular, azı üç nəfərin qətlinə səbəb olanlar, manyaklar cəza çəkir. Amma onların arasında Vladimir Nikolayevin yeri başqadır. 1999-cu ildə Çuvaşiya Respublikasının Çeboksarı şəhər məhkəməsinin qərarı ilə güllələnmə cəzasına məhkum edilib. Amma elə həmin il də güllələnmə ömürlük cəzayla əvəzlənib.

Nikolayev fenomeni ayrıca mövzudur. O, qətlə yetirdiyi insanların ətini yeyirmiş. Soyuducuya yığıb saxlayırmış. Həmin ətlərdən bişirdiyi yeməkləri dostlarına belə təklif edirmiş.

O, ümumilikdə 6 nəfəri öldürüb və sonradan yeyib.

"Qara delfin"də bir çox jurnalist ondan müsahibə alıb. Onunla görüşə gələn həmkarlarımızdan isə onaginsan əti gətirməyi xahiş edirmiş. Amma son dövrlər bu ənənə dəyişib. Manyak indi sadəcə şirniyyat - peçenye və konfet müqabilində müsahibə verir...

- Bura bir azərbaycanlı gətiriblər. Görəsən nə törədib ki, onu bura atıblar. Bura çox dəhşətli yerdi, həddən artıq.

Dostumuzun Orenburqdan bizə göndərdiyi mesajdan yazmışdım yuxarıda.

Hə, indi "Qara delfin"də saxlanılan amansız qatillərdən biri azərbaycanlıdır. Adı Nazim. Atasının adı Qurban. Soyadı Kovalov. 1969-cu il təvəllüdlü. Bu cani haqda məlumatı uzun axtarışdan sonra müəyyən etdik. Öyrəndik ki, o, 13 may 1999-cu ildə Saratov vilayətinin Tatişev rayonunda yerləşən Oktyabrsk şəhərciyində 4 nəfərlik bir ailəni qətlə yetirib. Hə, özgənin də yox, öz bacısı Güldəstə Məmmədovanın ailəsini.

Güldəstə və əri Tatişev rayonunda fermer təsərrüfatı ilə məşğul olurdular. Normal da dolanırdılar. Nazim isə tüfeyli həyat keçirirdi, yeznəsi və bacısını gözü götürmürdü. Həmin gün həddən artıq spirtli içki qəbul edən Nazim bacısıgilə gəlir. Yemək istəyir. Bacısı onun üçün süfrə açır. Stola yemək qoyanda, üstündə gizlədiyi bıçaqla Güldəstənin ürəyindən vurur. Sonra o biri otağa keçib, onun ərini də öldürür. Bununla da ürəyi soyumur. Onların körpə qızları Namirə və Aygünü də öldürür. Sonrag

Sonra hamısının meyitini doğrayıb, torbalara yığır və çöldə basdırır. Məmmədovların 3 yaşlı Kamil adlı oğlanları isə təsadüf nəticəsində sağ qalır. O, həmin vaxt qonşudaymış.

Nazimin cinayətinin üstü 1 il sonra açılır. Bir il də məhkəmə sürür. Nəhayət, məhkəmə keçirilir, onu ömürlük həbs cəzasına məhkum edirlər. Cəzasını isə "Qara delfin"dən heç də geri qalmayan "Belıy lebed" də çəkir. Bir qədər əvvəl isə "Qara delfin"ə köçürülür.

Bu həbsxana rəsmən "Orenburq vilayəti, 6 saylı cəzaçəkmə müəssisəsi" adlanır. Qeyri-rəsmi "Qara delfin" adının verilməsinin də maraqlı tarixçəsi var. Şəkildə gördüyünüz bu delfin heykəllərini elə bu canilər, qatillər, manyaklar düzəldiblər və həbsxananın qarşısında ucaldıblar. Və ironiyaya bax, Sol-İletskdə bircə görməli yer olmadığına görə, yeni evlənənlər məhz bu heykəlin qarşısına gəlib, şəkil çəkdirirlər...

***Səbuhi Məmmədli***

# 29 cinayətin üstü "isti izlər"lə açıldı

***Ötən gün daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən verilən məlumata görə, aprelin 30-da törədilən 29 cinayətin üstü "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalmış 18 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 27 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 21 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 16 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 18 nəfər saxlanılıb.

# İqtisadçılar hansı banka güvənib əmanət qoyar? - SORĞU

***Azərbaycan Mərkəzi Bankı "AGBank" ASC və "NBCBank" ASC-ni öz müvəqqəti idarəetməsində saxlayıb, "AtaBank" və "Amrah Bank"ın lisenziyalarını ləğv edib.***

Mövcud durum, yəni bankların bağlanması insanlarda narahatlıq və banklara qarşı bir qədər etibarsızlıq yaradır.

Maraqlıdır, belə olan halda vətəndaşlarımız banklara əmanət qoymaqda davam edəcək, ya bunu risk hesab edib banklardan uzaq duracaq?

Bu sualı iqtisadiyyatdan yazan media nümayəndələrimizə və iqtisadçı-ekspertlərə ünvanladıq. Görəsən onlar necə, banklara güvənib əmanət qoyacaqlarmı?

"Unikal" xəbər verir ki, modern.az iqtisadiyyat bilicilərinin sayta olan fərqli cavablarını təqdim edir:

İqtisadçı-ekspert Natiq Cəfərli deyir ki, uzun müddətdir ki, bankda əmanəti yoxdur: "Bankda depozitim bizneslə məşğul olduğum dövrdə olub, bir də 2016-cı ilə qədər böyük hesabım olub ki, o da konsaltinq xidməti göstərməyimlə əlaqədar idi. Sonradan da həmin hesabı bağladım. O vaxtdan bu yana banklarda əmanətim olmayıb. Amma bu o demək deyil ki, Azərbaycan banklarına güvənmək, əmanət yerləşdirmək olmaz. Ölkədə dayanıqlı banklar var ki, onların ən böyük aktivləri, dövriyyələri kifayət qədər güclüdür. Sadəcə bankların işləmə mexanizmdə dəyişiklik olmasına ehtiyac var. Belə ki, banklar çox primitiv qaydada depozit götürüb kredit verib pul qazanmaqla kifayətlənməməlidir. Depozit sahiblərini maraqlandırmaq üçün banklar onları investorlara dönüşdürə bilərlər. Bununla da həmin şəxslər gələcəkdə iş adamılarına çevrilə bilərlər. Yəni banklar bir növ insanlara şərait yaradıb, dəstək ola bilər".




İqtisadçı, "Fed.az" saytının baş redaktoru Əli Əhmədov deyir ki, istənilən banka vəsait yatıra bilər, ona görə ki, bütün əmanətlər hazırda sığortalanır: "Hər hansı bank yatırılan əmanətə yüksək faiz verirsə və üstəlik hansısa bonuslar təklif edirsə, bu zaman hüquqşünas, yaxud da Mərkəzi Bankdan soruşmaq lazımdır ki, əlavə bonusun verilməsi əlavə faiz sayıla bilərmi? Əgər bu əlavə faiz sayılsa, səhəri gün bir hadisə baş versə, şəxsin əmanəti sığortalanmaya bilər? Məsələn, indi əmanətin sığortalanması 10 faizdir və bu faiz çox olarsa, əmanət sığortalanmır. Bəzən olur ki, banklar 10 faizlə müqavilə bağlayırlar və əlavə bonus da verirlər. Sonra əmanət yerləşdirən şəxsə deyilə bilər ki, bonusun olması 10 faizi aşdığı olduğu üçün sizin əmanətiniz sığortalanmış sayılmır. Ona görə müştəri belə halla rastlaşmamaq üçün mütləq Mərkəzi Bankdan yazılı rəy almalıdır ki, bonus əlavə faiz sayılır, ya yox. Bildiyiniz kimi dekabr ayının sonuna kimi banka nə qədər əmanət qoyursan, qoy, o, sığortalanmış hesab olunacaq. Ola bilsin ki, bu müddət uzadılsın, ya da əksinə. Əgər əvvəlki qayda tətbiq olunsa və müəyyən həddi qoyulsa, vətəndaş pulu çox olduğu halda məbləğin hamısını eyni banka yox, müxtəlif banklara yerləşdirsə yaxşıdır. Yəni sığortalanan məbləğlə banka qoyulan pul arasında müəyyən məsafə saxlanılmalıdır ki, səhəri gün faiz hesablananda əlavə pulu almaq mümkün olsun".

Tanınmış hüquqşünas, bank mübahisələri üzrə mütəxəssis Əkrəm Həsənov banka pul qoymağının banka inamından irəli gələn bir məsələ olmadığını bildirib: "Banklara pul qoyulması banklara pul etibar etmək anlamına gəlmir. Azərbaycanda "Əmanətlərin sığortalanması haqqında qanun" var və prinsipcə vətəndaşın hansı bankda sığortalı əmanət yerləşdirməsinin önəmi yoxdur. Yəni hansı şərait olur-olsun Əmanətlərin Sığortası Fondu həmin əmanəti vətəndaşa qaytarmalıdır. Bu baxımdan, söhbət banka deyil, dövlətə etibar etməkdən gedir. Yəni dövlət həmin əmanəti sığortalaşdıracaq ya yox, budur əsas məsələ. Burada isə müəyyən problemlər var. Belə ki, son bağlanan "AtaBank" 1 ildir ki, vətəndaşların əmanətlərini qaytara bilmir. Qanuna görə 1 il əvvəl bu bank bağlanmalı idi və vətəndaşlar 3 ay ərzində əmanətlərini geri almalı idilər. Düzdür, vətəndaş bağlanan bankda olan əmanətini alacaq, amma bu proses gecikəcək. Bu baxımdan mən əmanətlərin sığortalanması məsələsi olmasaydı, vətəndaşlara deyərdim ki, banklara pul qoymasınlar".

"Report.az" informasiya agntliyinin iqtisadiyyat departamentinin redaktoru Namiq Hüseynov deyir ki, banklara pul qoya bilər, amma müəyyən şərtlərlə:"Azərbaycan banklarına pul qoymaq olar. Sadəcə əmanət yerləşdiriləndə bağlanma ehtimalı az olan, iri, sistem əhəmiyyətli banklara üstünlük vermək, seçilmiş bankın maliyyə göstəricilərinə, son bir ildə olan fəaliyyətinə diqqət yetirmək lazımdır. Əmanətin sığortalı olması da mühüm şərtdir. Yəni, əmanətin illik gəlirliliyi Azərbaycan manatında 10 faizdən, xarici valyutada isə 2,5 faizdən çox olmasa yaxşıdır. Və nəhayət, bir bankda 30 min manatdan çox əmanət yerləşdirilməməsi məsləhətdir. Doğrudur, bu il dekabrın 4-nə qədər ölkədəki bütün əmanətlər sığortalıdır, amma əmanət müqaviləsinin vaxtı həmin tarixdən sonra bitirsə, yaxşı olar ki, bəri başdan məbləğ məhdudiyyətinə əməl edəsiniz. Çünki, "Əmanətlərin tam sığortalanması haqqında" qanunun müddətinin yenidən uzadılıb-uzadılmayacağı məlum deyil".

İqtisadçı-ekspert Fuad İbrahimov deyir ki, indiki mühitdə elə bir bank yoxdur ki, ona güvənib pul qoysun: "Banklar arasında soruşsanız ki, hansı banka güvənim var, "Beynəlxalq Bank" və "Paşa Bank"ın adını çəkə bilərəm. Amma yenə də iqtisadçı kimi vəziyyəti qiymətləndirib deyirəm ki, hansısa banka güvənib əmanət yerləşdirə bilmərəm. Çünki belə hal mövcuddur ki, banklar uğursuzluqla üzləşsin və bağlansın".

"Azərtac" informasiya agentliyinin iqtisadiyyat müxbiri Elvin Camalov hələ də etibar edəcəyi bankların olduğunu bildirdi: "Etibar edəcəyim banklar var. Məncə çox adam banklara etibar edir. Sadəcə faizlərin aşağı olması heç kəsi banka pul qoymağa həvəsləndirmir. Gərək əlində böyük vəsait ola ki, faizlə artım səni qane edə. Banklar bağlana bilər, banklarda olan əmanət bankın bağlanması ilə itmir. Faiz azlığı insanların banklara əmanət qoyması üçün stimul vermir".

İqtisadçı-ekspert Azər Mehdiyev deyir ki, heç bir bank sığortalanmayıb ki, ona əmanət qoysa, bağlanmayacaq: "Ölkənin bank sisteminin müəyyən problemləri siyasi amillərə bağlılığı ilə özünü göstərir. İkinci bir məsələ isə banklar sanki rəqabətyönlü səviyyədə deyil, məqsədyönlü şəkildə sıradan çıxarılır. Amma yenə də bankda hesab açıb, əmanət yerləşdirərkən bankların durumuna baxmaq və müştərilərin tələblərini vaxtında yerinə yetirən bankları seçmək lazımdır".



## "OPEK+"un yeni razılaşması qüvvəyə mindi

***OPEC və qeyri-OPEC ölkələri 2022-ci ilin aprelinədək gündəlik neft hasilatının üç mərhələ üzrə azaldılması barədə qəbul edilən qərarın şərtlərini bu gündən icra etməyə başlayacaq.***

9 apreldə OPEC və qeyri-OPEC ölkələri nazirlərinin videokonfrans formatında keçirilən X iclasında gündəlik neft hasilatının azaldılması ilə bağlı "Əməkdaşlıq Bəyannamə"si təsdiqlənib.

Qərara əsasən "OPEC+" və digər ölkələr sayəsində mayın 1-dən bazara sutkada 20 milyon barel az neft daxil olacaq.

"OPEC+"ölkələri üzrə gündəlik neft istehsalı ilə bağlı kvotalar mayiyun aylarında 9,7 milyon barel, iyulun 1-dən ilin sonuna kimi 7,7 milyon barel və 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinədək isə 5,8 milyon barel həcmində qərarlaşacaq.

Lakin, Meksikanın hasilat kvotaları may-iyun aylarında 400 min barel əvəzinə 100 min barel müəyyənləşdirilib. Meksikanın öhdəliyinin digər qismini kompensasiya etmək üçün ABŞ-ın öz hasilatını əlavə olaraq 300 min barel azaltması ilə razılaşılıb.

Dünya neft bazarında balansın yaradılması və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə Azərbaycan da üzərinə yeni öhdəliklər götürüb.

2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barel olan Azərbaycan yeni Razılaşma çərçivəsində hasilatı həmin səviyyədən 164 min barel azaltmalı olacaq. Bu müddət ərzində Azərbaycan gündəlik xam neft hasilatını 554 min barel həcmində saxlamalıdır.

2020-ci ilin iyul-dekabr aylarında isə "OPEC plus" üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 18% olmaqla 8 milyon barel azaldılması razılaşdırılıb. Bu zaman kvotalar OPEC üzrə gündəlik 4,868 milyon, qeyri-OPEC üzrə isə 3,132 milyon barel müəyyənləşdirilib. Azərbaycan bu dövrdə gündəlik istehsalını 131 min barel azaltmaqla 587 min barel səviyyəsində saxlamalı olacaq.

Əməkdaşlıq Bəyannaməsində 2021-ci ilin yanvar ayından 2022-ci ilin aprelinədək isə "OPEC plus" üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 14% olmaqla 6 milyon barel azaldılması öz əksini tapıb. Bu müddətdə hasilat öhdəlikləri OPEC üçün 3,651 milyon barel, qeyri-OPEC üzrə 2,349 milyon barel nəzərdə tutulub. Azərbaycan isə həmin dövrdə 98 min barel azalma ilə hasilatı 620 min barel həcmində saxlamaq öhdəliyini götürməli olacaq.

## Poçt şöbələrində birdəfəlik ödənişlərin verilməsi gündəlik davam edir

***İşsizlər və xüsusi karantin rejiminə görə işini itirən aztəminatlı şəxslər üçün birdəfəlik ödəmənin (190 manat) verilməsi prosesi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC-nin poçt şöbələrində də gündəlik davam edir.***

Unikal.org xəbər verir ki, birdəfəlik ödəmə vəsaiti köçürülərkən vətəndaşlara bu barədə SMS göndərilir. Onlar mesajı aldıqdan sonra evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, mesajda "Azərpoçt" MMC qeyd edilibsə, istənilən poçt şöbəsinə, bank göstərilibsə, həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edib vəsaitlərini əldə edirlər.

Qeyd edək ki, Azərbaycan hökuməti tərəfindən tətbiq edilən xüsusi karantin rejimində əhaliyə göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi, eləcə də işsiz şəxslərə birdəfəlik ödəmənin verilməsi prosesində operativliyin təmin olunması məqsədilə Bakıda və regionlarda yerləşən poçt şöbələri bazar günləri də daxil olmaqla hər gün saat 09:00-dan 18:00-dək vətəndaşlara xidmət göstərir.

Paytaxtla yanaşı, Sumqayıt, Cəlilabad, Zaqatala və Ağdaşdakı "Şəbəkə" xidmət mərkəzləri də eyni iş rejimində çalışır.

Kənd poçt şöbələri isə əvvəlki iş rejiminə uyğun olaraq saat 09:00-dan 17:00-dək işləyir.

***Zaurə***

## ASC 5350 tənha yaşlıya və aztəminatlı ailəyə ərzaq yardımı edib

***56 rayon və şəhərdə yerləşən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin yerli idarə və təşkilatları tərəfindən ümumilikdə 5350 tənha yaşlıya və aztəminatlı ailəyə ərzaq yardımı edib.***

Ölkəmizdə tənha yaşlılara və digər həssas əhali qruplarına ərzaq yardımlarının göstərilməsi işləri davam edir.

Bu istiqamətdə sosial dəstək aksiyaları keçirən sosial tərəfdaşlardan biri də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətidir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifovun verdiyi məlumata görə, son günlərdə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Bakı şəhəri də daxil olmaqla 56 rayon və şəhərdə yerləşən Cəmiyyətin yerli idarə və təşkilatları tərəfindən ümumilikdə 5350 tənha yaşlıya və aztəminatlı ailəyə ərzaq yardımı verilib.

Ərzaq payları sosial xidmətçilərlə birgə tənha yaşlıların, aztəminatlı ailələrin evlərinə aparılaraq onlara çatdırılıb.

Keçirilən belə sosial aksiyalar ölkəmizdə pandemiya dövründə milli həmrəyliyin gücləndirilməsinin növbəti təzahürü və yaşı 65-dən yuxarı tənha yaşayan şəxslərin, aztəminatlı ailələrin rifahına dəstək sahəsində dövlətin apardığı işlərə bir töhfədir.

***Hüseyn***

## Nə qədər sürücü karantin qaydalarını pozdu?

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) öÖlkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar 30.04.2020-ci il saat 00:00-dan 01.05.2020-ci il 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayaıb.***

BDYPİ-dən Unikal.org-a verilən məlumata görə, koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 30.04.2020-ci il saat 00:00-dan 01.05.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 735 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 44 751 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

## "Sizin rəhbərliyiniz altında Azərbaycan həkimləri uğurlu nəticələr əldə edəcəklər" – İsmət Məmmədov

***Möhtərəm Cənab Prezident, İlk olaraq bir həkim kimi Sizin covid-19 pandemiyasının Azərbaycan ərazisində yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz təxirəsalınmaz tədbirlərə görə təşəkkür edirəm. Koronavirus pandemiyasının dünya miqyasında yaratdığı təhlükəli vəziyyətin Azərbaycan xalqından yan ötməsi üçün qəbul etdiyiniz qərarlar, gördüyünüz tədbirlər onu göstərdi ki, xalqımızın sağlamlığı, təhlükəsizliyi və rifahı Sizin üçün ən vacib məsələdir.***



İnkişaf etmiş Avropa ölkələrinin, həmçinin ABŞ səhiyyəsinin pandemiya qarşısında acız qaldığı bir dönəmdə, respublikamızda covid-19 virusu ilə mübarizə ilə əlaqədar tikilmiş yeni xüsusi təyinatlı xəstəxanalar, yüksək texnoloji avadanlıqlarla təchiz olunmuş laboratoriyaların açılması bir daha sübut etdi ki Sizin rəhbərliyiniz altında Azərbaycan həkimləri bu mübarizədə uğurlu nəticələr əldə edəcəklər.

Covid-19 pandemiyasının bütün dünya iqtisadiyyatına vurduğu zərbə göz qarşısındadır. Dünya ölkələri iqtisadi böhran çərçivəsində iş yerlərinin itirilməsi və müəssisələrin bağlanması kimi proseslərə artıq nəzarət etmək iqtidarında olmadıqlarını əyani nümayiş etdirirlər. Lakin belə çətin bir zamanda Sizin göstərişinizlə aztəminatlı ailələrə sosial yardımın verilməsi, heç bir işçinin işdən azad edilməməsi, işləmədikləri müddətdə onların əməkhaqlarının kəsilmədən ödənilməsi ilə bağlı verdiyiniz qərar və göstərişlər xalqın güzəranının yaxşılaşmasına və onların təhlükəsiz yaşamalarına şərait yaratmışdır.

Bir həkim olaraq, xalqımıza və həmçinin pandemiya ilə mübarizədə həkimlərə verdiyiniz dəstək əvəzolunmazdır. Sizin çıxışınız zamanı həkimləri ayaqüstə alqışlamağınız mənə və bütün səhiyyə işçilərinə böyük stimul oldu.

Xalqımıza verdiyiniz dəyərə görə, Sizə dərin təşəkkürümü bildirirəm.

**Hörmətlə,**
**3 saylı Şəhər klinik xəstəxanasının terapiya şöbəsinin müdüri İsmət Məmmədov**

# Baş pediatrdan xəbərdarlıq

## Nəsib Quliyev: "COVID-19 elə növ virus infeksiyasıdır ki, onunla mübarizədə qətiyyən arxayınlaşmaq olmaz"

***Təəssüf ki, aprelin 27-də xüsusi karantin rejiminin yumşaldılmasından sonra əhali arasında xeyli arxayınlaşma, hətta bəzilərində virus təhlükəsinin ötüb keçməsi təsəvvürü yaranıb. Son günlər küçə və yollarda xeyli maskasız adam görürəm. COVID-19 elə növ virus infeksiyasıdır ki, onunla mübarizədə qətiyyən belə arxayınlaşmaq, hər şeyin ötüb keçdiyini düşünmək çox böyük yanlışlıqdır. Doğrudur, ölkəmizdə görülən qabaqlayıcı tədbirlər nəticəsində epidemiyanın miqyası böyük olmadı. İndi də infeksiyadan sağalanların sayı nikbinlik üçün əsas versə də, arxayınlaşmaq üçün qətiyyən əsas vermir.***



"Unikal" bildirir ki, bu sözləri AZƏRTAC-a müsahibəsində K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin baş pediatrı, professor Nəsib Quliyev deyib.

Pediatr söhbətinə davam edərək deyib: "COVID-19-un bütün dünyanı aciz qoyan xüsusiyyəti onun təbiətinin mutagen xarakteridir. Yəni, düşdüyü bir orqanizmdə mutasiyaya uğrayaraq fərqli formalar alır, vaksinasiya və müalicəni qeyri-mümkün edir. Dünya həkimlərinin çaldığı həyəcan siqnalı və əksər ölkələrdə tətbiq edilən xüsusi karantin rejimi də bununla əlaqədardır. Xüsusi karantin rejimində aparılan yumşalma heç də infeksiya təhlükəsinin ötüb keçməsi ilə əlaqədar deyil, sadəcə olaraq elə xidmət sahələri var ki, onun fəaliyyətini uzun müddət saxlamaq mümkün deyil. Nə koronavirus pandemiyası başa çatıb, nə də virusun yayılmaq təhlükəsi aradan qaldırılıb. Ona görə də sosial izolyasiya tədbirləri yenə də əvvəlki qaydada davam etdirilməli, küçəyə çıxarkən mütləq maska taxılmalı, əlcək geyinilməli, dezinfeksiya tədbirləri davam etdirilməli, nəqliyyatda, küçədə, ticarət müəssisələrində, eləcə də iş yerlərində izolyasiya tədbirlərinə əməl edilməli, daha doğrusu, insanlar arasında müəyyən məsafə saxlanılmalıdır.

"Biz gözlə görünməyən, yediyin yemək, udduğun hava, toxunduğun əşya ilə orqanizmə daxil olaraq fəlakətli nəticələr verə bilən dəhşətli bir virusla üz-üzəyik. Onunla mübarizədə kiçik bir ehtiyatsızlıq, buraxılan bir səhv həm özünü, həm də ətrafdakıları çox böyük bir risk altına qoyur. Koronavirus pandemiyası hələ sona çatmayıb, bütün dünya amansız düşmənlə mübarizə aparmaqdadır. Ona görə də bir an da arxayınlaşmadan, qətiyyən geri çəkilmədən mübarizə davam etdirilməlidir. Elə etməməliyik ki, bu günə qədər əldə etdiklərimizi itirib daha ağır fəsadlarla üzləşək. Özü də bu pandemiyanın təkrar yoluxması indikindən daha ağır və təhlükəlidir. Ona görə də mövcud qaydalara riayət olunmalı və zəruri profilaktik tədbirlər davam etdirilməli, risk qrupunda olanlar evdən bayıra çıxmamalı, ictimai yerlərdə, market və xidmət sahələrində insanlar arasında lazımi məsafə gözlənilməlidir. Bunu nəzərə almasaq, dəhşətli infeksiyanın ikinci dalğası başlaya bilər və daha böyük təhlükə ilə üzüzə qala bilərik", - professor fikrinə yekun vurub.

# Yaddan çıxmış sənətkarlar: "Ögey ana"da evi yıxılan Arif - İsmayılın atası

***- Arifin evi yıxıldı!.. - Arifin evi yıxıldı!.. Məşhur "Ögey ana" filminə baxanlar həyəcanla deyilən bu sözləri şübhəsiz ki, yaxşı xatırlayırlar...***

Bu yazımızda Ögey ana"nın əsas qəhrəmanlardan biri - İsmayılın atası Arif rolununun ifaçısı - aktyor Fateh Fətullayevdən söhbət açacağıq...

O Fateh Fətullayev ki, önümüzdəki həftədə anım günü qeyd olunacaq...

Beləliklə, Modern.az saytı "Yaddan çıxmış sənətkarlar" layihəsində Əməkdar artist Fateh Fətullayevin qısa həyat hekayətini sizə təqdim edir.

Uzun illər keçməsinə baxmayaraq, kiçikdən -böyüyə hər kəsin sevə-sevə izlədiyi "Ögey ana" filmi Azərbaycanın şedevr ekran əsərləri sırasına daxildir. Film bu gün də Azərbaycan telekanallarının ekranlarını bəzəyir. "Ögey ana" filmi ilə Azərbaycanın kino tarixinə damğa vurmuş görkəmli rejissor Həbib İsmayılov Arif rolunu istedadlı aktyor Fateh Fətullayevə tapşırmaqda səhv etməmişdi. Çünki Fateh Fətullayev bu rolu möhtəşəm şəkildə ifa etməklə Azərbaycan tamaşaçısının yaddaşında silinməz iz qoya bildi...

Bu filmdə aktyor seçimi, natura çəkilişləri və musiqi bir-birini mükəmməl şəkildə tamamlayır. Fateh Fətullayev, Ceyhun Mirzəyev, Nəcibə Məlikova, Ələsgər Ələkbərov, Nəsibə Zeynalova, Həqiqət Rzayeva kimi tanınmış aktyorlar filmin uğurlu alınmasında böyük əmək sərf edib...

Kim idi Fateh Fətullayev?

O, 1909-cu ildə Lənkəranda Mirzə Möhsün Fətullazadənin ailəsində dünyaya göz açıb.

Əslən Masallının Ərkivan kəndindən olan Mirzə Möhsün Fətullazadə bir müddət Lənkəranda yaşayandan sonra, 1920-ci ildə ailəsini Bakıya köçürmüşdü.

Mirzə Möhsünün ailəsində boya-başa çatan dörd oğlunun və nəvələrinin adları Azərbaycanın görkəmli simalarının cərgəsində çəkilir.

Fateh Fətullayev bu ailənin böyük oğlu idi. Onun əsl adı Fətulla olub. Ancaq görkəmli şair Hüseyn Cavidin təkidi ilə adını dəyişərək Fateh qoyub.

Fateh Fətullayev bir çox sayda teatr tamaşasında maraqlı rollarda oynayıb, 20-yə yaxın filmdə rol alıb.

Onun ən məşhur rolları "Ögey ana"da Arif, "Bir məhəlləli iki oğlan"da Əliqulu, "Qaraca qız"da bəy obrazlarıdır.

"Ögey ana" filmində İsmayılın ögey bacısı Cəmilə rolunu canlandırmış aktrisa Sevinc Axundova Fateh Fətullayevlə bağlı qısa xatirəsini Modern.aza bölüşüb:

"Filmdə mənim atam Arifi canlandıran Fateh Fətullayev çox gözəl insan, istedadlı aktyor idi. Filmdəki atam və anam hər zaman mənə və digər uşaqlara dəstək olurdular. Düzdür, uşaqlarla əsasən rejissor özü məşğul olurdu. Amma böyük aktyorlar da öz köməklərini əsirgəmirdilər. İndiki zamanda mərhum Fateh müəllimin qızı Zemfira xanımla da münasibətlərim var. İmkan daxilində görüşür, əlaqə saxlayırıq".

Teatr və kino aktyoru olan Fateh Fətullayev incəsənətdəki xidmətlərinə görə, respublikanın Əməkdar artisti fəxri adına layiq görülüb.

Yuxarıda qeyd etdiyimiz kimi, Fateh Fətullayevgil ailədə dörd qardaş olublar. Bu ailədə böyüyən həmin dörd oğlan və onların davamçıları Azərbaycanın tanınmış sənətkarlarına çevriliblər.

Onun özündən sonrakı qardaşı Nüsrət Fətullayev (1911-1987) tanınmış rəssam olub və Azərbaycan milli teatr rəssamlığının formalaşmasında, inkişafında böyük xidmətlər göstərib.

Sənət dünyasındakı xidmətlərinə görə respublikanın Əməkdar incəsənət xadimi və Xalq artisti fəxri adlarına layiq görülüb.

Nüsrət Fətullayevin həyat yoldaşı Hökümə Qurbanova Azərbaycanın məşhur aktrisası və SSRİ xalq artisti idi. Qızı Vəfa Fətullayeva da tanınmış aktrisa olub və cavan yaşında vəfat edib.

Digər qardaşı Şəmsəddin Fətullayev (1913-1975) konservatoriyada təhsil alıb. Bir müddət Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının musiqi hissə müdiri, Musiqili Komediya Teatrında baş dirijor işləyib. Bəstəkarlar İttifaqının üzvü idi.

Sonuncu qardaşı Nurəddin Fətullayev (1917-1973) Bəstəkarlar İttifaqının üzvü idi. Qardaşı Şəmsəddindən sonra uzun müddət Akademik Milli Teatrda musiqi hissə müdiri işləyib. Nurəddin Fətullayevin oğlu Hafiz Fətullayev də aktyor və rejissor idi.

Tənqidçi-alim Vaqif Yusifli Fətullayevlər sülaləsindən bəhs edən "Bir ağacın altı budağı" adlı oçerkində yazır:

""Nəslin yarpaq tökümü" belə başlandı: əvvəlcə dördüncü - ən kiçik qardaş Nurəddn vəfat etdi (1973). 1975-ci ildə Şəmsəddin bu işıqlı dünyaya vida dedi. Sonra böyük qardaş Fateh ömür karvanını başa çatdırdı (1986). İkinci qardaş - Nüsrət, bəlkə də bir az çox yaşayardı, amma gözünün ağı-qarası olan qızı Vəfanın ölümü (1987) sanki belini qırdı, qızının dünyadan nakam getməsi Nüsrəti də həmin il dünyadan apardı.

Nüsrət, Fateh, Şəmsəddin və Nurəddin Fətullayevlər... Bir zamanlar Azərbaycan səhnəsinin aparıcı siması olmuş bu ərkivanlı qardaşlar əsl istedad sahibləri idilər... Nüsrəti, Fatehi təkcə Azərbaycanda deyil, Şərq ölkələrində və dünyanın bir sıra ölkələrində də tanıyırlar. Nüsrəti, Səməd Vurğun demişkən, rəsm dünyasının qüdsiyyətinə görə, Fatehi isə "Ögey ana" filmindəki İsmayılın atası Arif roluna görə.



"Ögey ana" yeganə filmdir ki, baxmaq istədikcə baxırsan. Baxırsan, kövrəlirsən, yanırsan, yaxılırsan, sonda uşaq kimi sevinirsən. Tamaşaçını belə haldan-hala salan Fateh Fətullayevlə (Arif) Nəcibə Məlikovanın (Dilarə) qeyri-adi oyun tərzləridir. Bu qüdrətli ifa tərzlərindən, bu cütlüyün ecazkar məharətindən tələqin olunan halətlər isə tamaşaçını ekrana daha yaxın oturmağa vadar edir. Balaca İsmayılın (Ceyhun Mirzəyevin) dəcəlliyi də, şətəlliyi də, pintiliyi də, dərslərindın geri qalması da, yoldaşlarına, xüsusilə bacısına amansız olması da, valideynlərinin sözünə məsuliyyətsiz yanaşması da Fateh Fətullayev və Nəcibə Məlikova cütlüyünün ifa maneralarının qüdrətindən yaranan bədii məntiqin fonunda tamaşaçıların ürəyini göynədir, onları mütəəssir edir...".

Yeri gəlmişkən, "Ögey ana" filmi ekranlara çıxandan sonra təkcə Azərbaycanda deyil, bütün keçmiş SSRİ məkanında məşhur olub. Deyilənə görə, 1958-ci ildə ekranlara çıxmış "Ögey ana" filminin SSRİ ərazisində nümayişindən sonra Rusiyanın Kemerovo şəhərindən yeniyetmə bir qız filmdə ogey ana rolunu ifa edən aktrisa Nəcibə Məlikovaya məktub yazır.

Rusiyalı qız "Doroqaə Maçexa" müraciəti ilə başlayan məktubunda yazırmış:

"Anam yoxdur. Atamın həyat yoldaşına "ana" deyə bilmədiyim üçün fikir edirdim. Siz də ögey oğlunuzdan "ana" sözünü eşitmədiyiniz üçün fikir edirsiniz. Biz sizinlə eyni dərdin sahibləriyik. Amma sizdən fərqli olaraq, məni üzən daha bir səbəb var - ağrı. Ögey anam mənə nifrət edirdi. Məni zirzəmiyə salıb günlərlə orda bağlı saxlayırdı. Hər dəfə məni ora salanda, nə vaxt çıxaracağını bilmirdim. Mən onun ayaqlarını qucaqlayıb ağlaya-ağlaya yalvarırdım ki, ora salmasın. Bu, onların məni döyməsindən daha işgəncəliydi.

Ana deyib çağırmağa, kömək istəməyə kimsəm yox idid. Sizin kimi ögey anaya mən dönə-dönə "əziz ana" deyib qucaqlar, onun istisinə sığınardım. Amma siz bu filmdə öz oyununuzla bizə doğrumu deyirsiniz? Doğrudanmı, belə ögey analar olur?..".

"Ögey ana"da ata rolu ilə tamaşaçı sevgisi qazanmış aktyor Fateh Fətullayevin maraqlı həyat yolu olub. Tənqidçi-alim Vaqif Yusifli onun yaradıcılıq yolunu belə xarakterizə edir:

"...Ən gözəl rolu hamının etiraf etdiyinə görə, Qoqolun "Müfəttiş"ində Xlestakov olub. Bu tamaşanı 1952-ci ildə Mehdi Məmmədov hazırlamışdı. Sonralar tanınmış teatr tənqidçisi Cəfər Cəfərov yazacaq: "Ən çətin problem Xlestakov rolunun ifası ilə bağlı oldu. Mehdi Məmmədovun bu rol üçün yeganə namizədi Fateh Fətullayev idi. Vaxtilə bu məşhur komediyada yüksək sənət nümayiş etdirərək parlamış Hüseyn Ərəblinskidən və Mehdi Mərdanovdan sonra yeni Xlestakov yaratmaq gənc bir aktyor üçün heç də asan məsələ deyildi. Lakin Xlestakov Fateh Fətullayevin bəlkə də teatr sənətində ən yaxşı roluna çevrilə bildi".

Oçerkdə Fateh Fətullayevin öz müasirlərinin könüllərinin necə fəth etdiyindən, sənətə, ailəyə münasibətindən də söz açılır:

"Fateh Fətullayev bir insan kimi də sevilirdi. Həmişə əlindən yaxşılıq gəlirdi. Ciddi, zabitəli, səliqəli kişi idi. Deyirdi ki, aktyor yaxşı, səliqəli geyinməkdə gərək nümunə olsun, Ərəblinskiyə oxşasın.

Fateh Fətullayev gözəl ailəsi var idi. Həyat yoldaşı Şəfiqə xanım vaxtilə rəqqasə olub. Qızı Zemfira isə ingilis dili müəllimidir. İndi bu ailə Fatehlə bağlı xatirələr işığına bürünüb".

Qeyd edək ki, "Ögey ana" filmində Fatel Fətullayevin oynadığı Arif rolu aktyorun öz səsi ilə deyil, kadr arxasında qalan Azərbaycanın xalq artisti Əli Zeynalov tərəfindən səsləndirilib.



Fətullayevlər sülaləsi ilə bağlı araşdırmanın müəllifi, yazıçı Nurəddin Ədiloğlu bildirir ki, bu nəsil istedadı ilə Azərbaycana başucalığı gətirib

Dörd qardaşdan üçü: Fateh Fətullayev, aktrisalar Sona Hacıyeva və Nəcibə Məlikova, Nüsrət Fətullayev, Nurəddin Fətullayev.

"Teatr səhnəsində elə tamaşalar olub, həmin tamaşaların bütün ağırlığını Fətullayevlər öz çiyinlərinə götürüblər. Məsələn, 1976-cı ilin yanvarında Seyfəddin Dağlının "Mənziliniz mübarək" komediyasının quruluşçu rəssamı Nüsrət Fətullayev və aparıcı rollardan birini oynayan Fateh Fətullayev (Elgün rolunda) idi. Təxminən, bir ay sonra, yəni fevral ayında Xalq şairi Səməd Vurğunun "İnsan" pyesində (mənzum faciəsində) əsas rollardan birini Fateh Fətullayev (Polkovnik Hans rolunda), birini Nüsrətin həyat yoldaşı Hökümə xanım, birini onların əziz övladı Vəfa Fətullayeva (həkim Dildar rolunda), birini isə bu ailənin bəstəkar övladı Nurəddin Fətullayevin oğlu Hafiz Fətullayev (alman zabiti rolunda) oynayıb. Belə faktlara isə həyatda çox nadir hallarda rast gəlmək mümkündür. Fətullayevlər sülaləsinin timsalında qeyd olunan bu nadir hadisəni yazıya almaq, oxucuya, teatr həvəskarlarına çatdırmaq ilk növbədə bizim - qələm sahiblərini mənəvi borcudur...".

Fateh Fətullayev 1986-cü ilin 4 mayında Bakı şəhərində vəfat edib. Önümüzdəki həftə 77 yaşında işqlı dünyaya vida etmiş bu məşhur sənətkarın anım günü olacaq...

***A.Qorxmaz***

# Ölüm ayağında konsert, gözəl aktrisanı aldadan rejissor, qorxulu xəncər yarası... - "Bizim filmlər"

***Filmdə hadisələr Azərbaycanda cərəyan edir. XIX əsrin sonu - XX əsrin əvvəllərində zülmkarlara qarşı mübarizə fonunda iki sevən gəncin məhəbbətidir mövzu.***

Lenr.az "Bizim filmlər" layihəsində "Qorxma mən səninləyəm" filmini təqdim edir bu dəfə.

1978-ci ildə Bakıda payız çox isti keçirdi. Kinoda debütə hazırlaşan gənc rejissor Yuli Qusman isə heç sevinmirdi - havaya görə yox, məmurların kaprizləri onun filmi tamamlamasına mane olurdu.

Hətta filmin əsas hissələrini çıxartmağı tələb edirdilər. Qusmanın isə uzun illərdi arzusu davanın, musiqinin bir yerdə cəmləşdiyi bir film çəkmək idi: "Macəra və müzikl çəkmək istəyirdim. Ona qədər bu janr ya çəkilməmişdi, ya da az çəkilmişdi, bilmirəm. Hər halda, macəra olsa da, müzikl yox idi. Bir dəfə sirkdə hündür, enlikürək bir kişi gördüm arenada. Qılınclarla, xəncərlərlə elə oyunlar göstərirdi ki, heyran oldum".

70-ci illərin sonlarında osetin Kantemirovlar sülaləsi sirk aləmini fəth etmişdi. Hər nömrədə soyuq silahlarla riskli tryuklar göstərən isə Muxtarbəy Kantemirov idi. Rejissor onu filmə, həm də baş rola çəkmək istədiyini deyəndə, Muxtarbəy indiyə qədər filmdə yalnız kaskadyor kimi iştirak etdiyini deyib. Necə deyərlər, daş atıb başını tutub ki, aktyor təhsilim yox, təcrübəm yox, çəkilə bilmərəm.

Yuli Qusman onu uzun söhbətlərdən sonra inandıra bilib. Razı salan kimi qayıdıb Bakıya ki, "Azərbaycanfilm"in razılığını alsın. Həmin vaxt Azərbaycanda qarşıda televiziya üçün kino çəkmək məsələsi durumuş. Televiziya üçün çəkiləcəksə, gərək orda Moskva da iştirak etsin ki, mərkəzi televiziyada göstərmək imkanı yaransın.

Ssenari yazmaq üçün Yuli Qusman dostları və dövrün ən yaxşı ssenaristləri hesab etdiyi Yuri Dunski ilə Valeri Fridə müraciət edir. Janr onlar üçün yeni olsa da dostluq xatirinə razılaşırlar.

Bir ilə "Onsuz da mən səni öldürməyəcəm" adlı ssenari hazır olur. Sirk artisti Rüstəm obrazı isə sırf Muxtarbəy Kantemirov üçün yazılıb.

Bu dəfə də Kantemirovun obraz xoşuna gəlmir. Ssenarini oxuyur, deyir ki, mən dağ çayı ətrafında böyüyüb kişi olmuşam, necə yəni məni orda üzə bilməyən biri kimi göstərmisiniz, istəmirəm. Dostunun gəlinini qaçırmaq səhnəsində də bəzi məqamlarla razı olmur ki, kişi dostun gəlinini qaçırtmaz.

Qusman sırf onu çəksin deyə çox məqamlarda Muxtarbəylə razılaşmağa üstünlük verib. Onunla razılaşandan sonra filmin adını da dəyişməli olurlar - "Qorxma, mən səninləyəm".

Bu dəfə Azərbaycanda məmurlar gəlin qaçırılması kimi vəhşi adəti xatırlatmağı lazım bilmirlər, "özümüzü dünyaya rüsvay edə bilmərik" - deyirlər.

Filmin məsləhətçisi Rüstəm İbrahimbəyovun dediyinə görə, filmi və onunla bərabər Yuli Qusmanın siftəsini o vaxt Mərkəzi Komitəyə rəhbərlik edən Heydər Əliyev xilas edib. "Gənc rejissorun ilk işidir, heç nəyi kəsmədən, bütünlüklə verilsin" - deyib.

Filmə yaxşı musiqini yazmaq və həm də ifa etmək üçün Qusman ən layiqli namizəd Polad Bülbüloğlunu görür:

"Polad çox populyar idi, yaxşı mahnı yazırdı və əla ifa edirdi. Aleksey Didorovun sözlərinə yaxşı mahnı yazmışdı. Əsil bizim kino üçün yazılmışdı elə bil. Filmə isə mahnını özü ifa edən gənc aktyor lazım idi. İstəmirdim səs başqasının olsun".

Qəhrəmanlardan biri - bəyin qızını sevən Teymur müğənnidir. Rejissor istəyirdi ki, həmin obraza özü oxuya bilən aktyoru çəksin. Çox götür-qoydan sonra yaradıcı qrup qərara gəlir ki, Teymur rolunu ən yaxşı elə Polad Bülbüloğlu özü oynaya bilər, öz mahnılarını ifa etməklə.

## Qaraqaş, qaragöz, milli qız

Qusman Polad Bülbüloğlunu da aktyorluğa çəkib gətirə bilir. Onun sevgilisi Tellini çox axtarırlar. Nəhayət, Moskva Kinematoqrafiya İnstitutunu yenicə bitirib gələn Həmidə Ömərovada dayanmalı olurlar. Qaraqaş, qaragöz, milli qız.

Rüstəmin yaxın dostu, cigit San Sanıç obrazı məxsusi aktyor Rolan Bıkov üçün yazılmışdı. Amma rejissor həmin obraza yalnız Lev Durovu gördüyünü deyib.

O vaxt Lev Durov artıq canlı əfsanə idi. Muxtarbəyovla da dost olduğundan Lev Durov tez razılaşıb çəkilməyə.

Sergey Yurski də pristav rolu üçün çox götür-qoy etmədən razılaşıb, çünki doğma şəhəri Leninqradda o vaxt ağır dönəm keçirirdi. Şəhər rəhbərliyi ilə problemləri vardı, bir az ordan uzaqlaşmaq xeyrinə olardı.



Həm də onu başqa kinostudiyalar həmin söz-söhbətə görə dəvət etmirdilər. Uzun fasilədən sonra "Azərbaycanfilm" dəvət etmişdi. Sergey Yurski buna görə həmişə Azərbaycan və azərbaycanlılar haqqında sevgi ilə danışarmış. Çəkilişlər vaxtı Yuli Qusman onu Bakı kənarında pansionatda ömrünün son günlərini yaşayan atasının yanına aparır. Yaşlanmış məşhur psixiatr olan atası oğlunun qonağı olan aktyora deyir ki, çox sevdiyim aktyor və ifaçısan. Yəqin bir daha səni konsertdə görmək mənə daha qismət olmayacaq. Səhəri gün aktyor öz konsert qiyafəsini geyinib, pansionatda iki saatlıq konsert proqramı ilə canlı çıxış edir.

## Axmağın tapılması

Yuli Qusmanın ən çox əziyyət çəkdiyi, tapa bilmədiyi aktyor Mərdan obrazını oynayacaq aktyor olub. Yaradıcı qrup axtarışla gəlib Şəki teatrına çıxırlar. Səhnədə 9 dəqiqəlik epizodik rolda oynayan Cahangir Novruzovu rejissorun gözü tutur. Və əslində çoxdan tanıdığı aktyora "sən əla aktyor olmusan" - deyib, onu filmə çəkilməyə dəvət edir.

Çəkilişlər başlar-başlamaz "Azərbaycanfilm"in çox da yüksək səviyyədə olmayan texnikası xarab olur. Bir "Arriflex" kamera onları yarı yolda qoysa işlər çətinləşərdi. Operator Valeri Kərimov bu texnikanı Qax rayonun İlisu qəsəbəsində çəkilişlər vaxtı dağa, qayaya, uçurumlara sürtə-sürtə birtəhər çəkib başa çatdıra bilib. Yeni texnikanın gəlməsini gözləmək vaxt itkisi idi. 2 seriyalı filmə isə cəmi 3 ay ayrılmışdı. Yararsız texnika ilə məşəqqətli çəkiliş prosesini yaradıcı qrup üçün asanlaşdıran ancaq yerli sakinlər olurdu. Hər cür köməyə hazır idilər, kütləvi səhnələrdə də məmnuniyyətlə çəkilirdilər. Nə lazım olsa, evlərindən daşıyıb gətirirdilər. Bu gün də İlisuda "Qorxma, mən səninləyəm" filminin burda çəkilməsi ilə bağlı xatirə stendlər var.

## Qusmanın Həmidə Ömərovanı aldatması

Maraqlı bir məqam da olur orda. Dağdan Tellini düşürmək üçün möhkəm kəndir tapılmadığından Həmidə Ömərovanın dublyoru epizoda çəkilməkdən imtina edib. Qusman üzünü Həmidə xanıma tutub - sənət naminə riskə getməkdən başqa yol yoxdur - deyir: "Sənin nə çəkin var ki ip saxlamaya. Qoy, bu sənin həyatında ilk və bəlkə də son tryukun olsun".

Həmidə Ömərova deyir ki, kənardan Muxtarbəy mənə baxıb razılaşma işarəsi verir, gənc aktrisa, yeni bitirmişəm kino məktəbini: "Qusman dedi ki, sənin qonorarını ikiqat verəcəm. Onsuz da razılaşmalı idim. Çəkildim, iplə sürüşüb ürəyim əsə-əsə aşağı çatdım, ipi açdılar. Yaxınlaşdım Qusmana ki, siz mənə min manat artıq verməyi söz vermisiniz ha. Qayıtdı ki, Həmidə, sən sübut etdin ki, Kinematoqrafiya İnstitutunu nahaq yerə qırmızı diplomla başa vurmamısan. Halaldı sənə, amma pul mənim deyil, dövlətindir".

Tryuklarda isə heç bir problem yaranmırdı. Çünki Kantemirovun öz komandası işləyirdi o sahədə. Atlarla tryukları Muxtarbəy özü edirdi, hamısı yüksək səviyyədə. Yalnız dağda partlayış və daşların aşağı yuvarlanması lazımı effekti verməyib. Yuli Qusman o partlayışı eşşək anqırtısına bənzədib, bizə isə dəhşətli partlayış lazım idi, alınmadı deyib.

Çəkilişlərə Muxtarbəy 20 il bir yerdə işlədiyi Almaz adlı atını gətirib. At deyildi, qardaşı imiş kimi yanaşırdı ona, silahdaşı kimi. Çəkilişlərdə at xəstələnir. Muxtarbəy atın gözlərindən hiss edir bunu. Məlum olur ki, nalbənd Kantemirovlardan hansısa incikliyin qisasını almaq üçün məqsədli şəkildə mismarı düzgün yerdən vurmayıb və atın qanına virus düşüb. Səhərə qədər ölməkdə olan atının yanında qalan Muxtarbəy səhər yuxulu halda çəkilişdə həyatında minlərlə dəfə etdiyi tryukda elə bir yanlışa yol verib ki, az qala ona həyatı bahasına başa gələcəkmiş. Xəncərləri bir birinə bağlayıb qalanın başına atmaq istərkən ayağının altından daş qaçan Kantemirovun əlindəki iti xəncərlər onun ayağını sümüyə qədər kəsib. Səhnə başa çatınca heç nə büruzə verməməyə çalışsa da çox qan itirməsi onun özündən getməsi ilə nəticələnib.

Qanaxmanı kəsmək mümkün deyilmiş, arteriya kəsilibmiş. Yaxın xəstəxanaya çatmaq üçün isə bir saat vaxt lazımmış. Yaxın tibb məntəqəsində yaşlı feldşer deyib ki, mənim bir iynəm var, bir də sapım. Narkozsuz necə tikim? Kantemirov ya dözməli idi, ya da öləcəkdi. Deyib ki, jqut verin, dişlərimin arasında sıxacam, siz tikin. Kantemirov o ağrının altında bir də at çapa biləcəmmi, sənətimə qayıda biləcəmmi? -deyə əzablı düşüncələrlə məşğul imiş. Özü hiss edirdi ki, sinir zədələnməsi var, çünki ayağını hiss etmirdi. İbtidai üsulla yara tikilir.

Həmin gün Bakıdan iki cərrah gəlib, onu əməliyyat edir. Əməliyyatdan bir həftə sonra Muxtarbəy çəkiliş meydançasına qayıdıb. Çəkilişlər boyu axsasa da filmdə bu hiss edilmir, etdirməyib, tryukları da özü edirmiş.

## Gənc Qusmanın ahıl sənətkara hədəsi

Filmdə Mirzə Babayev də çəkilib. Tellinin atası Fərzəli bəy rolunda.

Azərbaycanın məşhur sənətkarı çəkiliş prosesində anlayır ki, fonoqram ilə oxuya bilmir. Dəfələrlə kadrı yenidən çəkirlər. Fonoqram ilə Mirzə Babayevin dodaqlarının tərpənişi üst-üstə düşmür ki, düşmür. Axırda Qusman ona "sən yaxşı müğənnisən, amma çox pis aktyorsan" - deyir. Ona qədər də xarakterik obrazlar oynayan Mirzə Babayev bu töhmətə dözmür, fonoqramla elə ifa edir ki, Qusman özünü saxlaya bilməyib stresdən gülür. Yəni bu dəfə əla alınır.

Mirzə Babayevlə daha bir hadisə olub. Buruqdan neft əvəzinə su çıxanda, Petrovu oynayan aktyor - indi Səməd Vurğun adına Rus Dramasının rəhbəri Aleksandr Şarovski - rejissora pıçıldayır ki, bəlkə, su arxadan onun üstünə sıçrasın. Sərin havada Mirzə Babayevin üstünə soyuq suyun gözlənilmədən dağılması təbii kadrın alınması ilə nəticələnsə də Mirzə Babayevin Şarovskiyə qəzəbi ilə bitib.

Film 1980-ci ilin oktyabrında hazır olub. Bədii Şuranın üzvləri daxili baxışda doyunca gülüb, filmi qəbul ediblər. Bir neçə gün sonra fikirlərini dəyişib, premyeranı təxirə salıblar. Məlum olub ki, kino məmurlarını karate olan epizodlar qorxuya salıb. 80-ci illərin əvvəlində idmanın bu növünə qadağa qoyulmuşdu. Filmdə də bu təhlükəli idman növünü müsbət qəhrəmanlar göstərir.

Qusman depressiyaya düşür. Məxsusi o səhnələr üçün xüsusi karate dərsləri kursu təşkil edib, qruplar yaratmışdı. Bir neçə səhnəni yenidən çəkməli olurlar. Müəllim karate adı çəkmədən hansısa milli oyunu uşaqlara təlim keçir. Guya söhbət güləşdən gedir.

Nəhayət, film ilk dəfə Mərkəzi televiziyanın efirinə çıxır və dərhal da populyarlıq qazanır.

Muxtarbəy Kantemirov ondan sonra çox filmlərdə çəkilib, amma Rüstəm obrazı onlardan ən sevimlisidir - deyir.

"Qorxma, mən səninləyəm" dövrün ən uğurlu kommersiya filmi idi.

Filmin mahnıları da tezliklə populyarlaşır. Orda çəkilən aktyorlar həmin gündən bütün ittifaqda barmaqla göstərilir. Tellinin qanuni nişanlısını oynayan Cahangir Novruzov deyir ki, səhəri gün Moskvada taksi sürücüsü məni tanıyıb uzun bir yolu tam pulsuz apardı və dedi ki, mən gedib evdə bu gün kimi gördüyümü danışacam.

Filmdə böyük sənətkar Həsənağa Turabov (Üçgöz Cəfər) əsas rollardan birinə çəkilib. Onun Teymuru qovub tutmaq istədiyi səhnədə Teymur qalanın başına çıxıb oxuyur. Musiqini çox sevən Üçgöz Cəfər düşməni mahnı ifa etdiyi üçün onu vura bilmir: "Ah, bir görün o necə oxuyur! Bir az da oxusa, mən onu öldürə biləməyəcəm" - deyir.

Düzdür, filmin nümayişindən sonra gənclər xəncərlə gəzir, karate ilə məşğul olur, bəlkə də dəmir betonu barmaqla deşmək istəyən neçəsinin barmağı qırılmışdı, amma bütün bunlarla birgə film humanizm aşılayan döyüş, macəra, musiqili komediya idi.

# Mənsum İbrahimov: "Ziyalılarımız, alimlərimiz xalqa mənəvi dəstək olmalıdırlar"

***Dünyamız ağır günlər yaşayır. Doğma Azərbaycanımız da bu dünyanın bir parçası kimi koronavirus pandemiyasının yaratdığı çətinliklərlə üz-üzədir. Dövlətimiz xəstəliyin yayıldığı ilk günlərindən lazım olan bütün qabaqlayıcı tədbirləri gördü, qarşıya qoyulan əsas məqsəd vətəndaşların sağlamlığı idi. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva məlum vəziyyətlə bağlı dəfələrlə xalqa müraciət etdilər, vətəndaşları bu çətin günlərdə birliyə, həmrəyliyə səslədilər. Təbii ki, biz bütün çətinliklərin öhdəsindən ancaq həmrəy olmaqla, bir-birimizə dəstək olmaqla gələ bilərik. Mən də öz növbəmdə, bir vətəndaş, Xalq artisti olaraq incəsənət xadimlərinə səsləndim. Çətin bir dönəmdən keçirik. İnşallah, xalqımızın birliyi ilə bu sınaqdan da çıxacaq, normal həyatımıza qayıdacağıq.***



"Unikal" bildirir ki, bu fikirləri AZƏRTAC-a açıqlamasında tanınmış xanəndə, xalq artisti, Milli Konservatoriyanın professoru Mənsum İbrahimov deyib.

Dövlətimizin başçısının koronavirus pandemiyası ilə mübarizədə atdığı qətiyyətli addımları alqışlayan xalq artisti bildirib ki, məhz bu tədbirlərin sayəsində ölkəmizdə vəziyyət nəzarət altındadır. Lakin arxayınlaşmaq olmaz. COVID-19 xəstəliyi uzunmüddətli prosesdir və prosesin ikinci dalğasının qarşısını almaq üçün son dərəcə diqqətli olmalıyıq. Yaxşıdır ki, karantin rejimi ilə bağlı bəzi məhdudiyyətlər aradan qaldırılıb. Lakin biz son dərəcə diqqətli və təmkinli olmalıyıq. Bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. Özünütəcrid, "Evdə qal!" kampaniyası davam etdirilməlidir. Xüsusilə yaşı 65-dən artıq olan vətəndaşlar öz sağlamlıqlarının qeydinə qalmalıdırlar.

Mənsum İbrahimov deyib: "Mən də bir Azərbaycan vətəndaşı kimi üzərimə düşən məsuliyyəti dərk edərək qaydalara əməl edirəm. Evdə vaxtımı ailəmlə, nəvələrimlə birlikdə keçirirəm. Kitab oxuyuram, musiqiyə qulaq asıram. Zərurət olmadıqda evdən çölə çıxmamağa çalışıram. Mən bütün vətəndaşları bu qaydalara əməl etməyə çağırıram. Başa düşürəm, gözəl yaz fəslində evdə qalmaq çətindir, amma onu da nəzərə almaq lazımdır ki, bu, müvəqqətidir. Ancaq hər nə qədər öyrəşmədiyimiz hal olsa da, bilməliyik ki, bu günlər bütün dünya çətin bir imtahandan keçir. Ona görə də problemlərlə üzləşməmək üçün şəxsi gigiyena, özünütəcrid qaydalarına ciddi şəkildə əməl etməliyik, yığıncaqları təxirə salmalıyıq. Tətbiq olunan qaydalar, karantin rejimi biz vətəndaşların sağlamlığını təmin etmək məqsədilə atılmış addımdır".

Xalq artisti qeyd edib ki, xüsusi karantin rejimi ilə bağlı mövcud məhdudiyyətlərin mərhələli şəkildə yumşaldılması zəruri bir prosesdir. Amma bu vəziyyətdən sui-istifadə etməyin, məsuliyyətsiz davranmağın fəsadları ağır ola bilər. Təbii ki, xəstəliyin dinamikasında artım müşahidə olunarsa, karantin rejiminin yenidən sərtləşdiriləcəyi istisna deyil. Bu səbəbdən hazırkı vəziyyətdə hər şey insanlardan asılıdır və onlara bağlıdır. Profilaktik tədbirlər mütləq qorunmalı, sanitar qaydalara əməl olunmalıdır.

"Bu çətin günlərdə mən də çalışıram ki, öz dəstəyimi göstərim. Bir xanəndə kimi mənim əlimdən konsert vermək gəlir. Mədəniyyət kanalı və Mədəniyyət Nazirliyinin birgə "Bizi birləşdirən dəyərimiz" layihəsi çərçivəsində Muğam Mərkəzində tamaşaçısız canlı konsertimiz oldu və 1 saat davam etdi. Aprelin 10-da öz evimdən "Qarabağ" muğam qrupu ilə birgə 1 saat yarım konsert verdim və bu konsert Azərbaycan Televiziyasının "Eyvana çıx" layihəsi çərçivəsində canlı olaraq yayımlandı. Sonra Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Mədəniyyətinlə dəstək ol" layihəsi çərçivəsində evdən onlayn konsert vasitəsilə xalqa dəstək olmağı özümə borc bildim. Bundan əlavə, sosial şəbəkələrdəki hesablarım üzərindən tez-tez canlı yayımlarım olur və bu proses yenə də davam etdiriləcək. Mən bundan böyük zövq alıram. Bundan başqa, bu günlərdə yetirməm, Əməkdar artist Təyyar Bayramovla birlikdə Ağdam rayonunun cəbhəboyu kəndlərində olduq və ümumilikdə, 150 ailəyə ərzaq yardımı etdik, hətta onlar üçün konsert verdik. Onların gözlərindəki fərəhi, sevinci görmək nəyə desən dəyərdi. Cəbhəboyu kəndlərdə yaşayanlar koronavirus kimi gözəgörünməz düşmənlə yanaşı, həm də gözəgörünən, məkrli düşmənlə üz-üzə dayanıblar. Həmin insanlara ruh yüksəkliyi vermək, dəstək olmaq mütləq lazımdır. Onsuz da dövlətimiz həmişə olduğu kimi, bu çətin günlərdə də xalqın rifahı üçün mümkün olan hər şeyi edir, dəstək proqramı çərçivəsində yardımını əsirgəmir. Yenə də deyirəm, söhbət birlikdən, həmrəylikdən gedir. Bu çətin günlərdə hər kəs əlindən gələni etməli və bir-birinə dəstək olmalıdır. İmkanlı sənətkarlarımız, iş adamları maddi cəhətdən problemləri olan insanlara kömək etməlidirlər. Bu, hər kəsin mənəvi borcudur. Mən bütün sənət adamlarına, tanınmış ictimaiyyət nümayəndələrinə səslənirəm ki, dəstək olsunlar, xalqa ruh versinlər. Ziyalılarımız, alimlərimiz xalqa mənəvi dəstək olmalıdırlar", - Mənsum İbrahimov vurğulayıb.

Xalq artisti amansız xəstəliklə mübarizədə qəhrəmanlıq göstərən tibb işçilərinə, eləcə də hüquq mühafizə orqanlarının nümayəndələrinə təşəkkürünü bildirib. Qeyd edib ki, həmin peşə sahibləri bu çətin günlərdə səylə çalışırlar. "Təmkinli, səbirli olaq. Hər şey keçəcək və biz yenidən adi həyatımıza davam edəcəyik. Amma bu vəziyyətdə riskli qrupdan olan ahıllarımızı qorumalıyıq, övladlarımızın qeydinə qalmalıyıq. Ulu Tanrı dövlətimizi və xalqımızı qorusun!", - deyə xalq artisti fikirlərini yekunlaşdırıb.



# Xalq artisti: "Virusun yeni dalğasına yol verməmək üçün..."

***Sözlərimə müdrik bir kəlamla başlamaq istərdim. Adətən, mübarizədə güclülər deyil, ağıllılar, yəni, tədbirlilər qalib gəlirlər. Bu gün dünya ölkələri ilə müqayisədə Azərbaycanın təcrübəsi nümunə göstərilir. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində vaxtında atılan qabaqlayıcı tədbirlər öz bəhrəsini verib. Məhz dövlətimizin başçısının verdiyi qəti qərarlar sayəsində bu bəladan çox az itki və zərərlə çıxa bilmişik.***

"Unikal" bildirir ki, bu sözləri AZƏRTAC-a açıqlamasında tanınmış aktyor, xalq artisti Yasin Qarayev söyləyib.

Xalq artisti bildirib ki, dünyanı lərzəyə salan koronavirus pandemiyası 200-dən çox ölkədə yayılıb və tüğyan edir. Amansız və çarəsi hələ də tapılmayan xəstəlik səbəbindən insanlar həyatlarını itirirlər. Bir sözlə, planetimizdə minlərlə insan pandemiyanın qurbanı olub. Acınacaqlısı da odur ki, koronavirus sərhəd tanımır, yaş bilmir. Lakin şükürlər olsun ki, bu xəstəlikdən sağalanların da sayı az deyil.

Yasin Qarayev bildirib: "Biz tarixin səhifələrini vərəqlədikcə milyonlarla insanın ölümünə səbəb olan bu qəbildən epidemiyaların zaman-zaman baş verdiyini görürük. Orta əsrlər dövrünün ən böyük təbiblərindən biri, filosof, mütəfəkkir alim İbn Sinanın dövründə də müalicəsi müşkül olan epidemiyalar olub. İbn Sina vaxtilə "qara ölüm" adlanan tauna qarşı mübarizədə şəxsi gigiyena və özünütəcrid metodundan məharətlə istifadə edib. Məhz onun tövsiyələri sayəsində dəhşətli taun xəsətliyinə qalib gəlmək mümkün olub. İbn Sina əlləri mütamadi olaraq yaxşıca yumağı və sirkə ilə dezinfeksiya etməyi məsləhət görərək, insanları kütləvi toplantılara yol verməməyə, evdə qalmaqla dəhşətli xəstəliyə qalib gəlməyə çağırıb. Müasir dövrümüzdə də bu qaydalar keçərlidir. Hazırda bizdən səbir, təmkin tələb olunur. Bu, həm özümüz, həm də cəmiyyətimiz üçün vacibdir. Napoleon Bonapart da dediyi kimi, insan öz səbir və dözümü ilə tauna da qalib gələ bilər".

Tanınmış kino və teatr aktyoru qorxulu və insana haradan zərbə vuracağı bilinməyən xəstəliklə mübarizədə soyuqqanlı olmalı, dövlətimizin, Operativ Qərargahın tələblərini yerinə yetirməyə hər birimizin borclu olduğunu xatırladıb. O deyib: "Düşünürəm ki, koronavirus pandemiyasının yeni dalğasına yol verməmək üçün vətəndaş məsuliyyətimizi dərk etməli, karantin rejiminin qaydalarına riayət etməliyik. Vətəndaşlar şəxsi gigiyena, özünütəcrid qaydalarına əməl etməli, kütləvi şəkildə toplaşmalardan mümkün qədər yayınmalı, məsafə saxlamalıdırlar. Bəzi insanlar bu xəstəliyə barmaqarası baxır, məsuliyyəti dərk etmirlər. Bu, yolverilməzdir. Hadisələrə sağlam düşüncə və təfəkkür ilə yanaşmaq lazımdır. Çünki sağlam düşüncə sağlamlığın əsasıdır. Gəlin, qaydalara əməl edək ki, həm sağlamlığımızı qoruyaq, həm də dövlətimizə dəstək olaq".

# Məşhur hind aktyoru vəfat etdi

***Hindistanın tanınmış aktyoru Rişi Kapur vəfat edib.***

APA-nın xəbərinə görə, NDTV telekanatının məlumatında bildirilir ki, R. Kapur 68 yaşında Mumbai şəhərindəki klinikalardan birində xərçəngdən dünyasını dəyişib.

Bollivudun məşhur aktyorlarından olan R. Kapur görkəmli aktyor və rejissor Rac Kapurun oğludur.

R. Kapura uğuru baş rolda çəkildiyi "Bobbi" filmi (1973) qazandırıb. Filmin rejissoru R. Kapur olub. Həmin il R. Kapur Hindistanda ilin aktyoru seçilib.

Bundan başqa, onun çəkildiyi "Qisasçı", "Ömər, Əkbər, Antoni", "Məhəbbət xəstəliyi" və digər filmlər dünyada, xüsusən də keçmiş SSRİ məkanında çox sevilib.



## Oynaqlardan,boyundan duzu çıxaran, ostexondroza qarşı- SİBİR RESEPTİ

***Düyü kvası bədəndən, oynaqlardan duzu, şlakları təmizləyir, iltihab əleyhinə təsir edir, oynaqların hərəkətliliyini artırır. Rus, sibir nənələrinin həmişə hazırladıqları möcüzə içkidir.***

Bu içki sizi oynaq, diz, bel, boyun, ostexondroz ağrılarından xilas edəcək

"Unikal" medicina.az-a istinadən düyü suyunun hazırlanmasını təqdim edir

Sizə lazımdır:

Təmiz, keyfiyyətli düyü - 4 xörək qaşığı

Şəkər tozu -3 x.q

Kişmiş - 1 x.q

Hazırlanması:

Düyü yuyuyur, üzərinə 1 litr su alınır.

Bura 3 xörək qaşığı şəkər tozu və bir qaşıq kişmiş əlavə edin. Şüşə balonda ağzını bağlayaraq, 4 gün qaranlıq, sərin yerdə saxlayın.

Hazır olanda süzüb, soyuducuda saxlaya bilərsiz.

Düyü suyu gündə 3 dəfə yeməkdən yarım saat sonra, yarım stəkan miqdarında qəbul edilir.

Kurs 3 həftədir. Sonra 1 ay fasilə verib təkrarlaya bilərsiz.

## Xına təkcə boyaq vasitəsi deyil

***Xına boya və dərman əhəmiyyətli bitki kimi çox qədim zamanlardan istifadə edilir. Qədim misirlilərin qəbirlərində xınanın qurudulmuş yarpaqları tapılıb. Məhəmməd peyğəmbər onun çiçəklərinin ətrini çox sevirmiş. Xristianların müqəddəs kitabı olan İncildə də bu bitkinin adı çəkilib. Mərkəzi Asiya ölkələrində xınadan bədəndə döymə naxışların, yazıların və şəkillərin vurulması böyük populyarlıq qazanıb.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, boyaq və dərman əhəmiyyətli vasitə əldə etmək üçün xınanın yarpaqlarını payızda toplayır, qurudub xırdalayır və hər 10 kiloqramına 1 kiloqram gənəgərçək tozunu əlavə edirlər. Alınan qarışıq qırmızı rəngli tozdan ibarət olur. Xınanın tozunu dərhal qablaşdırır və vakuumda saxlayırlar, çünki adi şəraitdə saxladıqda tez xarab olur və sıradan çıxır.

Xına təkcə boyayıcı maddə deyil, həm də müalicəvi xüsusiyyətlərə malik olan bir vasitədir. Xına çox güclü dezinfeksiyaedici təsirə malik olduğuna görə onu yaraların və zədələrin, həmçinin dermatoloji və sümük xəstəliklərinin, baş ağrılarının müalicəsində istifadə edirlər. Onunla məşğul olan həkimlərin dediyinə görə, stomatit, dil, yanaq və dodaqlarda yaranan xoralar zamanı xına ilə qarqara etmək faydalı təsir göstərir.

Kəskin iltihab və abseslərdə, kürək nahiyəsində ağrılar baş verdikdə qızılgül yağı, təbii mum və xınanın ekstraktının qarışığı çox səmərəli sakitləşdirici təsir göstərən vasitə kimi tətbiq olunur. Diş ağrılarında xınanın tozunu su ilə qarışdırıb dişin oyuğuna qoyurlar. Xına tozunun sıyığı baş ağrıları zamanı həmin nahiyələrə yaxılır.

Xalq təbabətində xına uşaqlarda təsadüf edilən xənazir (zolotuxa), həmçinin ekzema və digər çətin sağalan dəri xəstəliklərinin müalicəsində tətbiq olunur.

# Sağlam adamlar 2-3 ildən bir bu müayinələrdən keçməlidir

### Təhlükəli xəstəlikləri vaxtında aşkarlayan siyahı

***Tibdə müayinə paketi olan skrininq və ya dispanserizasiya - sağlam adamların 1-2-3 ildən bir keçərək, müxtəlif onkoloji risk və digər xəstəlikləri vaxtında aşkarlama üçün nəzərdə tutulub.***

Dispanserizasiya sovet dövründən bu vaxta kimi ildə 1 dəfə dövlət poliklinika və xəstəxanalarında elan olunur və10 gün müddətində hər kəs yaşadığı yer üzrə tibb mərkəzində bu paketə daxil olan müayinələrdən, həkimlərdən keçə bilər. Azərbaycanda bu hər il böyüklər və uşaqlar üçün elan olunur, lakin təəssüf ki, çoxumuz bundan xəbərsiz oluruq və ya bilsək də getmirik və yaxud da poliklinikalarda müayinələrin effektinə güvənmirik.

Özəldə və xarici dövlətlərdə isə skirininq proqramları aparılır. 40 yaşa kimi hər kəs bu skrininqlərdən 3 ildən bir, 40 yaşdan sonra isə 2 ildən bir, 50 yaşdan sonra ildə bir dəfə aparılmalıdır.Söhbət konkret xəstələrdən getmir, burda söhbət özünü sağlam hiss edən, hesab edən və hələ ciddi xəstəliyi aşkarlanmayan şəxslərdən gedir. Yoxlanış və skrininqlərdən qorxmaq lazım deyil, onlar vaxtında şişi, kistiləri, daşı və ürək problemlərini aşkarlaya bilər.

Məsələn, hər 10 sağlam insanın birində öd kisə daşı var

Hər 20 sağlam qadından birində böyrək daşı çıxır

Hər 3 sağlam insandan birində ostexondroz və onurğa yırtığı aşkarlana bilər.

Süd vəzi, qaraciyər, böyrək kistləri, adenomalar, xoşxasəlli şişlər bunlar sizə qorxutmamalıdır. Müalicəsi var və aşkar olunsa yaxşıdır.

Xüsusən qalxanvari vəzimiz təhlükədədir, onda olan düyünlər, kistlər vaxtında tapılmalıdır.

"Unikal" medicina.az-a istinadən 1-2 ildən bir keçməli olduğunuz skrininq deyilən müayinə və analizlərin siyahısını hazırlayıb.

- Xolesterin və lipid analizi - 25 yaşdan yuxarı kişilər, siqaret çəkənlər, təzyiqi yüksələnlər, nəsildə ürək-damar problem olanlar, artıq çəki və piylənmədən əziyyət çəkənlər ildə bir dəfə keçməlidir. Qadınlar 35 yaşdan sonra hər il keçməlidir.



- Arterial təzyiq yoxlanması və buna uyğun müayinə analizlər - Hər bir kişi orta təzyiqini bilməlidir. Qadınlar 3 ildən bir müayinələrdən keçməlidir.
- Mammoqrafiya - 40 yaşdan başlayaraq 3 ildən bir. İldə 1 dəfə süd vəzilərinin USM müayinəsi. Artıq çəkisi olan, menstruasiyadan kəsilən, doğum və südverməsi olmayanlar, irsi olaraq nəsildə süd vəzi xərçəngi görünənlər, gecə növbəsində çalışanlar mütləq bu müayinələrdən keçməlidir.
- Uşaqlıq boynu xərçənginə qarşı PAP test - 21 yaşdan 65 yaşa kimi 3-4 ildən bir hər bir qadın. Cinsi münasibətdə olan və uşaq doğan hər bir qadın yaşından asılı olmayaraq bu müayinələrdən keçməlidir.
- Kolonoskopiya - bağırsaqların yoxlanması. Kişi və qadınlar 55 yaşdan sonra 3-4 ildən bir keçməlidirlər. Yoğun bağırsaq xərçəngi 50 yaşdan sonra rast gəlinir. Xərçəng öncəsi mərhələ poliplərdir, onları da kolonoskopiya təyin edir. Əgər ailənizdə 50 yaşa kimi mədə-bağırsaq xərçəngi olan üzv olubsa, siz 10 il daha tez bu müayinələrdən keçməlidir.
- Ağciyərlərin komputer müayinəsi (KT) - 15 ildən artıq siqaret çəkənlər 40 yaşdan sonra 2-3 ildən bir keçməlidir.
- Qanda şəkər, insulin dirənci analizləri - təzyiqi 135-dən yuxarı çıxanlar, hamilələr, nəsildə, ailədə şəkərli diabet xəstələri olanlar, artıq çəkisi olanlar ildə bir dəfə bu analizləri verməlidirlər.
- QİÇS analizi - 15-65 yaş arası, xüsusən ötəri cinsi əlaqədə olanlar 2-3 ildən bir anonim olaraq mərkəzdə analiz verməlidir
- Hepatit C, B - ildə bir dəfə 25 yaşdan yuxarı hər kəs. Eləcə də stomatoloji müalicə alanlar, tatu, pirsinq etdirənlər,narkotik istifadəçiləri, seksual aktiv insanlar ildə bir dəfə analiz verməlidir
- Xlamidioz - 25 yaşdan sonra cinsi əlaqə aktivliyi olan hər kəs və toydan öncə bəylər. Bu virus dünyada sonsuzluq yaradan birinci virusdur.
- Osteoporoz (sümüklərin vəziyyəti) - xüsusi metod və aparatdan, eləcə də analizlərlə yaşı 60-dan yuxarı hər bir qadın 3 ildən bir keçməlidir
- Prostat, PSA analizi - 45 yaşdan sonra 2 ildən bir bütün kişilər.
- Qarın boşluğu anevrizmasını təyin etmək üçün USM müayinə - 65-75 yaş arası siqaret çəkənlər. Arteriyalarda anevrizma qəfil partlayıb ölüm verə bilər.

# Energetik içkilərdən həddindən artıq istifadə asılılıq yaradır

***Son zamanlar yorğunluğu aradan qaldıran energetik içkilər daha çox satılır. Onun vurğunu olanlar da, ara-sıra dadına baxanlar da var. Bəziləri özlərini gümrah hiss etsələr də, bu içkilərin zərərinin fərqində olanlar da az deyil.***

"Unikal" AZƏRTAC-a istinadən bildirir ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov enerji içkilərindən həddindən artıq istifadənin asılılıq yaratdığını bildirib: "Enerji içkilərinin tərkibində kofein bir stəkan kofedə olandan daha artıqdır. Kofeinin tərkibi yüksəkdir, onda şəkərin səviyyəsi də yüksək olur. Enerji içkilərinin içinə performansı artıran maddələr əlavə olunduğu üçün asılılıq yaradır. Böyrək çatışmazlığı, diabet xəstələrinin




və yaşı 18-dən az olanların və hamilə qadınların ondan istifadə etməyi məsləhət deyil".

Yorğunluğu aradan qaldırmaq, itirilmiş enerjini bərpa etmək üçün belə içkilərə üstünlük verilir. Həmin içkilərin qəbulu zamanı orqanizmdə baş verənlər haqqında isə həkim bunları deyib: "Enerji içkilərinin tərkibində kofein çox olduğuna görə əvvəlcə yorğunluq hissini azaltdığı, motivasiyanı yüksəltdiyi, yuxusuzluğu aradan qaldırdığı təəssüratı yaradır. Bir müddət keçəndən sonra orqanizmdə kofeinin mənfi təsirləri özünü göstərir və yenidən yorğunluq hissi yaranır. Daha bir müddət sonra isə alışqanlıq yaranır. Bir butulka energetik içki içənlər özlərini gümrah hiss edirdilərsə, zaman keçdikcə qəbul edilən içkinin miqdarı artmağa başlayır. Artdıqca isə sinir sistemində problemlər yaranır".

Həkimin dediyinə görə, enerji içkilərinin əvəzinə immuniteti gücləndirən meyvə şirələri və su içmək daha məsləhətdir. Bununla da itirilmiş enerji bərpa olunur və yuxu rejimi qaydaya düşür.

# AFFA-dan futbolçulara tövsiyə



***AFFA hüquqi tənzimləmələr üzrə Təlimat hazırlayıb.***

"Unikal" qəzetinin məlumatına görə, koronavirus pandemiyası ilə əlaqədar futbol sahəsində yaranmış mövcud vəziyyəti dəyərləndirən və FİFA-nın müvafiq tövsiyələrini nəzərə alan assosiasiya belə addım atıb.

Təlimatda əsasən 3 əsas istiqamət öz əksini tapıb:

a) Müddəti bitən müqavilələr və yeni müqavilələr

b) Müqavilənin icrasının mümkün olmadığı hallar

c) Qeydiyyat dövrləri

1-ci istiqamətlə bağlı Təlimatda qeyd olunan əsas tövsiyələr aşağıdakılardır:

- Müqavilənin bitmə tarixi cari futbol mövsümünün əvvəlcədən müəyyən olunmuş başa çatma tarixi ilə eynidirsə, müqavilənin müddəti mövsümün yeni başa çatma tarixinə qədər uzadılsın.

- Müqavilə növbəti mövsümün əvvəlcədən müəyyənləşdirilmiş başlanğıc tarixində qüvvəyə minirsə, bu müqavilənin qüvvəyə minməsi növbəti futbol mövsümünün yeni başlanğıc tarixinə qədər təxirə salınsın.

Təlimatdakı 2-ci istiqamət özündə əsasən bunları ehtiva edir:

- COVID-19 pandemiyası ilə əlaqədar yarışların təxirə salındığı müddətdə və daha sonra iş şəraitinin şərtləri barədə klublar və əməkdaşları (oyunçular və məşqçilər) birlikdə müzakirələr apararaq klub və ya liqa səviyyəsində razılaşmalar əldə etməyə çalışmalıdırlar.

- Futbol klubları və əməkdaşlar (futbolçular) razılığa gələ bilmirsə və ya müqavilələrin şərtlərini dəyişməklə bağlı birtərəfli qərar verilirsə, əməkdaş ilə klub arasında bağlanmış müqaviləyə uyğun olaraq, aidiyyəti məsələyə AFFA və ya FIFA-nın hüquq tətbiqedici orqanları, o cümlədən Azərbaycan Respublikasının məhkəmə orqanları tərəfindən qiymət veriləcək.

3-cü istiqamət üzrə isə əsasən aşağıdakılar qeyd olunub:

- FIFA-nın qaydalarına uyğun olaraq, üzv assosiasiyalar qeydiyyat dövrü başlayana qədər xüsusi hallarda qeydiyyat dövrlərini dəyişdirə bilər. COVID-19 pandemiyası xüsusi hal hesab olunduğu üçün zəruri olacağı halda cari mövsümün uzadılması, cari qeydiyyat dövrlərinin və növbəti qeydiyyat dövrlərinin tarixlərinin dəyişdirilməsi barədə AFFA tərəfindən qərar qəbul oluna bilər.

- COVID-19 pandemiyasının yayılması ilə bağlı şəraiti nəzərə alaraq, istisna hal kimi COVID-19 səbəbilə müqaviləsi başa çatmış və ya müqaviləsinə xitam verilmiş peşəkar oyunçu başa çatma və ya xitamvermə tarixindən asılı olmayaraq, qeydiyyat dövrünün xaricində assosiasiya tərəfindən qeydiyyata alınmaq hüququna malikdir.

Təlimat münasibət bildirilməsi üçün Peşəkar Futbol Liqasına, Premyer Liqada çıxış edən klublara göndərilib və AFFA-ya bununla bağlı hər hansı yeni təklif, qeyd və irad daxil olmayıb. COVİD-19 pandemiyası ilə əlaqədar AFFA-nın İcraiyyə Komitəsinin iclasının keçirilməsi mümkün olmadığı üçün müvafiq Təlimat İcraiyyə Komitəsinin bütün üzvlərinə göndərilib və hər bir üzvün münasibəti öyrənilib. İcraiyyə Komitəsi üzvlərinin bütün qeydləri Təlimatın son verisiyasında müvafiq qaydada öz əksini tapıb.

AFFA klublara mövcud vəziyyətdə qarşıya çıxan məsələlərin Təlimatda göstərilən tövsiyələrə uyğun olaraq, qarşılıqlı razılıq əsasında tənzimlənməsini tövsiyə edir.

Qeyd edək ki, təlimatın müddəaları mövcud vəziyyətə uyğun olaraq yenilənə bilər.

# Azərbaycan millisinin hücumçusu Belarus klubuna keçib

***Qadınlardan ibarət Azərbaycan milli komandasının voleybolçusu Marqarita Əzizova karyerasını Belarusda davam etdirəcək.***

"Unikal" qəzetinin məlumatına görə, milliləşən legioner "Minçanka" klubuna keçib.

O, yeni komandası ilə bir mövsümlük anlaşıb. Diaqonal oyunçusu yeni klubunda 10 nömrəli forma ilə çıxış edəcək. 2012-17-ci illərdə "Telekom"da oynamış Əzizova Azərbaycan çempionatlarının qızıl (2017) və gümüş (2016) mükafatçısıdır. O, Türkiyə və Polşa klublarında da legioner həyatı yaşayıb. 27 yaşlı hücumçu Minsk təmsilçisinə keçidindən məmnun qaldığını açıqlayıb: "Minçanka"ya keçidimə çox şadam. Klub barədə çox eşitmişəm və Superliqada izləmişəm. Həm də mən Rusiya çempionatında oynamağı həmişə çox istəmişəm". Qeyd edək ki, "Minçanka" Rusiya Superliqasında çıxış edir.

# "Futbol dayansa, 700-800 milyon avro itki olacaq"

***İtaliya Futbol Federasiyasının prezidenti Qabriel Qravina koronavirus pandemiyası səbəbiylə dayandırılan A Seriyasının taleyi ilə bağlı açıqlama verib.***

"Unikal" qəzeti xarici KİV-ə istinadən xəbər verir ki, federasiya rəhbəri, mövsümü ləğv etmək istəmədiklərini bildirib: "Federasiyaya rəhbərlik etdiyim müddətdə mövsümü vaxtından tez yekunlaşdırmağa razı olmayacam, çünki bu, İtaliya futbolunun ölümü olar. Bu məsələdə hər kəsin maraqlarını qorumağa çalışıram. Təkrar edirəm, bütün futbolçuların iştirakı ilə bağlı problem olmadıqca, bu qərarı qəbul etməyəcəm. Mövsümü ləğv etmək üçün kimsə mənə bunu izah etməli və irəliləməyimə mane olmalıdır. Futbol dayansa, 700-800 milyon avro itki olacaq. Oyunlar azarkeşsiz keçirilsə, itkilər 300 milyon avro olacaq".





# UEFA AFFA-ya məktub göndərib

***UEFA avrokubokların reqlamentində dəyişiklik edib. "Unikal" qəzetinin xarici mətbuata istinadən məlumatına görə, buna koronavirus pandemiyası üzündən bəzi ölkələrdə mövsümün yekunlaşmaması səbəb olub.***

Bu üzdən də UEFA Avropa Liqasının iştirakçılarının müəyyənləşməsi ilə bağlı qaydada düzəliş və əlavələri zəruri sayıb. Söhbət sona çatdırılmayan ölkə kubokundan verilən vəsiqənin sahibinin müəyyənləşməsindən gedir.

Artıq mövsümü bərpa olunmayacağı elan edilən Niderland, Fransa kimi ölkələrdə bənzər problemlərin yaranması, İspaniyanın UEFA ilə bu mövzuda danışıqlar aparması qurumu reqlament dəyişikliyini nəzərdən keçirməyə vadar edib.

Qərara alınıb ki, kubok yarışları başa çatmayan ölkələrin avrokubokların 2020/21 mövsümündəki sonuncu təmsilçisi çempionatın yekun kimi qəbul olunan turnir cədvəlinə əsasən müəyyənləşsin. Bununla bağlı sirkulyar məktub UEFA-ya üzv olan 55 milli assosiasiyanın, o cümlədən AFFA-nın prezident və baş katiblərinə göndərilib.

Əgər Azərbaycanda 2019/20 mövsümü başa çatdırılmasa, "Qarabağ" Çempionlar Liqasına, hazırkı turnir cədvəlində növbəti yerlərdə qərarlaşan "Neftçi", "Keşlə" və "Sumqayıt" Avropa Liqasına vəsiqə qazanacaq. Sonuncular kubok yarışı başa çatmaması ilə bağlı reqlament dəyişikliyinə görə buna nail olacaq.

# Neymarın PSJ-dəki qazancı

***İspaniyanın "Marca" nəşri PSJ-nin futbolçusu Neymarın məvacibini hesablayıb.***

"Unikal" qəzeti xəbər verir ki, 2017-ci ildə "Barselona"dan 222 milyon avroya PSJ-yə keçən, illik maaşı 37 milyon avro olan braziliyalı hücumçu 3 il ərzində 111 milyon avro qazanıb. Bununla da, Neymara görə PSJ 333 milyon avro pul ödəyib.

Neymar PSJ-nin rəsmi oyunlarının 51 faizində iştirak edib (155 matçın 80-də). O, matçların 49 faizində zədə və ya diskvalifikasiya səbəbindən oynaya bilməyib. Beləliklə, Neymarın PSJ-dəki bir matçı 4,16 milyon avroya başa gəlir.

Koronavirusa görə erkən tamamlanan Liqa 1-də Neymar bu mövsüm 15 oyunda 13 qol vurub. Hücumçunun komandası PSJ Liqa 1-də 2019/20 mövsümünün çempionu elan edilib.

# Futbol tarixinin ən yaxşı məşqçilərinin reytinqi dərc olunub

***Populyar "FourFourTwo" idman jurnalı futbol tarixinin ən yaxşı məşqçilərinin reytinqini dərc edib.***

"Unikal" qəzetinin məlumatına görə, reytinqə şotlandiyalı məşqçi, karyerasının böyük hissəsini "Mançester Yunayted"ə rəhbərlik etmiş ser Aleks Fergüson rəhbərlik edir.

1986-cı ildən 2013-cü ilədək Mançester klubuna baş məşqçisi olmuş A.Fergüson 13 dəfə İngiltərə çempionluğunu, 2 dəfə UEFA Çempionlar Liqasını qazanıb.

İlk onluğa, həmçinin niderlandlı Rinus Mixels və Yohan Kroyff, şotlandiyalı Bill Şenkli və Mett Basbi, ispaniyalı Xosep Qvardiola, italiyalı Arriqo Sakki, argentinalı Elenio Errera və avstriyalı Ernst Happel daxil olub.



# Zümrüd: "Yazırlar ki, qız özünü buraxıb"

***Tanınmış aparıcı Zümrüd Bədəlova sosial şəbəkədə onu qınayan və hətta təhqir edən insanlardan danışıb.***

"Unikal" bildirir ki, yenicag.az-a açıqlama verən aparıcı əvvəllər bu şərhləri sildiyini bildirib:

"Heç vaxt efirdə rola girmirəm. Tamaşaçını aldatmaq olmaz. "Bəzənim-düzənim, efirə çıxım, üzümə-gözümə, bədənimə, orama-burama baxsınlar", - deyə bir anlayış olmayıb məndə.

Bəzən məni qınayırlar da. Bəyənənlərlə yanaşı bəyənməyənlər də var. Sosial şəbəkədə yazırlar ki, qız efirdə özünü buraxıb. Əvvəllər belə şərhləri silirdim, indi yox, artıq öyrəşmişəm. Məni bəyənənlər yazır ki, həmişə belə səmimi ol. Hətta görürəm ki, şərhlərdə sevənlərimlə sevməyənlərim buna görə bir-birləri ilə dalaşırlar. Özümü buraxıb neyləmişəm ki, bəlkə kimisə biabır etmişəm, ya da təhqirə yol vermişəm?- Qonaqlarıma arada atmacalı sözlər deyirəm, gülərək də cavabımı alıram. Amma heç vaxt kimisə aşağılamaram. Buna ixtiyarım da yoxdur, qonaqlarımı niyə aşağılayım ki?".

# Rozadan Sevinc-Sevilə və Anara mesaj: "Ölüləri diriltməyəcəm"

***Müğənni Roza Zərgərli şou aləmində küsülü olduğu şəxslər barədə danışıb.***



İfaçı bildirib ki, incik olduğu Sevinc-Sevil Səfərova bacıları və stilist Anar Ağakişiyevlə heç vaxt barışmayacaq: "Mən çox kinli insanam. Həyatda çox səbirli insanam. Mənim üzüm bir insandan döndüsə, o, mənim üçün bitdi. Övladlarıma da bunu demişəm. Həyatımda elə insanlar var ki, onları silmişəm. Hətta son nəfəsimdə Əzrail desə ki, bu insanları bağışla, bağışlamayacam.

Bağışlamayacağım insanlar arasında şoubiznesdə olanlar da var, kənarda olanlar da. Şou-biznesdə heç vaxt bağışlamayacağım Sevinc-Sevil bacıları və stilist Anar Ağakişiyevdir. Səbəblərini açıqlamayacam. Onları bağışlamayacağam. Ölüləri diriltmək lazım deyil. Hətta bu yaxınlarda əkiz bacılar maqazin verilişində barəmdə kübar danışdılar. Amma barışmayacağam".

# Gülay Zeynallı efirdə ağladı - Hər şeyi açıqladı



***Müğənni Gülay Zeynallı keçirdiyi çətin günlərdən danışıb.***

Lent.az -ın canlı yayımında qonaq olan ifaçı ata itkisinin ona çətin olduğunu bildirib: "İllər öncəyə qayıtmaq imkanım olsaydı, istəyərdim ki, atamın yanında olum. Onun qayğısını görmək istəyərdim. Bizi babam böyüdüb. Babam dünyasını dəyişəndə, biz çox pis olduq. Amma atam vəfat edəndə bir başqa oldum. Gördüm ki, ata itkisi tamam başqadır. Hələ mən onun yanında böyüməmişdim, çox pis oldum. İndi bir anam, bir nənəm və iki bacım var. Hər zaman Allahımdan arzu edirəm ki, mənə elə pul qismət eləsin ki, onların bütün arzularını yerinə yetirə bilim. Bəzən ortancıl bacım mənə yazır, ona cavab yazana qədər ürəyim düşür. Deyirəm ki, nəsə olub? (Ağlayır) Mən güclü xanım kimi görünə bilərəm, amma daxilən zəif biriyəm. Bəlkə də buna səbəb, vaxtından tez yüküm çox olub".

# "Əgər Yaşar Nurinin qızının saxlayanı varsa..." – Ülkər Nuriyeva

***Mərhum xal artisti Yaşar Nurinin müğənni qızı Ülkər Nuriyeva, ARB telekanalına müsahibə verib.***



Maraqlı açıqlamaları ilə diqqət çəkən Ülkər insanların onu bəzən ilk baxışdan düzgün tanımadıqlarını deyib: ""Papa" sağ olsaydı, əlbəttə, səhnədə olardım. Çox adam deyir ki, yox, icazə verməzdi, oxumazdın. Yaşar Nuri öz qızının istedadını görsəydi, hətta bəlkə də aktrisa olmağa icazə verərdi. Efirlər tez-tez çağırmırlar, mən sənəti atsam, bəziləri çox sevinər. Yaşar Nurinin qızı indiyə kimi geyinib-keçinib. Vallah, mən 1999 - 2000-ci ildə geyinən paltarları bəziləri indi geyinirlər. Atam mənim geymimi də görüb, heç vaxt deməyib ki, onu geyinmə, bunu geyinmə. Mən geyinmişəm, geyinirəm, geyinəcəm də.

Mənə heç kimin fikri önəmli deyil. Dolanışığımız odur ki, bacım işləyir. Bacımın öz ailəsi, öz övladı, öz uşağı var. Anama mən baxıram, evimə mən baxıram, hər şeyi mən edirəm. Bacım da arada gəlir, biz anama kömək edirik. Mənə hərdən deyirlər ki, Yaşar Nurinin qızını kimsə saxlayır, mən də düşünürəm ki, yaxşı, Yaşar Nurinin qızının saxlayanı var, Yaşar Nurinin qızının maşını yoxdu, gəlsinlər baxsınlar ki, mənim necə balaca evim var.

Bəziləri kimi "novastroyka"-larda qalmıram. Bu İnstaqram hamının evini yıxıb. Yazırlar şəkilimin altına ki, Yaşar Nurinin qızı yüngül hərəkət edir. Mən müğənni adamam, oynaya da bilərəm, rəqs də edə bilərəm, mən özümü çəkə də bilərəm. Yaşar Nurinin qızı, Yaşar Nurinin qızı... Yaşar da bir insan olub, aktyor olub, tanınmış bir sima olub. İndi onun qızı müğənnidir, oxuyur, heç kimlə də işi yoxdur ki?! Mən ailə dağıtmıram, kiməsə gedib yalvarmıram, oturmuşam, başımı aşağı salmışam. Restoranda işləyirəm, məclislərdə oxuyub pulumu qazanıram.

Ola bilər ki, sabah qarşıma elə bir insan çıxa ki, imkanlı bir adam ola bilər və mənə deyə bilər ki, Ülkər mən səni sevirəm. Mən də onu sevə bilərəm və mənə dəstək ola bilər. Ancaq o şərtlə mən onun dəstəyini qəbul edərəm ki, bir-birimizi sevək. Mən həyatda heç kəsə möhtac olmaq istəmərəm, heç bir kişiyə möhtac olmaq istəmərəm. İnşallah, maşınımı da alacam, anam istədiyi evi də alacam. Bir bağ evim var, hamının başına daş düşüb. Mənim bağ evim "remont"suz bağ evidi. Heç bir "remont"u yoxdur".